

## Azərbaycan növbəti hərbi gərginliyə sövq edilir

*Ermənistan uzun illər torpaqlarımızı işğal altında saxladığına görə düşünürdü ki, bu əbədi olacaq. Buna görə də Ermənistan Azərbaycan torpaqlarının bir hissəsini özünə birləşdirmişdi. Azərbaycan işğala son qoyub və Qarabağ üzərindən sərhədlərimizi müəyyənləşdiririk. Bu barədə fikirlərini "Unikal"la bölüşən politoloq Elxan Şahinoğlu deyib ki, bu belə də olmalıdır, sadəcə ermənilər buna alışmayıblar:*

Səh.13


# UNIKAL

№18 (2056) 22 may 2021-ci il

Qiyməti 40 qəpik

Qurucusu: Asəf Rzayev

www.unikal.org

unikal-1@mail.ru




## Ceyhun Bayramov beynəlxalq kürsüdən səsləndi

### XİN rəhbəri: "Ermənistan 10 noyabr bəyanatından irəli gələn öhdəlikləri pozur"

*Xarici işlər naziri Ceyhun Bayramov Avropa Şurası Nazirlər Komitəsinin 131-ci iclasında çıxış edib. Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən "Unikal"a verilən məlumata görə, bu ilin 25 yanvar tarixində Azərbaycanın Avropa Şurasına üzvlüyünün 20-ci ildönümü tamam olduğunu bildirən nazir, Avropa Şurasına üzv olduğu müddətdə Azərbaycan bu təşkilat və onun müxtəlif təsisatları ilə təşkilatın bütün istiqamətləri üzrə konstruktiv əməkdaşlığa fəal şəkildə cəlb olunduğu və bu əməkdaşlığın qarşılıqlı hörmət və anlayış əsasında davam etdirilməsində maraqlı olduğunu qeyd edib. Nazir Ceyhun Bayramov cari ildə Azərbaycanın 1991-ci ildə müstəqilliyinin bərpasının 30-cu ildönümünün qeyd olunduğu və 30 illik müstəqillik...*

Səh.2



## İlham Əliyevdən Ermənistanla bağlı mühüm çağırış

Səh.3

## "Bəzi müxalifətçilər Azərbaycanın qələbəsinə kölgə salmağa çalışırlar"



*Azərbaycan-Ermənistan sərhədində baş verən son gərginliklə bağlı müzakirələr davam edir. Ermənistan tərəfi müxtəlif istiqamətli təxribatlarını davam etdirsə də, Azərbaycan sərhədlərin tam dəqiqləşdirilməsi üçün zəruri, hüquqi addımlarını atır. "Unikal" qəzetinə müsahibə verən Qarabağ Azadlıq...*

Səh.4

## Sabiq nazirin ailə biznesi böhranlı günlərini yaşayır



*Sabiq Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Səlim Müslümovun həbsindən sonra onun ailə biznesi çətinliklərlə üzləşib. Belə ki, Müslümovun yaxınlarına məxsus bəzi şirkətlər fəaliyyətini ya tamamilə dayandırıb, ya da xeyli dərəcədə məhdudlaşdırıb.*

Səh.5

## Alimpaşa Məmmədovun həbsi ətrafında ilginc təfərrüatlar...



*Bu yaxınlarda hüquq-mühafizə orqanları tərəfindən saxlanılan Şəmkir rayonunun sabiq icra başçısı Alimpaşa Məmmədov barəsində həbs qətimkan tədbiri seçildikdən sonra gözlər təbii olaraq keçmiş "vergilər şefi" Fazil Məmmədova yönəlmişdi. Bu da təsadüfi deyildi: axı peşəsi tamada olan sabiq...*

Səh.12

# “Avroviziya-2022” Şuşada keçirilə bilər? - Yarışmasının əvvəlki qalibi bunu arzuladı



***Niderland Krallığının Rotterdam şəhərində keçirilən “Avroviziya -2021” mahnı müsabiqəsində Azərbaycan ifaçısı Samirə Əfəndi finala çıxıb. O, finalda “Mata Hari” mahnısı ilə 21-ci nömrə altında oxuyacaq.***

Samirə Əfəndinin ifasını bəyənən bəzi sənət adamları onu hətta “Avroviziya-2021”in qalibi kimi görür. Mahnı yarışmasını izləyənlərin bəzləri sosial şəbəkələrdə yazdıqları qeydlərində Azərbaycanın 1-ci yeri tutmasını və “Avroviziya-2022”in Şuşada keçirilməsini arzulayırlar.

“Avroviziya-2011”in qalibi Eldar Qasımov sabah keçiriləcək final haqqında Modern.az-ın əməkdaşı ilə söhbətləşib.

Eldar Qasımov da növbəti “Avroviziya” yarışmasının Şuşada keçirilməsini arzulayanlardandı:

“Avroviziya 2022”nin Şuşada keçirilməsi çox möhtəşəm bir hadisə ola bilər. Çoxları kimi mən də bunun arzusundayam”.

Lakin E.Qasımov “Avroviziya-2022”nin Şuşada keçirilməsinin çətinliklərdən də söz açıb.

“Şuşada “Avroviziya” müsabiqəsinin keçirilməsi üçün öncə orada infrastruktur, hava limanı və otellər olmalıdır. Əsas məsələ isə böyük bir konsert zalının hazırlanmasıdır”.

E.Qasımov deyib ki, builki “Avroviziya” mahnımız fərqli janrdadır: “Dünən ikinci yarımfinal keçirildi və gördüm ki, Azərbaycandan başqa Şərq üslublu mahnı ilə çıxış edən yoxdur. Biz yarışmada ilk növbədə musiqimizlə seçilirik. Təmsilçimiz Samirə Əfəndi isə işinin öhdəsindən çox gözəl gəldi. Yarışmanın yaxşı sonluqla bitəcəyini düşünürəm. Bu elə bir müsabiqədir ki, əvvəlcədən hər şeyi bilmək olmur, sadəcə 3 dəqiqə vaxt verilir və sən bu üç dəqiqə içərisində insanları valeh etməli, onların yaddaşında iz qoymalısan. Hər şey üç dəqiqəlik çıxışdan asılıdır, bu səbəbdən nə baş verəcəyini bilmirik. Eyni zamanda, digər iştirakçıların özünü necə göstərməsindən də çox şey asılıdır. Ümidvaram ki, hər şey çox yaxşı olacaq”.

# Xalq artistindən gənc müğənnilərə - "Yazıqlar"

***Xalq artisti Cavan Zeynallı gənc ifaçıları tənqid edib.***

“Unikal” axşam.az-a istinadən xəbər verir ki, müğənni ”MTV Azərbaycan”a açıqlamasında gəncləri tanımadığını deyib. O, hazırda gündəmdə olanları ”yazıq” adlandırıb: ”İndi oxuyanlar cavanlardır. Tofiq Quliyev, Rauf Hacıyev, ”Qaya”nın mahnılarını oxuyurlar. Bəstəkarlar dünyasını dəyişib, amma mahnıları oxunur və sevilir. İndikilər cavandır, amma istəyirlər bütün dünyada onları bilsinlər. Belə şey olmaylb, olmayacaq da. Mən Aygün Kazımova, Röya Ayxanı tanıyıram. Onlarla konsertlərdə iştirak edirdim”.



”Damla, Şəbnəm Tovuzlunu tanıyırsız” sualına müğənni ”Tanımıram, çünki beynimdə yer yoxdur. Musiqi məktəbini bitirmişəm. Skripka, piano ifa edirdim. Musiqi məktəbi, konservatoriya bitirmişəm. İndikilər oxumaq nədir bilmir, yazıqdılar, hara getsinlər? Müəllimlər də yoxdur. Zaman ayrı tərəfə getdi. Necə mahnı yazılır? Ona görə də birgünlük mahnılar yazılır. Oxuyan da deyir, birnömrədir”.



# Vasifin ad günündə barışdılar

***Müğənnilər Mətanət Əsədova və Manaf Ağayev bir müddət əvvəl küsmüşdü.***

“Unikal” xəbər verir ki, bir vaxtlar yaxın dost olan ifaçıların arasına müğənni Nazənin girmişdi.

M.Əsədova və M.Ağayev Əməkdar artist Vasif Məhərrəmlinin ad günündə bir araya gəliblər. Manaf birlikdə çəkilən fotolarını sosial şəbəkədə yayımlayaraq, aralarındakı buzların əridiyini göstərib.

# Şuşadan paylaşım edən Xalq artistinin səhifəsi şikayət olundu

***Xalq artisti Firəngiz Mütəllimovanın səhifəsini ermənilər şikayət edib.***

Unikal.org xəbər verir ki, buna səbəb aktrisanın Şuşadan etdiyi paylaşımlar olub. O bildirib ki, yayımladığı videolar və fotolara görə saysız-hesabsız şikayət alır.

”Şuşadan etdiyim paylaşımlara görə ermənilər şikayət edib səhifəmi bağlatdırmaq istəyirlər. Xahiş edirəm, bu fürsəti o alçaqlara verməyin” deyən, Mütəllimova izləyicilərdən kömək istəyib.

# Xalq artisti Rəqsanə və əkizlərə səsləndi: "Sənəti tapdalamayın"



***”Rəqsanə, ora gələnlər sənin dostların, sənət yoldaşlarındır. 20-25 ildir sənətdəsən, həmin ifaçılarla konsertlərdə, toylarda çiyin-çiyinə olmusan. Gediblər pul qazanmağa. Niyə haqlarında elə deyirsən?”.***

Bu sözləri Xalq artisti Səməd Səmədov müğənni Rəqsanə İsmayılovanın ünvanına deyib. Sənətçi Rəqsanənin Rusiyaya işləməyə gedən ifaçıları təhqir etməsinə münasibət bildirib.

S.Səmədov Sevil və Sevinc Səfərova bacılarının ”Rusiyada göyərti qiymətinə oxuyurlar” sözlərini də tənqid edib: ”O ki qaldı ucuz, göyərti qiymətinə toya getməyə... Məsləhət görməzdim belə deyilsin. Göyərti qiymətinə getsələr də, deyin 10-20-30 minə toya gedirlər. Tapdalamayın... Musiqiçi dostlardan xahiş edirəm, bizim sənəti tapdalamayın”.

# Klip çəkdirmək istədi, heyət koronavirusa yoluxdu

***Müğənni Gülay Zeynallı uzun fasilədən sonra ”Elə bil” adlı yeni layihəsini təqdim edib.***

Axşam.az xəbər verir ki, sənətçi musiqisi Tərlan Məmmədhüseynov, sözləri meyxanaçı Rəşad Dağlıya məxsus mahnını ekranlaşdırıb. O, bunun üçün rejissor Delee Orucluya müraciət edib.

”Klip çox başıbəlalı oldu. Çəkilişləri iki dəfə təxirə salındı. Buna komandaya daxil olan uşaqların koronavirusa yoluxması səbəb oldu. Tilsimi heç cürə qıra bilmirdik. Axır ki, çəkildi. Klip Bakıda lentə alınıb. Mənim üçün dörd özəl geyim hazırlanıb. İstifadə etdiklərimin hamısı bahalı zinət əşyalarıdır, heç bir aksessuar yoxdur. Stilim üzərində Elnur Həsənov çalışıb. Ümid edirəm ki, izləyicilər bəyənəcək” deyə G. Zeynallı söyləyib.

# Deputat həbsdə qalan jurnalistə görə etiraz etdi

***Deputat Sabir Rüstəmxanlı jurnalist Niyaz Niftiyevlə bağlı Milli Məclisdə məsələ qaldırdı.***

Unikal.org xəbər verir ki, parlamentin iclasında çıxış edən deputat Sabir Rüstəmxanlı tanınmış jurnalist Niyaz Niftiyevin həbsdə saxlanmasına etiraz edib: "Niyaz Niftiyev tanınmış jurnalistdir. Dəfələrlə mükafatlandırılıb. Prezident tərəfindən təltif edilib. Sonradan səhv edib, bələdiyyə üzvü, daha sonra bələdiyyə sədri seçilib. Qısa müddət keçdi, rüşvət aldığı iddia edilib. O jurnalist 1 il 3 aydır həbsdədir, xəstə anası var. Hökm verilməyibsə, onu niyə həbsdə saxlayırsınız?".

Xatırladaq ki, Binəqədi qəsəbə bələdiyyəsinin keçmiş sədri, jurnalist Niyaz Niftiyev 2020-ci ildə xüsusi karantin rejimi qaydalarını pozaraq sərbəst hərəkət etmək istəyən ayrı-ayrı şəxslərə guya meyvə-tərəvəz və digər yeyinti məhsullarının satışı ilə məşğul olduqları barədə saxta arayışlar verməkdə təqsirləndirilir.

Jurnalistə Cinayət Məcəlləsinin 320.1-ci (Rəsmi sənədləri, dövlət təltiflərini, möhürləri, ştampları, blankları saxtalaşdırma, qanunsuz hazırlama, satma və ya saxta sənədlərdən istifadə etmə) və 139-1.1-ci (epidemiya əleyhinə və karantin rejimlərinin pozulması) maddələri ilə cinayət işi açılıb.

Bakı Ağır Cinayətlər Məhkəməsində Niyaz Niftiyev cinayət işi üzrə artıq məhkəmə iclası keçirib. Onunla bərabər bələdiyyə sədrinin müavini olmuş Mətanət Nəsibova və Bələdiyyə vergiləri və yerli gəlirlər şöbəsinin müdiri Sahib Abışovun cinayət işi üzrə məhkəmə iclası keçirilib.

Amma təqsirləndirilənlərdən yalnız N.Niftiyev həbsdədir. Digər iki şəxs barəsində polis nəzarətinə verilmə qətimkan tədbiri seçilib.

N.Niftiyev ittihamları qəbul etmir. O bildirir ki, verilən saxta arayışlarda onun imzası olmayıb. NNiftiyev deyir ki, aprelin əvvəlindən sədr kimi işə başlayıb, amma arayışlar martın 31-də verilib və imzalanıb.

Qeyd edək ki, N.Niftiyev uzun müddət jurnalist fəaliyyəti ilə məşğul olub. O, Mətbuat Şurası İdarə Heyətinin üzvüdür. Azadinform.az saytının rəhbəri idi.

# Səfər Mehdiyev rusiyalı həmkarı ilə görüşdü

***Mayın 20-də Moskva şəhərində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-polkovniki Səfər Mehdiyev və Rusiya Federasiyası Federal Gömrük Xidmətinin rəhbəri Vladimir Bulavin arasında görüş keçirilib.***

"Unikal" xəbər verir ki, Görüş Azərbaycan Respublikasının Baş naziri Əli Əsədovun rəhbərliyi ilə nümayəndə heyətinin Rusiya Federasiyasına rəsmi səfəri çərçivəsində baş tutub. Rusiya Federasiyası Federal Gömrük Xidmətinin rəhbəri Vladimir Bulavin Azərbaycan və Rusiya arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyini, bütün sahələrdə, o cümlədən gömrük sahəsində qarşılıqlı əməkdaşlığın yüksək səviyyədə olduğunu vurğulayıb. Vladimir Bulavin Azərbaycan gömrük xidmətinin narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizə işini, xüsusilə son aylar bu sahədə əldə edilən uğurları, eləcə də Kinoloji Mərkəzin fəaliyyətini yüksək dəyərləndirib.

Federal Gömrük Xidmətinin rəhbəri Rusiya - Azərbaycan sərhədində, Yaraq-Qazmalar buraxılış məntəqəsində sıxlıqların aradan qaldırılması üçün artıq yenidənqurma və yol infrastrukturunun təkmilləşdirilməsi işlərinin aparıldığını diqqətə çatdırıb.

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri Səfər Mehdiyev Azərbaycan ilə Rusiya arasında qarşılıqlı əməkdaşlıq münasibətlərindən məmnunluqla bəhs edib və iki ölkənin işgüzar, peşəkar əlaqələrə malik olan gömrük orqanlarının bu münasibətlərin inkişafına töhfə verdiyini vurğulayıb.

Son illər Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkənin gömrük sistemində həyata keçirilən islahatlar barədə məlumat verən Səfər Mehdiyev tətbiq edilən yeniliklər hesabına mühüm nailiyyətlərin əldə olunduğunu bildirib. Komitə sədri Azərbaycanın xarici ticarət dövriyyəsində Rusiya Federasiyasının xüsusi çəkiyə malik olduğunu vurğulayıb, iki ölkənin iqtisadi və ticarət münasibətlərinin daha da inkişaf etdirilməsi üçün mövcud olan əlavə imkanlardan səmərəli istifadə olunacağına əminliyini ifadə edib.

Görüşdə gömrük nəzarəti nəticələrinin elektron formada qarşılıqlı tanınmasına dair Protokolun tətbiqi, Yaraq-Qazmalar və Samur buraxılış məntəqələrində mövsümi xarakterli növbələrin aradan qaldırılması, yenidənqurma işlərindən sonra Tahirkənd-Qazmalar və Xanoba buraxılış məntəqələrinin fəaliyyətinin sinxronlaşdırılması, yük axınının Yaraq-Qazmalar-Samur avtomobil buraxılış məntəqəsindən Dərbənd-Yalama dəmiryolu məntəqəsinə paylanması məsələlərinə baxılıb.

Tərəflər informasiya-kommunikasiya texnologiyaları sahəsində birgə əməkdaşlıq, Ümumdünya Gömrük Təşkilatı çərçivəsində qarşılıqlı fəaliyyətin effektivliyinin artırılması barədə də müzakirələr aparıblar.

# Alimpaşa Məmmədovun həbsi ətrafında ilginc təfərrüatlar...

## Sabiq icra başçısı ona himayədarlıq etmiş eks-nazirin yaxasını ələ verəcəkmi?



***Bu yaxınlarda hüquq-mühafizə orqanları tərəfindən saxlanılan Şəmkir rayonunun sabiq icra başçısı Alimpaşa Məmmədov barəsində həbs qətimkan tədbiri seçildikdən sonra gözlər təbii olaraq keçmiş "vergilər şefi" Fazil Məmmədova yönəlmişdi. Bu da təsadüfi deyildi: axı peşəsi tamada olan sabiq icra başçısı məhz eks-nazirin sayəsində qısa vaxtda və inanılmaz karyera yüksəlişi yaşamışdı.***

Hətta uzun illər F.Məmmədovun "sağ əli" hesab olunan A.Məmmədov sabiq "vergilər şefi"nin etimadını doğrultmağı bacarmışdı. O, uzun illər vergi orqanlarında yüksək vəzifələr tutaraq bir yandan dövlət vəsaitlərini çapıb-talamaqla, o biri yandan isə sahibkarları "soyub soğana çevirməklə" həm mövqelərini gücləndirmiş, həm də fantastik sərvət sahibinə çevrilmişdi.

Hər kəsə məlumdur ki, Alimpaşa Məmmədov öncə Salyan, ardınca Şəmkir vergi idarələrinin rəisi olub. Salyanda işləyərkən sahibkarlara divan tutduğuna görə çoxsaylı şikayətlərdən sonra barəsində prokurorluqda cinayət işi başlanıb. Mediada yazılanlara görə, hətta hüquq-mühafizə orqanları tərəfindən saxlanılıbmış da... Lakin bu məsələ sonradan müəmmalı şəkildə qapadılıb. Əslində buna "müəmmalı şəkildə" demək doğru deyil. Onun vəziyyətdən çıxması Fazil Məmmədovun sayəsində mümkün olub. Əks halda Salyandakı hadisədən sonra Alimpaşa müəllim daha böyük rayona - Şəmkir Rayon Vergilər İdarəsinə rəis göndərilməzdi.

A.Məmmədov bu rayonda da qalmaqaldan kənarda qala bilməyib: belə ki, Şəmkirin o vaxtkı icra başçısı, 3 il əvvəl dünyasını dəyişmiş Aslan Aslanovla arasında qarşıdurma yaranıb. Aslanovun yuxarı dairələrə ardıcıl şikayətlərindən sonra Fazil Məmmədov onun vəzifəsini dəyişməyə məcbur olub. Beləliklə, Alimpaşa Məmmədov bu dəfə daha yüksək vəzifəyə - Vergilər Nazirliyinin Operativ Nəzarət İdarəsinə rəis təyin edilib. KİV-in yazdığına görə, o, bu vəzifədə də çox duruş gətirməyib: sabiq nazir sevimli kadrını "məsuliyyətli və gəlirli" sahəyə rəhbər göndərib. Onun Səbail Vergi İdarəsində rəis olduğu dövrdə Bakının ən bahalı ticarət, iaşə obyektlərindən aylıq "haqqın" miqdarı bir neçə dəfə artırılıb. Bu da sahibkarlar və onların yüksək ranqlı himayəçiləri arasında ciddi narazılıq yaradıb. Nəticədə hazırda həbsdə olan keçmiş icra başçısı qəzəbə tuş gəlib və Fazil Məmmədov bu dəfə onu müdafiə eləməkdə aciz qalıb: özünü də "yandırmaq" istəmədiyindən A.Məmmədovu vergi orqanlarından qovmağa məcbur olub!

Sevimli kadrı bir müddət işsiz qaldıqdan, haqqındakı mənfi fikirlər unudulduqdan sonra F.Məmmədov bu dəfə A.Məmmədovu Sumqayıt şəhəri, Abşeron, Siyəzən, Xızı rayonlarını əhatə edən 2 saylı Ərazi Vergilər İdarəsinə rəis göndərib. Şəmkirin keçmiş başçısının misilsiz varlanma dövrü bundan sonra daha da güclənib. Adi bir idarə rəisi öldə oliqarx kimi ad çıxarmağa başlayıb. Necə? - bu sualın cavabı üzərində baş sındırmağa dəyməz. Hər şey aydındır.

Nəhayət, 2014-cü ildə Fazil Məmmədov sevimli kadrının bu dəfə kuratoru olduğu Şəmkir rayonuna icra başçısı göndərilməsinə nail olub.

Sonluq bəllidir: sabiq "vergilər şefi"nin "vurulmasından" təxminən iki il sonra Alimpaşa Məmmədov da qandallandı. Əslində onun indiyədək işlədiyi əksər vəzifələrdəki əməllərini nəzərə alsaq bu sonluq təsadüfi deyil.

Elə o da təsadüfi deyil ki, keçmiş icra başçısının həbsindən sonra gözlər həm də Fazil Məmmədova çevrildi. Axı Alimpaşa Məmmədovun həm vergi sistemində çalışdığı, həm də Şəmkir rayonuna rəhbərlik etdiyi dövrdə istədiyi kimi at oynatmasının başlıca səbəbi arxasındakı güc, aşkar himayəçi - yəni sabiq "vergilər şefi" idi. Ona görə də hər kəsi düşündürən suallardan biri də indi məhz budur: keçmiş icra başçısının qanunsuz əməlləri ilə bağlı istintaq dərinləşdikcə, prosesin bir ucu Fazil Məmmədovadək uzanacaq, ya yox?

Hələlik yuxarıdakı suala dəqiq cavab vermək çətindir. Odur ki, gözləyək. Necə deyərlər, yaşayıb görərik.

Ancaq bir məsələ dəqiqdir: istintaq davam etdiyi müddətdə, daha sonra isə məhkəmə prosesi boyunca sabiq "vergilər şefi"nin rahat yuxu yata biləcəyi çətindir...

***Sənan Mirzə***

# Azərbaycan növbəti hərbi gərginliyə sövq edilir

## Ermənistan təxribat xarakterli fəaliyyətini dayandırmasa, növbəti zərbə ilə qarşılaşa bilər

***Ermənistan uzun illər torpaqlarımızı işğal altında saxladığına görə düşünürdü ki, bu əbədi olacaq. Buna görə də Ermənistan Azərbaycan torpaqlarının bir hissəsini özünə birləşdirmişdi. Azərbaycan işğala son qoyub və Qarabağ üzərindən sərhədlərimizi müəyyənləşdirirk.***

Bu barədə fikirlərini "Unikal"la bölüşən politoloq Elxan Şahinoğlu deyib ki, bu belə də olmalıdır, sadəcə ermənilər buna alışmayıblar: "Ona görə də haray-həşir salırlar. Bizə aid olan ərazilərin Azərbaycan sərhədçilərinin nəzarətinə götürülməsi Ermənistanda parlament seçkisi öncəsində baş nazir vəzifəsini icra edən Nikol Paşinyanın mövqelərini zəiflədir. Ona görə də o və onun nazirləri gün ərzində Moskvaya zənglər edir, yalvarır və Azərbaycandan şikayət edirlər. İrəvan prosesə Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatını da qoşmaq istəyir. İrəvandan Moskvaya edilən çoxsaylı zənglərin və yalvarışların nəticəsidir ki, Azərbaycanı yenicə tərk edən Rusiyanın xarici işlər naziri Sergey Lavrov azərbaycanlı həmkarı Ceyhun Bayramova zəng edib. Nazirlər Azərbaycan və Ermənistan sərhədində baş verən gərginlik ilə bağlı fikir mübadiləsi aparıblar. Tərəflər gərginliyin siyasi və diplomatik yolla həllinin vacibliyini vurğulayıblar. Lavrova yəqin o da təsir edib ki, əgər Ermənistanla Azərbaycan arasında gərginlik yenə də artıbsa demək onun bölgəyə səfərinin nəticəsi olmayıb. Lavrov Azərbaycana səfər etdi deyə biz öz haqlarımızdan imtina edəsi deyilik, əksinə Moskvaya anlatmalıyıq ki, bizə aid olanların hamısını geri qaytaracağıq".

Politoloq onu da deyib ki, doğru bildiyimiz işi davam etdirməliyik. Torpaq məsələsində güzəşt ola bilməz. Ermənistan müharibədən zəif düşüb, bundan maksimum istifadə etmək lazımdır. Rusiya hərbçilərinin Qarabağda yerləşdirilməsi bizə sərhədlərimizi müəyyənləşdirməyə mane olmamalıdır. Moskvadan zənglər ola bilər, ancaq onlara veriləcək cavabımız da var: "Biz sərhədlərimizi müəyyənləşdirir və bizə aid olana sahiblənirik".

Milli Məclisin deputatı Sahib Alıyev "Unikal"a açıqlamasında deyib ki, Prezident İlham Əliyevin Azərbaycan-Ermənistan sərhəddində yaranmış vəziyyətlə bağlı səsləndirdiyi fikirlərdən sonra rəsmi Moskva da nəhayət o haqda öz mövqeyini açıqladı. Deputat bildirib ki, Rusiya Prezidentinin sözçüsü Peskov "Vladimir Putin Qarabağla bağlı üçtərəfli razılaşmaların icrasına heç bir alternativ görmür", Xarici İşlər naziri Sergey Lavrov isə "Ermənistan-Azərbaycan sərhədindəki vəziyyət ətrafında emosiyaları qızışdırmağa səbəb yoxdur", - dedi.

S.Alıyev hesab edir ki, onların bu açıqlamaları Moskvanın "strateji müttəfiq" adlandırdığı forpostun azərbaycanlı hərbiçilərin guya torpaqlarını ələ keçirməsiylə bağlı qaldırdığı haray-həşirə ABŞ Dövlət Departamentiylə hayca danışan Makron Fransasının göstərdikləri canıyananlığın arxasında nə durduğunu yaxşı "oxuduğundan" xəbər verir: "Qərbdəkilər Azərbaycanın Ermənistanın sərhəddini pozmaq firkindən çox-çox uzaq olduğunu bilməmiş deyillər. Və bilə-bilə bizi belə bir "təxribat"a əl atmaqda suçlandırmaları ilk baxışda Ermənistana dəstək təsiri bağışlasa da, burada daha məkrli niyyət gizlənilir. Onlar vəziyyəti qızışdıraraq Azərbaycanla Rusiyanı üz-üzə qoymaq, sərhəddə toqquşma yaratmaq, bu, baş vermədikdə isə KTMT-ni, təbii ki, ilk növbədə də Moskvanı forpostdakıların gözündən salmaq istəyirlər. Eyni zamanda da öncə də bildirdiyim kimi regionda özlərinin də maraqlarının olduğunu, varlıqlarını xatırladırdılar.

Rusiya isə Güney Hərbi Dairəsinin komandanı ordu generalı Dvornikovu operativ şəkildə Ermənistana göndərməklə forpostdakılara və onları gələcək vassalları gözündə görən güclərə yiyəsiz olmadıqlarını, yiyələrinin də kim olduğunu anlatdı. Digər tərəfdən isə moskvadakılar Ermənistanla sərhəddə hər hansı gərginlik yaratmağın hazırda Azərbaycanın maraqlarına qətiyyən cavab vermədiyini və bizim sərhədçilərin elə onların 1975-ci ildə hazırladıqları topoqrafik xəritə əsasında hərkət etdiklərini gözəl bildiklərindən bir növ Azərbaycan Prezidenti İlham Əliyevin bu haqda Qazaxıstanın dövlət başçısı Kasım-Jomart Tokayevə dediklərini təkrarlamış oldular. Xatırladaq ki, bugünkü telefon danışığında cənab İlham Əliyev Tokayevə sərhəddə hər hansı bir toqquşma baş vermədiyini, danışıqların davam etdirildiyini, Ermənistanın yaranmış vəziyyətlə bağlı Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatını kömyə çağırmasının isə tamamilə əsassızlığını "məsələnin beynəlmiləlləşdirilməsi cəhdindən başqa bir şey olmadığını" bildirmişdi".

Deputat onu da vurğulayıb ki, Ermənistandakı qaynaqlar bir qrup yüksək rütbəli İran hərbçisinin İrəvana gələrək sərhədlərini qorumaq üçün Zəngəzura qoşun yeritməyə hazır olduqlarını bildirdiklərini, ancaq təkliflərinin rədd edildiyini xəbər verir: "Düşünmək olardı ki, bu hayların növbəti informasiya təxribatıdır. Ancaq İran Parlamentinin təhlükəsizlik və xarici əlaqələr komitəsinin sədri Mojtaba Zonnurun Azərbaycanın guya Ermənistanın sərhəddini pozmağa çalışdığına eyham vurması, bunun qarşısını alacaqlarını deməsi, onun ölkəsinin yük dolu maşınlarının yenidən Xankəndində peyda olması onu göstərir ki, rəsmi Tehran yenə də öz ampulasındadır. Təqribən 3 ay bundan öncə həmən Mojtaba Zonnur Bakıya təşrif gətirmişdi və digər İran rəsmiləri kimi guya Ermənistan üzərində qələbə çalmasına sevindiklərini bildirirdi. Amma "sevincləri uzun sürmədi, görünür onları Azərbaycanın işğal altında olan torpaqlarında 63 məscidi yerlə yeksan edən, bir çoxunun içində donuz saxlayanlarla daha böyük "dəyərlər" birləşdirir".

Maraqlısı odur ki, Ermənistanın müvəqqəti Baş naziri Nikol Paşinyan Azərbaycanla danışıqlar barədə imzalana biləcək sənədin olduğu haqda məlumatı təsdiqləyib. O, bu barədə hökumətin iclasında açıqlama verib. Paşinyan sənədin Azərbaycanın razılaşacağı təqdirdə imzalanacağını bildirib. O, danışıqlar davam etdiyi üçün hələ ki, sənədlərin mətninin ictimailəşdirilməyəcəyini və sənədin Ermənistanın maraqlarına uyğun olduğunu qeyd edib.

Milli Cəbhə Partiyasının sədr müavini politoloq Məhəmməd Əsədullazadə isə bizimlə söhbətində deyib ki, Ermənistanın müvəqqəti Baş naziri Nikol Paşinyanın Azərbaycanla razılaşma sənədinin Ermənistanın maraqlarına tam cavab verir kimi aciqlamaları ziddiyətlidir və Azərbaycan konkret olaraq yeni bir sənədə imza atacaq ki, bir qarış da ərazi güzəştə gedilməyəcək: "Ümumiyyətlə, üçtərəfli komissiya fəaliyyət göstərir və bu komissiya sərhədlərin müəyyənləşdirilməsini 11 yanvar razılaşmalarına uyğun həyata keçirəcək. Artıq Ermənistan razılaşmalara əməl etmək məcburiyyətində qalıb. Əksi isə, Azərbaycanın yeni təzyiqləri ilə üzləşməkdir. Hətta Paşinyanın sərhəddə silahlı təxribat edib seçkini təxirə salmağa cəhd etməyi də istisna deyildi. Rusiya prezidenti Vladimir Putinin ötən gün Azərbaycan və Ermənistan liderlərinə zəngi əldə olunan razılaşmaların həyata keçirilməsi ilə bağlı Ermənistan tərəfinə konkret təlimatları artıq prosesin geri dönüşünə imkan vermədi. Artıq sənədin bir hissəsi elan edilib. Baş nazir Nikol Paşinyana qarşı müxalifət partiyaları ciddi şəkildə siyasi təqibə başlayıb. Göründüyü kimi seçkilər



Ermənistanda ciddi çətin bir situasiyada keçəcək".

Amma politoloq onu da vurğulayıb ki, Ermənistan dövlət sərhədinin delimitasiyasından yayınır və Nikol Paşinyan seçki öncəsi sərhəddə təxribatlara hazırlaşır. Onun sözlərinə görə, prezident Armen Sarkisyan orduya əmr verib, Nikol Paşinyan isə heç bir dəhlizin olmayacağını vurğulayıb və Ermənistanın bu provakasiyaları və təxribatları sərhəddə hərbi toqquşmaya səbəb ola bilər: "Ermənistanda daxili və xarici proseslər mürəkkəb olaraq qalır. Nikol Paşinyanın seçki keçirdib hakimiyyətə gəlməsi də polimikadır. Çünki artıq onun reytinqi müəyyən qədər Ermənistanda aşağı düşüb. Buna görə də Paşinyan bu məsələdən narahatdır. Serj Sarkisyanın kürəkəni Minasyan yeni bir sənəd ortaya çıxardı və Paşinyanı satqınlıqda ittiham edib. Bu gedişat onu göstərir ki, seçki prosesi Paşinyanın əleyhinə işləyə bilər. Ona görə də, Paşinyan çalışır ki, sərhəddə vəziyyəti daha da gərginləşdirsin. O, öz həbçilərini qabağa verərək müəyyən təxribata gedə bilər. Bununla göstərmək istəyir ki, o, heç də sərhəd məsələsində geriyə addım atmır və prosesdə "qətiyyətlidir". Güman edirəm ki, bu təxribatlar böyük müharibəyə gətirib çıxarmayacaq, amma lokal insidentlərin baş verməsi Paşinyanın maraqlarına xidmət edə bilər. Paşinyan çalışır ki, hərbi toqquşma baş versin və seçkini ləğv etsin. Buna görə də, düşünürəm ki, hərbi təxribatlar mümkündür. Azərbaycan hərbçilərinə anti-terror tapşığının verilməsi, ABŞ-dan Azərbaycana səfərlərin edilməsi barədə çağırışlar göstərir ki, məsələ öz ciddiyyətini qoruyur. Belə bir qənaətə gəlmək olar ki, Azərbaycanla Ermənistan arasında sərhəddə vəziyyət kritikdir. Ermənistan tərəfindən hərbi təxribat törədilə bilər".

***Z.Məmmədli***

# Prezident nekroloq imzaladı



***Prezident İlham Əliyev Xalq rəssamı Tahir Salahovun vəfatı ilə bağlı nekroloq imzalayıb.***

Unikal.org xəbər verir ki, nekroloq da deyilir:

"Azərbaycan mədəniyyətinə ağır itki üz vermişdir. Azərbaycan təsviri sənətinin görkəmli nümayəndəsi, dünya şöhrətli rəssam, SSRİ və Azərbaycan Respublikasının Xalq rəssamı, Rusiya Rəssamlıq Akademiyasının vitse-prezidenti, Sosialist Əməyi Qəhrəmanı, SSRİ və Azərbaycan Respublikasının Dövlət mükafatları laureatı, Heydər Əliyev Mükafatı laureatı, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü Tahir Teymur oğlu Salahov 2021-ci il mayın 21-də ömrünün 93-cü ilində vəfat etmişdir. Tahir Salahov 1928-ci il noyabrın 29-da Bakı şəhərində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra o, 1945-1950-ci illərdə Əzim Əzimzadə adına Azərbaycan Rəssamlıq Məktəbində, 1951-1957-ci illərdə V.İ.Surikov adına Moskva Dövlət Rəssamlıq İnstitutunda təhsil almışdır. Tahir Salahov 1963-1974-cü illərdə Azərbaycan Dövlət İncəsənət İnstitutunda, 1975-ci ildən isə V.İ. Surikov adına Moskva Dövlət Rəssamlıq İnstitutunda pedaqoji fəaliyyət göstərmiş və 1984-1992-ci illərdə həmin institutda kafedra müdiri vəzifəsində çalışmışdır.

Tahir Salahov 1979-1983-cü illərdə UNESCO yanında Plastik Sənətlər Assosiasiyasının vitse-prezidenti, 1983-cü ildən fəxri prezidenti olmuş, 1992-ci ildə Rəssamların Beynəlxalq Federasiyasının vitse-prezidenti seçilmişdir. O, bir sıra ölkələrin mötəbər yaradıcılıq qurumlarının fəxri üzvü olmuşdur.

Tahir Salahov zəngin yaradıcılığında milli ənənələrlə dünya incəsənətinin ən mütərəqqi dəyərlərinin ahəngdar vəhdətinə nail olmuş və Azərbaycan mədəniyyəti salnaməsinə yeni parlaq səhifələr yazmışdır. Ötən əsrin 60-cı illərinin əvvəllərində Azərbaycanda özünəməxsus milli rəngkarlıq məktəbinin formalaşmasında Tahir Salahovun müstəsna xidmətləri vardır. "Sərt üslub" adlandırılan istiqamətin liderlərindən biri olan, daim yenilik hissi ilə yaşayan novator sənətkarın qrafik lövhələrində, mənzərə və natürmortlarında yaradıcı əməyin romantikası, mənəvi gözəllik, eləcə də yüksək amallı insanın daxili aləmi rənglərin incə çalarları ilə lakonik ifadəsini tapmışdır. Rəssam tariximizin və mədəniyyətimizin unudulmaz şəxsiyyətlərinin portretlərinin geniş qalereyasını yaratmış, bununla Azərbaycan boyakarlığının kamil nümunələrini meydana gətirmişdir. Sənətkarın mövzu və janr əlvanlığı, bədii forma rəngarəngliyi və estetik kamilliyi ilə səciyyələnən, ali məqsədlər naminə humanist fikirlər təlqin edən, hər birində Vətən torpağına sonsuz məhəbbət duyulan ecazkar tabloları mədəni irsimizin qızıl fondunda özünə həmişəlik layiqli yer tutmuşdur. Tahir Salahov eyni zamanda teatr-dekorasiya sənəti sahəsində uğurlu fəaliyyət göstərmiş, məharətli teatr rəssamı kimi səhnə əsərlərinə yaddaqalan orijinal bədii tərtibatlar vermişdir.

Tahir Salahovun dünyanın mötəbər muzeylərini, məşhur qalereyalarını bəzəyən və şəxsi kolleksiyalarda saxlanılan əsərlərinin, habelə hər biri hadisəyə çevrilən fərdi sərgilərinin Azərbaycan mədəniyyətinin ölkə hüdudlarından uzaqlarda təbliğində xüsusi əhəmiyyəti olmuşdur. Pedaqoq kimi biliyini, təcrübə və bacarığını gənc fırça ustalarının yetişdirilməsi işinə sərf etmiş Tahir Salahovun misilsiz yaradıcılıq təcrübəsi neçə-neçə yeni rəssamlar nəsli üçün bundan sonra da məktəb rolunu oynayacaqdır. Tahir Salahov, həmçinin ictimai xadim kimi tanınmış, SSRİ Ali Sovetinin və Azərbaycan Respublikası Ali Sovetinin bir neçə çağırış deputatı seçilmiş və ölkənin ictimai-siyasi həyatında yaxından iştirak edərək, mədəniyyət siyasətinin həyata keçirilməsinə töhfələr vermişdir.

Çoxsaylı beynəlxalq mükafatlara layiq görülən Tahir Salahovun uzunmüddətli səmərəli yaradıcılığı və məhsuldar ictimai fəaliyyəti hər zaman diqqət mərkəzində olmuş və yüksək qiymətləndirilmişdir. Müstəqil respublikamızın ali mükafatlarından olan "Heydər Əliyev", "İstiqlal" və 1-ci dərəcəli "Əmək" ordenləri ilə təltif edilməsi doğma Vətənində onun sənətinə və şəxsiyyətinə dərin ehtiramın təzahürüdür.

Görkəmli sənətkar, böyük ictimai xadim, əsl ziyalı və səmimi insan Tahir Teymur oğlu Salahovun işıqlı xatirəsi onu tanıyanların qəlbində daim yaşayacaqdır.

Allah rəhmət eləsin!

İlham Əliyev
Mehriban Əliyeva
Əli Əsədov
Sahibə Qafarova
Samir Nuriyev
Eldar Əzizov
Fərəh Əliyeva
Anar Kərimov
Fərhad Xəlilov
Ömər Eldarov
Salxab Məmmədov
Ağəli İbrahimov
Fuad Salayev".

Baş redaktor:
Zaur Əhməd

"Turanbank" ASC Binəqədi filialı.
h/h AZ74TURA41040011963500110944
M/h AZ26NAB01350100000000027944
Kod: 50462
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qazet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2500

# Səfirlik Rusiyadakı Azərbaycan vətəndaşlarına müraciət edib

***Rusiya ərazisində qeyri-qanuni yaşayan azərbaycanlılara müraciət edilib.***

Müraciəti Azərbaycanın Rusiyadakı Səfirliyi yayıb. Müraciətdə qeyd olunur ki, Azərbaycan vətəndaşları iyunun 15-dək Rusiya ərazisində öz hüquqi vəziyyətlərini nizamlamaq məqsədi ilə faktiki yerləşmə yerlərində, bölgə və şəhərlərdə Daxili İşlər Nazirliyinin ərazi orqanlarının miqrasiya məsələləri üzrə bölməsinə ən qısa zamanda müraciət etməlidirlər.

Rusiya qanunvericiliyi ilə müəyyən edilmiş müvafiq cərimə (təxminən 5 000 rubl) və ya rüsumun ödənilməsindən sonra onların Rusiya ərazisində statusunun leqallaşdırılması aparılacaq. Rusiyada olan vətəndaşlarımıza qısa müddət ərzində aidiyyəti üzrə müraciət etmələri tövsiyə edilir.

# Mehriban Əliyevadan Tahir Salahovla bağlı PAYLAŞIM



***Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva özünün instaqram səhifəsində xalq rəssamı Tahir Salahovla bağlı paylaşım edib.***

Unikal.org xəbər verir ki, paylaşımda deyilir: "Tahir Salahov təmizürəkli, səmimi, son dərəcə bacarıqlı və səxavətli insan idi. O, özünün çoxşaxəli istedadı, tükənməz enerjisi, peşəsinə hədsiz sədaqəti sayəsində bütün dünyada sənətsevərlərin böyük və sonsuz sevgisini qazanmışdı. Tahir Salahovun nurlu xatirəsi doğmalarının, həmkarlarının, dostlarının və onun nadir istedadının çoxsaylı pərəstişkarlarının qəlbində əbədi yaşayacaqdır".

# Ceyhun Bayramov beynəlxalq kürsüdən səsləndi

## XİN rəhbəri: "Ermənistan 10 noyabr bəyanatından irəli gələn öhdəlikləri pozur"



***Xarici işlər naziri Ceyhun Bayramov Avropa Şurası Nazirlər Komitəsinin 131-ci iclasında çıxış edib.***

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən "Unikal"a verilən məlumata görə, bu ilin 25 yanvar tarixində Azərbaycanın Avropa Şurasına üzvlüyünün 20-ci ildönümü tamam olduğunu bildirən nazir, Avropa Şurasına üzv olduğu müddətdə Azərbaycan bu təşkilat və onun müxtəlif təsisatları ilə təşkilatın bütün istiqamətləri üzrə konstruktiv əməkdaşlığa fəal şəkildə cəlb olunduğu və bu əməkdaşlığın qarşılıqlı hörmət və anlayış əsasında davam etdirilməsində maraqlı olduğunu qeyd edib.

Nazir Ceyhun Bayramov cari ildə Azərbaycanın 1991-ci ildə müstəqilliyinin bərpasının 30-cu ildönümünün qeyd olunduğu və 30 illik müstəqillik dövründə ilk silahlı münaqişəsiz il olduğunu vurğulayıb. 10 noyabr 2020-ci il tarixində Azərbaycan, Rusiya və Ermənistan liderləri tərəfindən imzalanmış üçtərəfli bəyanatın Ermənistan və Azərbaycan arasında 30 ilə yaxın davam edən silahlı münaqişəyə son qoyduğu qeyd edilib. Sözügedən sənədin iki ölkənin suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına qarşılıqlı hörmət əsasında Ermənistan və Azərbaycan arasında münasibətlərin normallaşması üçün lazımı şəraiti yaratdığını iclas iştirakçılarının diqqətinə çatdırılıb.

Eyni zamanda, C.Bayramov hələ də Ermənistan tərəfindən 10 noyabr tarixli bəyanatdan və ümumilikdə, beynəlxalq humanitar hüquqdan irəli gələn öhdəliklərinin pozulmasının şahidi olduğumuzu təəssüf ilə qeyd edib. Bu xüsusda, Ermənistanın hələ də Azərbaycanın işğaldan azad olunmuş ərazilərində yerləşdirilmiş minaların xəritələrini təqdim etməkdən imtina etməsi, eləcə də Ermənistan 1991-1994-cü illər ərzində Azərbaycana qarşı törətdiyi hərbi təcavüz nəticəsində itkin düşmüş 4000-ə yaxın Azərbaycanlının taleyi barədə məlumatı təqdim etməməsinin ciddi narahatlıq kəsb etdiyi vurğulanıb.

Nazir Avropa Şurası da daxil olmaqla, beynəlxalq ictimaiyyəti Ermənistanı revanşist fəaliyyət və Azərbaycana qarşı olan nifrətdən imtina edərək, davamlı sülh, regional əməkdaşlıq və inkişaf üçün unikal imkandan istifadə etməyə inandırmaqda qətiyyət nümayiş etdirməyə çağırıb.

Ceyhun Bayramov çıxışında Avropa Şurası Nazirlər Komitəsində sədrliyini müvəffəqiyyətlə başa vurması münasibətilə Almaniyanı təbrik edib və gələcək Macarıstan sədrliyinə tam dəstəyimizi ifadə edib.

# İlham Əliyevdən Ermənistanla bağlı mühüm mesaj

## Prezident: "Müharibəni doğru vaxtda dayandırdıq, indi isə barışmaq vaxtıdır"

***Xəbər verildiyi kimi, mayın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin "Cənubi Qafqaz: Regional inkişaf və əməkdaşlıq perspektivləri" adlı videoformatda müzakirələri keçirilib.***

Azərbaycan Prezidenti İlham Əliyev tədbirdə çıxış etdi. Ölkə başçısı bir sıra mühüm məqamlara toxunub.

"Mən tamamilə əminəm ki, Azərbaycan ilə Ermənistan arasında sülh sazişi mümkündür. Bundan əlavə, sizə deyə bilərəm ki, nisbətən qısa müddətdə buna nail olmaq da mümkündür". Bunu Prezident İlham Əliyev Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin videoformatda keçirdiyi "Cənubi Qafqaz: Regional inkişaf və əməkdaşlıq perspektivləri" adlı müzakirələrdə çıxışı zamanı deyib. Dövlət başçısı bildirib ki, indi çatışmayan məsələ Ermənistan tərəfindən siyasi iradənin olmamasıdır: "Çünki mən dəfələrlə açıq şəkildə demişəm ki, Azərbaycan Ermənistanla sülh sazişi üzərində işləməyə hazırdır və əlbəttə, bu saziş imzalansa, təhlükəsizliklə, gücün tətbiq edilməməsi, cari vəziyyətlə əlaqədar reallıqların qəbul olunması ilə bağlı məsələlər bu sülh sənədinin ayrılmaz tərkib hissəsi olacaq. Nə etmək lazımdır? Hesab edirəm ki, Ermənistanda parlament seçkiləri keçirilənədək gözləmək lazımdır və biz bu dövrün Ermənistanda həssas bir dövr olduğunu anlayırıq.

Biz düşünürdük və əmin idik, ən azından mən belə düşünürdüm ki, diaspor işğal olunmuş ərazilərə çoxlu pul xərcləyir. Çünki hər il onlar vəsait toplamaq üçün marafonlar təşkil edirdilər. Onlar ildə ola bilsin yüz milyondan çox vəsait toplayırdılar. Demək istəyirəm ki, bu, kiçik ərazi üçün, kiçik əhali üçün böyük bir vəsaitdir. Lakin biz bu vəsaiti görmədik. Ermənilərin işğal etdiyi və onların dediyinə görə, "erməni şəhəri" olan Şuşa tamamilə dağıdılmışdı, tam yoxsulluq içində idi".



Dövlət başçısı bildirib ki, onların yaşadığı regionlarda bu investisiyanı görmək mümkün olmayıb: "Ya bu vəsait toplanmayıb, ya da başqa yerlərə yönləndirilib. İndi də diaspor çox qeyri-məhsuldar rol oynayır. Çünki müharibənin nəticəsi aydındır. Müharibə noyabrın 9-dan 10-na keçən gecə dayanmasaydı, Ermənistanın vəziyyəti hətta lap çətin olardı. Biz doğru vaxtda müharibəni dayandırdıq və planlaşdırdığımıza nail olduq. İndi isə barışmaq vaxtıdır, indi Qarabağda yaşayan ermənilər üçün öz baxışlarını müdafiə etmək və ya gələcəklərini qurmaq üçün yeganə şansın azərbaycanlılarla yaxşı qonşuluq münasibətlərində yaşamaqdan ibarət olduğunu anlamaq vaxtıdır. Odur ki, hesab edirəm, ilk növbədə, diaspor reallığı başa düşməlidir. Onlar başa düşməli və öz siyasətinə bəzi dəyişikliklər etməlidirlər. Bunu edə bilib-bilməməkdən asılı olmayaraq, onların siyasəti uğursuzluğa düçar oldu. Düşünürəm ki, ola bilsin, ilk mesaj Nizami Gəncəvi Beynəlxalq Mərkəzi tərəfindən də bildirilə bilər: "Sizin siyasətiniz yanlış idi, uğursuzluğa düçar olub və bu, Ermənistanda artıq altı aydan çoxdur davam edən böhrana gətirib çıxarıb" mesajları göndərilməlidir. İkincisi isə, əlbəttə, əks-tarazlıq yaratmaq üçün bizim öz mesajımızı çatdırmaq fürsətimiz olmalıdır. Nizami Gəncəvi Beynəlxalq Mərkəzi reallıqla bağlı mesajın çatdırılması üçün ən əsas strukturlardan biridir. Ümid edirik ki, bu, belə də davam edəcək. Ermənistanın tərəfində diaspor idi, bizim tərəfimizdə isə beynəlxalq hüquq və ədalət var idi. Hadisələrin inkişafı onu göstərdi ki, biz tarixin düzgün tərəfini tutmuşduq".

"Biz meşələrdə, dağlarda cəsədləri axtarırdıq. Biz təxminən 1600 əsgərin cəsədini Ermənistana qaytardıq. Müqayisə üçün deyim ki, Birinci Qarabağ müharibəsindən sonra demək olar 4000 Azərbaycan hərbçisi hələ də itkindir, onların əksəriyyəti qətlə yetirilib və onlar bizə heç bir cəsəd qaytarmayıb. Fərq budur". Bunu Prezident İlham Əliyev Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin videoformatda keçirdiyi "Cənubi Qafqaz: Regional inkişaf və əməkdaşlıq perspektivləri" adlı müzakirələrdə çıxışı zamanı deyib. Dövlət başçısı bildirib ki, müharibə dayanandan sonra bizdə 100-dən çox adam minaya düşərək həlak olub və ya ağır yaralanıb: "Ermənistan bizə minaların xəritəsini verməkdən imtina edir. Biz dəqiq bilirik ki, onlarda bəlkə də azı bir milyon minanın basdırıldığını göstərən xəritə var. Onlar bunu bizə verməkdən imtina edir. Bilirsiniz ki, minaların təmizlənməsi çox çətin, çox bahalı bir prosesdir və çox vaxt aparır. Biz əraziləri bərpa etməliyik, minalar təmizlənmədən bu, mümkün deyil".

***İnformasiya şöbəsi***

# Azərbaycan və Gürcüstan gömrük əməkdaşaları arasında görüş keçirildi

***Azərbaycan Respublikasının Gürcüstanla sərhəddə yerləşən "Qırmızı Körpü" gömrük-sərhəd buraxılış məntəqəsində Azərbaycan və Gürcüstan gömrük xidmətlərinin nümayəndə heyətləri arasında görüş keçirilib.***

"Unikal" xəbər verir ki, tədbirdə Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi sədrinin müavini, gömrük xidməti general-mayoru Cavad Qasımov, Gömrük Sərhəd Buraxılış Məntəqələrinin İşinin Təşkili Baş İdarəsinin rəisi Şahin Ələsgərov, Qərb Ərazi Baş Gömrük İdarəsinin rəisi Rauf Rzayev və Komitənin digər aidiyyəti strukturlarının nümayəndələri, Gürcüstan Gəlirlər xidmətinin rəis müavini Vladimir Xundadze, Gömrük departamentinin rəhbəri Zurab Siçinava və digər səlahiyyətli şəxslər iştirak edib.

Görüşdə Azərbaycan-Gürcüstan sərhədində inşa olunacaq "İpək yolu-Abreşumis Qza" gömrük-sərhəd buraxılış məntəqəsi, Bakı-Tbilisi-Qars dəmiryol layihəsi və hüquq-mühafizə sahəsində əməkdaşlıq məsələləri müzakirə olunub.



Dövlət Gömrük Komitəsi sədrinin müavini Cavad Qasımov Azərbaycanla Gürcüstan arasında bütün sahələrdə səmərəli əməkdaşlıq münasibətlərinin qurulduğunu, birgə regional və beynəlxalq əhəmiyyətli layihələrin icra edildiyini, hər iki ölkənin gömrük orqanlarının da bu sahəyə töhfə verdiyini diqqətə çatdırıb.

Gürcüstan Gəlirlər xidmətinin rəis müavini Vladimir Xundadze iki ölkə arasında bütün sahələrdəki strateji tərəfdaşlıq münasibətlərindən məmnunluqla bəhs edib, eləcə də yeni inşa olunacaq gömrük-sərhəd buraxılış məntəqəsinin beynəlxalq ticarətin inkişafına, yükdaşımaların rahat və sürətli şəkildə həyata keçirilməsinə şərait yaradacağını və layihənin qısa zaman ərzində reallaşdırılması üçün tərəflərin səylərini artıracağına əminliyini ifadə edib.

Sonra nümayəndə heyətləri tərəfindən Azərbaycan Respublikası Hökuməti ilə Gürcüstan Hökuməti arasında iki ölkənin dövlət sərhəd-keçid məntəqələri haqqında sazişin son mətni paraflanıb.

Görüşdə Bakı-Tbilisi-Qars dəmiryol layihəsi çərçivəsində məlumat mübadiləsinin təşkilinə dair məsələlər müzakirə olunub və tərəflər bu istiqamətdə əməkdaşlığın gücləndirilməsinin vacibliyini vurğulayıblar.



# Vilayət Eyvazov "MERO"ya yeni rəis təyin etdi

***Daxili İşlər orqanlarında yeni təyinat olub.***

"Unikal" Oxu.Az-a istinadən xəbər verir ki, bu barədə Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov müvafiq əmr imzalayıb. Əmrə əsasən, polis mayoru Eldar Əliyev Gəncə 9 saylı Rayonlararası İmtahan-Qeydiyyat Şöbəsinə ("MERO") rəis təyin edilib. Yeni rəis bir müddət öncə yaş həddi ilə bağlı təqaüdə göndərilən polis polkovniki Mayis Əhmədovu əvəz edirdi.

# Nazirlik Mərkəzi xəstəxanada yoxlamalar aparır

***Qazax rayon mərkəzi xəstəxanasında maliyyə yoxlamaları aparılır.***

Unikal.org-un əldə etdiyi məlumata görə, Maliyyə Nazirliyi tərəfindən aparılan yoxlamalarda son 4 il ərzində xəstəxanada aparılan maliyyə əməliyyatları araşdırılır. Qeyd edək ki, Qazax rayon mərkəzi xəstəxanasının baş həkimi Sevda Məmmədovadır.

***Seymur Əli***

# Şuşa şəhəri Dövlət Qoruğu xüsusi nümayəndəliyin nəzdində olacaq

***Şuşa Şəhəri Dövlət Qoruğunun xüsusi nümayəndəliyin nəzdində yaradılacaq publik hüquqi şəxs tərəfindən idarə edilməsi nəzərdə tutulur.***

Unikal.org xəbər verir ki, bu, "Azərbaycanın mədəniyyət paytaxtı - Şuşa şəhəri haqqında" qanun layihəsində öz əksini tapıb.

Həmçinin Qoruğun maliyyələşdirilməsi üçün fiziki və hüquqi şəxslərdən dəstək məqsədilə xüsusi fondun yaradılması nəzərdə tutulur. Qoruğa əlavə dəstək məqsədilə vergi və digər məcburi ödənişlərdən mümkün maliyyələşmə üçün zəmin yaradılır.

Qoruqda hüquq-mühafizə və məhkəmə orqanları istisna olmaqla digər orqanların öz xidmətlərini üç inzibati binadan (ASAN, DOST və KOB evləri) və ya yalnız elektorn qaydada göstərməsi nəzərdə tutulur.

Layihə mayın 24-də parlamentin Mədəniyyət, Hüquq siyasəti və dövlət quruculuğu, İqtisadi siyasət, sənaye və sahibkarlıq və Regional məsələlər komitələrinin birgə iclasında müzakirə olunacaq.

# Azərbaycanda əməkdar artist dünyasını dəyişdi

***Əməkdar artist Qorxmaz Ağabəbaoğlu Qurbanov vəfat edib.***

Unikal.org xəbər verir ki, bu barədə Mədəniyyət Nazirliyi məlumat yayıb. Qeyd olunub ki, qocaman rəqqas ötən gün həyatını itirib.



## Ermənilər Qarabağda mədəniyyətimizi məhv edib

***Mədəni irsimizə qarşı törədilən vandalizm aktları ilə əlaqədar Mədəniyyət Nazirliyi tərəfindən UNESCO və ICESCO-ya, BMT-nin Sivilizasiyalar Alyansına və 150 ölkənin Mədəniyyət Nazirliyinə müraciət edilib. İndiyədək işğaldan azad edilmiş ərazilərdə dövlət qeydiyyatında olan 313 tarix-mədəniyyət abidəsinin monitorinqi həyata keçirilib.***

"Unikal" xəbər verir ki, bunu mədəniyyət naziri Anar Kərimov deyib. Nazir bildirib ki, həmin ərazilərdə yerləşən dövlət qeydiyyatında olmayan tarixi, memarlıq, arxeoloji əlamət daşıyan 113 obyekt aşkar edilib:

"Baxış keçirilən tarix-mədəniyyət nümunələrinin əksəriyyəti işğalçılar tərəfindən tamamilə məhv edilib. Həmçinin 846 mədəniyyət müəssisəsi monitorinq edilib ki, onlardan 451-i kitabxana,

342-si mədəniyyət evi və klub müəssisəsi, 20-si muzey, 25-i uşaq musiqi məktəbi, 1-i kinoteatr, 2-si teatr, 2-si qalereya, 3-ü kinoklubdur. Bu müəssisələrdən 14-ü ilkin monitorinq nəticəsində aşkar edilsə də, nazirliyin şəbəkəsində yoxdur.

Müəssisələrin, demək olar ki, hamısı tamamilə dağıdılmış vəziyyətdədir. Monitorinqlər Şuşa, Cəbrayıl, Füzuli, Zəngilan, Xocavənd, Qubadlı, Ağdam və Kəlbəcər rayonları üzrə aparılıb. Monitorinq davam edir və bu proses yekunlaşandan sonra erməni işğalı dövründə mədəniyyətimizə vurulmuş ziyanın tam mənzərəsini həm ölkə ictimaiyyətinin, həm də beynəlxalq ictimaiyyətin diqqətinə çatdıracağıq".

## Şuşa ilə bağlı qanun layihəsi hazırlandı

***"Azərbaycanın mədəniyyət paytaxtı - Şuşa şəhəri haqqında" Azərbaycan Respublikası qanununun layihəsi hazılanıb.***

"Unikal"ın məlumaına görə, qanun layihəsi Milli Məclisin Mədəniyyət komitəsinin mayın 24-də keçiriləcək iclasında müzakirəyə çıxarılacaq.

## Türkiyənin təhsil naziri Azərbaycana gəlir

***Türkiyənin təhsil naziri Ziya Selçuk Azərbaycana səfər edəcək.***

Səfər mayın sonunda baş tutacaq. Z.Selçuk Azərbaycan rəsmiləri ilə görüşəcək. Görüşlərdə iki ölkə arasında elm və təhsil sahəsində əməkdaşlıq məsələləri müzakirə olunacaq.

# "Bəzi müxalifətçilər Azərbaycanın qələbəsinə kölgə salmağa çalışırlar"

### Akif Nağı: "Vətən Müharibəsində əldə olunan qələbə, ortada olan razılaşmaya qarşı getmək ermənilərin maraqlarına cavab verir"

***Azərbaycan-Ermənistan sərhədində baş verən son gərginliklə bağlı müzakirələr davam edir. Ermənistan tərəfi müxtəlif istiqamətli təxribatlarını davam etdirsə də, Azərbaycan sərhədlərin tam dəqiqləşdirilməsi üçün zəruri, hüquqi addımlarını atır. "Unikal" qəzetinə müsahibə verən Qarabağ Azadlıq Təşkilatının sədri Akif Nağı ilə söhbətimiz də elə bu mövzu ətrafında oldu.***

***-Akif bəy, son dövrlər erməni tərəfi təxribat xarakterli addımları intensivləşdirib. Xüsusən də son sərhəd olayları. Sizcə, daha nə istəyirlər?***

-Artıq Ermənistanın başqa çıxış yolu qalmayıb. Müharibədə məğlub olduqlarına görə qalib tərəfin şərtlərini yerinə yetirməlidirlər. Bu şərtlərə təkcə gücə, qalibiyyətə görə yox, beynəlxalq hüquqa, ədalətə, əldə olunan razılaşmaya görə əməl etməlidirlər. Azərbaycan açıq şəkildə mövqeyini ortaya qoyur ki, sərhədlərimiz dəqiqləşdirilməlidir. Əslində Zəngəzur da Azərbaycana qaytarılmalıdır. Amma hələlik Azərbaycan ortaya mövqe qoyur ki, sovet dönəmindəki sərhədlər dəqiqləşməli, Azərbaycan öz ərazilərini geri almalıdır. Azərbaycan Xarici İşlər Nazirliyinin məlumatına görə hazırda Qubadlı, Laçın, Kəlbəcər istiqamətində əlimizdə olan xəritələrə uyğun bərpa edilməlidir. 10 noyabr, 11 yanvar razılaşmasına uyğun olaraq, həmin ərazilərə özünün hərbi qüvvələrini yerləşdirir.

***-Amma bu razılaşmalara baxmayaraq, hər fürsətdə prosesi pozmağa çalışır...***

-Əslində, prosesin qarşısını ala bilmirlər. Ona görə də hay-küy salırlar, müxtəlif ölkələrə müraciət edirlər. Bilirsiniz ki, Amerika prezidentinin müşaviri Azərbaycan prezidentinə zəng elədi. Erməni mətbuatı yazır ki, guya Amerika rəsmisi bizdən hərbiçiləri geri çəkmək tələbini irəli sürüb. Ancaq Azərbaycan tərəfinin verdiyi məlumata görə elə bir ifadə işlədilməyib. Sadəcə, narahatlıqlarını ifadə ediblər, məsələnin dinc yolla həllinin zəruriliyini vurğulayıblar. Azərbaycan prezidenti də bildirib ki, hazırda 10 noyabr razılaşmasına görə delimitasiya prosesi gedir, hansısa qeyri-qanuni hərəkət yoxdur.

Prosesdə Rusiya nümayəndələri də iştirak edirlər. Rusiya tərəfindən verilən məlumata görə tərəflər razılaşıblar. Amma rəsmi məlumat yoxdur ki, razılaşma nədən ibarətdir.

Son günlər səs-küy də bunun nəticəsidir. Diqqət edirsinizsə Ermənistan yenə hay-küy salır, Rusiyanı, başqa ölkələri köməyə çağırır. Əsas da çalışır ki, Rusiyanın köməyini əldə saxlasın. Azərbaycan isə hər hansı köməyə baxmadan öz mövqeyində israrlıdır. Azərbaycan tələb edir ki, bütün ərazilərdə qanuni hüququ bərpa olunmalıdır.

***-Adətən müharibədən sonra əldə edilən razılaşmalarda yük siyasətçilərin üzərinə düşür. Məsələn, Xarici İşlər Nazirliyi üzərinə düşən öhdəliyi yerinə yetirə bilirmi?***

-Bütün müharibələr bir tərəfin qələbəsi ilə nəticələnir. Ordusu qalib olan tərəfin diplomatik korpusunun da üstünlüyü olur. Bu gün Azərbaycan Ordusu qələbə qazanıb, prosesi siyasətçilər davam etdirməlidir. Yəni, qalib tərəfin diplomatiyasının fəaliyyəti daha rahat olur. Ermənilər döyüş meydanında uduzduqları üçün çalışırlar ki, diplomatiyada üstün olsunlar.

Amma onu da qeyd edim ki, bu gün Ermənistan XİN-i daha fəal görsənir. Dünyanın diqqətini özlərinə cəlb etməyə nail olurlar. Bunlardan biri də "hərbi əsir"lərlə bağlı məsələ oldu. Ermənilər hər şeyi kənara qoyub hərbi əsirlər məsələsini gündəmə çeviriblər. Buna qarşı da Azərbaycan tərəfi mina xəritələri məsələsini qoydu. İlk vaxtlar zəif idi, amma son günlər bu istiqamətdəki fəaliyyət güclənəndən sonra müəyyən addımlar atmağa başlayıblar. Lavrov da son açıqlamasında bildirmişdi ki, İrəvanda mina xəritələri məsələsi müzakirə olunub. Deməli, Azərbaycan diplomatiyası bu məsələni gündəmə gətirə bilib ki, mina xəritələri danışıqların predmetinə çevrilir.

***-Akif bəy, bəs yerli ictimai-siyasi təşkilatlar, müxalifət qüvvələri mövcud şəraitdə üzərlərinə düşən missiyanı yerinə yetirirlər, yoxsa əlavə problem yaradırlar?***

- Təəssüf ki, siyasi qüvvələrin, ictimai təşkilatların fəaliyyəti hiss olunmur. Sanki hamısı müşahidəçi mövqeyinə çəkiliblər. Vətəndaş cəmiyyətinin hazırkı vəziyyətdə rolu vacibdir. Bu gün dünyada ictimai təşkilatlar hətta partiyalardan da mühüm rol oynayırlar. Hesab edirəm ki, ictimai təşkilatlar beynəlxalq əlaqələrindən istifadə edib məsələni qabarda bilərlər. Gözləməməlidirlər ki, dövlət tərəfindən hansısa müraciətlər olsun. Ağıllı, samballı müraciətlər hazırlanmalıdır, müxtəlif beynəlxalq təşkilatlara göndərilməlidir.



***-Amma bizdə əks proses gedir. Belə ki, 10 noyabr razılaşmasının və hazırkı durumun Azərbaycanın milli maraqlarına zidd olduğunu iddia edənlər də var...***

-Bəzi müxalifət nümayəndələrinin Qarabağla bağlı əks mövqe tutması yanlışdır. Düzdür, mən kimisə ittiham eləmək istəmirəm, amma Vətən Müharibəsində əldə olunan qələbə, ortada olan razılaşmaya qarşı getmək ermənilərin maraqlarına cavab verir. Bu cür kampaniyalar ermənilərin arxasında dayanan qüvvələr tərəfindən təşkil olunur. Yəni, bununla Azərbaycanın qələbəsinə kölgə salmağa çalışırlar. Çıxışlarında Azərbaycan rəhbərliyini hansısa məsələlərdə ittiham eləməyə çalışırlar. Onlar belə bir tezis irəli sürürlər ki, daha az itki ilə nəticəyə nail olunmalı idi. Halbuki Ali Baş Komandan, Prezident də bütün çıxışlarında bunu əsas götürürdü. İndi bu cür iddia ilə çıxış etməyin özü yanlışdır. Hesab edirəm ki, bütün bunlar bir sıra xarici mərkəzlərin sifarişi ilə həyata keçirilir.

***-Sözünüzdən belə çıxır ki, həmin müxalifət qüvvələri üçün partiya və şəxsi maraqlar milli maraqlardan önə çıxır?***

-Təəssüf ki, bəli. Amma bir məqamı da deyim ki, siyasi partiyaların əksəriyyəti vahid mövqedən çıxış ediblər. 50-yə yaxın partiya qeyri-rəsmi blok da formalaşdırıb ki, milli məsələlərdə eyni mövqedən çıxış etsinlər. Yalnız iki partiya -AXCP və Müsavat bu prosesdən kənarda qalıb. Onların məntiqi, niyyəti nədir, o barədə bir söz demək istəmirəm. Bəlkədə bununla fərqli mövqedə olduqlarını göstərməyə çalışırlar, yaxud da xaricdən belə bir sifariş alırlar. Hər iki halda onların mövqeləri qəbul edilməzdir. Yəni,bu cür fəaliyyət Azərbaycanın milli maraqlarına cavab vermir.

***Z.Məmmədli***

# Sabiq nazirin ailə biznesi böhranlı günlərini yaşayır

## Səlim Müslümovun oğlunun şirkəti fəaliyyətini dayandırıb?

***Sabiq Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Səlim Müslümovun həbsindən sonra onun ailə biznesi çətinliklərlə üzləşib. Belə ki, Müslümovun yaxınlarına məxsus bəzi şirkətlər fəaliyyətini ya tamamilə dayandırıb, ya da xeyli dərəcədə məhdudlaşdırıb.***

Bununla bağlı yayılan iddialara görə, sabiq nazirin oğlu Turqay Müslümlü Edinburq Universitetini başa vurduqdan sonra biznesə girişib. 2017-ci ilin noyabrın 23-də o, Vergilər Nazirliyinin Bakı Şəhəri Lokal Gəlirlər Baş İdarəsində 4 şirkət qeydiyyatdan keçirib. Şirkətlər Turqay Müslümovun yaşadığı ünvanda - Binəqədi rayonu, Ziya Bünyadov, ev 7A-da hüquqi qeydiyyata alınıb.

Həmin şirkətlərdən birinin "Orion Qlobal" MMC olduğu deyilir. Əsasən xidmət sahəsində fəaliyyət göstərən şirkətin tərkibinə dəbdəbəli "Orion Plaza" da daxildir. Səlim Müslümovun əsas gəlir qaynaqlarından olan bu plazanın işləri kəskin zəifləyib.

"Orion Konstruktion" adlı başqa bir şirkətin isə tikinti sahəsində fəaliyyət göstərdiyi, ancaq son zamanlar, demək olar ki, fəaliyyətsiz vəziyyətdə olduğu deyilir



"Orion Cars" MMC-nin isə vaxtilə bahalı və VİP salonlu avtomobillərin icarəsi ilə məşğul olduğu, son bir ildə işlərinin zəiflədiyi, Müslümovun həbsindən sonra isə böhranlı duruma düşdüyü vurğulanır.

"Orion Kreative Solutions" adlı MMC isə Turqay Müslümlünün adına qeydiyyatdan keçirilsə də, sonradan Səlim Müslümovun digər oğlu - Asim Müslümlünün adına rəsmiləşdirilib. Bildirildiyinə görə, Asim Müslümlü də Britaniyada, Edinburq Universitetində təhsil alıb, hazırda İsveçrədə yaşayır.

Bu şirkətin fəaliyyətini tam dayandırdığı iddia olunur.

Xatırladaq ki, Səlim Müslümov 1995-ci ildən hökumətdə yüksək vəzifələr tutub, 1995-ci ilin iyulundan 2000-ci ilin martınadək Maliyyə Nazirliyində idarə rəisi vəzifəsində çalışıb. 2000-ci ilin martında Dövlət Gömrük Komitəsinin sədr müavini təyin edilib. 2002-ci ilin 17 dekabrında Dövlət Sosial Müdafiə Fondunun sədri vəzifəsinə gətirilib. 2013-cü ildən 2018-ci ilin 21 aprelinə kimi isə Əmək və Əhalinin Sosial Müdafiəsi naziri postunu tutub.

Xüsusilə Dövlət Gömrük Komitəsində sədr müavini olduqdan sonra sürətlə varlanmağa başlayan Müslümov Dövlət Sosial Müdafiə Fondunun sədri və Əmək və Əhalinin Sosial Müdafiəsi naziri işlədiyi vaxtlarda isə tamamilə oliqarxlaşıb. Çoxşaxəli ailə biznesi quran Müslümov böyük sərvətə yiyələnib.

Lakin onun nazir postunu itirməsi ilə birgə ailə biznesi də "qüruba doğru" əyilməyə başlayıb.

Yayılan iddialara inansaq, Müslümovun həbsi bu süqut prosesini daha da sürətləndirib...

***Sənan Mirzə***

# Ağalar Vəliyev seçicilərinin sosial sifarişlərini yerinə yetirir

***Su təsərrüfatı, xüsusilə əhalinin içməli su ilə təmin olunması hər zaman ölkəmizdə prioritet sahələrdən biri olub. Prezident İlham Əliyev daim bu sahəyə böyük diqqət ayırıb və su infrastrukturunun təkmilləşdirilməsi istiqamətlərində yeni vəzifələr müəyyənləşdirib.***

Unikal.org xəbər verir ki, həmişə seçicilərinin sosial sifarişlərinə həssaslıqla yanaşan 97 saylı Goranboy- Ağdam- Tərtər Seçki dairəsindən Milli Məclisin deputatı Ağalar Vəliyevin rayon rəhbərliyinin iştirakı ilə Goranboy rayonunun Qızılhacılı qəsəbəsində seçicilərlə keçirdiyi növbəti görüşlərin birində qəsəbənin içməli suya tələbatının ödənilməsi ilə bağlı görüləcək işlər müzakirə olunmuşdu.

Goranboy rayonunun böyük yaşayış məntəqələrindən olan Qızılhacılı qəsəbəsinin ağsaqqallarının, ziyalılarının, şəhid ailələrinin və Qarabağ qazilərinin bir qrupunun iştirak etdiyi, səmimi və işgüzar şəraitdə keçən görüşdə millət vəkili ölkə əhalisinin içməli



su ilə təminatının və kənd təsərrüfatı sahələrinin suvarma suyu ilə təchizatının yaxşılaşdırılması istiqamətlərində dövlət başçısı tərəfindən həyata keçirilən tədbirləri, o cümlədən Goranboy rayonunda aparılan işləri xüsusi vurğulamışdı.

Həmin görüşdə Ağalar Vəliyev 8 mindən artıq əhalisi olan Qızılhacılı qəsəbə sakinlərinin içməli su ilə təchizatının yaxşılaşdırılması ilə bağlı seçicilərinin çoxsaylı müraciətlərini nəzərə alaraq qəsəbədə yeni artezian quyusunun qazılmasını təşkil edəcəyini bildirmişdi.

Millət vəkilinin maliyyə dəstəyi ilə bu günlərdə qəsəbə ərazisində bütün müasir standartlara cavab verən subartezian quyusunun qazılması işləri başa çatdırılıb və artezian quyusu əhalinin istifadəsinə verilib. Tamponajlı subartezian quyusunun qazılmasına dövlət vəsaiti sərf olunmayıb.

Bununla da Milli Məclisin üzvü tərəfindən seçicilərinin daha bir sosial sifarişinin yerinə yetirilməsi və rayonun ən iri yaşayış məntəqəsinin içməli suya olan tələbatının əhəmiyyətli dərəcədə ödənilməsi təmin edilib.

Qızılhacılı qəsəbə sakinləri Goranboy rayonunun əhalisinə dövlətimiz tərəfindən göstərilən diqqətə və qayğıya görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

# İctimai çimərliklərdə yay mövsümünə hazırlıq başa çatdı

***Qarşıdan gələn yay çimərlik mövsümü ilə əlaqədar Heydər Əliyev Fondunun vitse-prezidenti, İDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə Bakı şəhərinin sahilkənarı ərazilərində yaradılan ictimai çimərliklərdə mövsümə hazırlıq işləri başa çatıb.***

Unikal.org-un məlumatına görə, 2 ildir ki, Abşeron yarımadasının Sahil, Buzovna, Novxanı, Görədil və Pirşağı qəsəbələrində, Səbail rayonunda, "Şıx" çimərlik ərazisində - ümumilikdə 6 yerdə fəaliyyət göstərən bu çimərliklər paytaxtın dənizkənarı ərazilərində mövcud özəl istirahət mərkəzlərinə və çimərliklərə alternativ olaraq yaradılıb. Burada yaradılan şərait və ən başlıcası isə pulsuz xidmət göstərilməsi Bakı sakinləri və şəhərimizin qonaqlarının böyük rəğbətini qazanıb.

Çimərlik mövsümü ərəfəsində ictimai çimərliklərdə lazımi təmizlik-abadlıq işləri aparılıb. Qış ərzində dəniz sahilinə yığılan tullantılar, həmçinin dalğaların sahilə atdığı müxtəlif əşyalar yığışdırılıb, digər təmizlik işləri görülüb. Çimərliklərdəki inventarlar, günlüklər, söhbətgahlar, sanitariya qovşaqları və duşlar yoxlanılır, qaydaya salınır, cari təmir işləri, bir sıra yerlərinin rənglənməsi aparılır.

COVİD-19 pandemiyasının hələ də davam etməsi ilə əlaqədar vətəndaşların sağlamlıqlarının qorunması məqsədilə hər bir çimərlikdə mövcud epidemioloji vəziyyətə uyğun tədbirlər nəzərdə tutulub. Çimərlik ərazilərində maarifləndirici lövhələr, poster və elanlar yenilənir.

Çimərliklərdə Fövqəladə Hallar Nazirliyinin xilasetmə məntəqələri, həmçinin tibb məntəqələri yaradılacaq.

Qeyd edilməlidir ki, paytaxtda çimərlik mövsümünün başlanmasının vaxtının təyin edilməsi və burada istirahət qaydaları Nazirlər Kabineti yanında Operativ Qərargahın sərəncam və təlimatları əsasında həyata keçiriləcək.

# Azərbaycanlı millət vəkili erməni deputatı susdurub

***Rusiyanın Sankt-Peterburq şəhərində MDB-yə üzv dövlətlərin Parlamentlərarası Gənclər Assambleyasının 16-cı iclasında Azərbaycan millət vəkilləri də çıxış edib.***

Unikal.org xəbər verir ki, Assambleyanın iclasında onlar ölkəmizdə gənclər siyasəti haqqında, bu sahədə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təsis etdiyi İDEA ictimai birliyinin həyata keçirdiyi layihələr haqda danışıb.

Tədbir zamanı millət vəkili Emin Hacıyev uzun illər işğal altında olan torpaqlarımızda Ermənistanın həyata keçirdiyi ekoloji terror, uşaq oyuncaqlarının içinə yerləşdirilmiş partlayıcı maddələrlə sui-qəsd cəhdləri haqda danışıb. İclasda iştirak edən erməni deputat Hacıyevin həqiqətləri danışmağına etiraz edərək yalan məlumatlar dilə gətirib.

Millət vəkili Emin Hacıyev qeyd edib ki, uzun illərdir Azərbaycan gəncliyini narahat edən məsələlərdən biri də ölkəmizin torpaqlarının 20 faizindən çoxunun işğalı ilə əlaqəli terror problemidir:

"Uzun illərdir ki, Ermənistan tərəfindən işğal olunmuş ərazilərdə yanğınlar təşkil edilir və misilsiz meşələr sistematik şəkildə məhv edilirdi. Sosial şəbəkələrdə və mediada Azərbaycanın Qarabağ bölgəsindəki meşələrin kütləvi qırılması ilə bağlı çox az sayda kadr var. Ekoloji vandalizm keçən payızda ölkəmizin işğal olunmuş bölgələrini tərk edən ermənilərin evləri və meşələri yandıraraq bölgənin flora və faunasına böyük ziyan vurması zamanı da baş verdi. Digər bir dəhşət ondan ibarətdir ki, ermənilər dəfələrlə Tərtər, Xaçın, Qarqar çayları vasitəsilə oyuncağa bombalar yerləşdirib terror törədiblər.

Misal olaraq 14 iyul 2011-ci ildə Əlibəyli kəndində 13 yaşlı Aygün Şahmalıyeva çaydan tapdığı bir oyuncaqla oynayarkən ermənilərin oyuncağın içinə yerləşdirdiyi bombanın partlaması nəticəsində ağır yaralanır. Daha sonra qız xəstəxanaya aparılarkən yolda vəfat edib".

Erməni deputat isə danışmaq istəmədiyini bildirib: "Bu gün bu barədə danışmaq lazım deyil deyə düşünürəm. Azərbaycandan olan həmkarımın cavab verməyə bilmərəm".

Erməni deputatın öz xalqının törətdiyi terror haqqında danışması belə, onu həyəcanlandırıb. Öz fikirlərini çatdıra bilməyən Ermənistan nümayəndəsi, fosforlu silah haqqında danışmaq istəsə də, dilinin topuq vurmağından bəlli olur ki, bu haqda heç bir məlumatı yoxdur və bu səbəbdən ona danışa bilmək üçün kənardan kömək edirlər.

Lakin buna baxmayaraq, Ermənistan nümayəndəsinin etirazlarını tutarlı faktlarla cavablandıran Emin Hacıyev İrəvanın uydurma fikirlərinin yayılmasına imkan verməyib.

## Deputatdan hökumətə çağırış - "Bu prosesi sürətləndirin"



***Deputat Qənirə Paşayeva Milli Məclisdə şəhidlərin adlarının əbədiləşdirilməsi məsələsini qaldırıb.***

"Unikakl" xəbər verir ki, parlamentin bu gün keçirilən iclasında çıxış edən Qənirə Paşayeva vurğulayıb ki, rayonlarının kəndlərində çox küçələrin, demək olar, adı yoxdur:

"Şəhidlərinin adlarını həmin küçələrə verərək əbədiləşdirmək mümkündür. Bu prosesi, sadəcə, asanlaşdırmaq lazımdır. Məktəbə yanaşma ilə küçəyə yanaşma arasında fərq qoyulmalıdır. Bir kənddə 1, 2, bəzən 6 şəhid var. Küçələrə həmin şəhidlərin adı verilsə, həmin ailələr də bundan razı qalır. Xahiş edirik ki, prosesin rayon daxilində həlli mexanizmi tapılsın, ya da Nazirlər Kabineti bu prosesi sürətləndirsin".

## Bakıda keçirilən qanunsuz aksiyanın qarşısı alındı

***Bu gün paytaxtın Nəsimi rayonunda bir qrup şəxs xüsusi karantin rejiminin tələblərinə zidd olaraq, eyni zamanda razılaşdırılmamış aksiya keçirməyə cəhd edib.***

Bu barədə "Unikal"a Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətindən məlumat verilib. Bildirilib ki, cəhdin qarşısı polis tərəfindən dərhal alınmaqla onlar ərazidən uzaqlaşdırılıb: "Saxlanılan yoxdur".

Qeyd edək ki, bu gün Nəsimi rayonu ərazisində bir qrup şəxsin qanunsuz aksiya keçirməsinin qarşısı alınıb. Söhbət metronun 28 May stansiyası yaxınlığındakı ərazidən gedir. Bu barədə sosial şəbəkələrdə paylaşımlar edilib.

## Vətən Müharibəsi qəhrəmanlarına vergi güzəştləri tətbiq olunacaq

***Milli Məclisin plenar iclasında Vergi Məcəlləsinə dəyişiklik layihəsi I oxunuşda müzakirəyə çıxarılıb.***

"Unikal" xəbər verir ki, dəyişikliklə Azərbaycan Respublikasının Vətən Müharibəsi qəhrəmanlarının hər hansı muzdlu işdən vergi tutulmalı olan aylıq gəliri 400 manat məbləğində azaldılacaq.

Dəyişiklik layihəsi müzakirələrdən sonra səsverməyə çıxarılaraq I oxunuşda qəbul edilib.

## "Dövlət Himni" haqqında qanun dəyişdirildi

***Milli Məclisin bu gün keçirilən plenar iclasında "Azərbaycan Respublikasının Dövlət Himnindən istifadə qaydaları haqqında" qanuna dəyişiklik layihəsi I oxunuşda müzakirəyə çıxarılıb.***

"Unikal" xəbər verir ki, dəyişikliklə Azərbaycan Respublikasının "Vətən Müharibəsi Qəhrəmanı" adı verilmiş şəxslərin abidələrinin və ya xatirə lövhələrinin açılışı zamanı Dövlət Himni mütləq ifa ediləcək.

Dəyişiklik layihəsi müzakirələrdən sonra səsverməyə çıxarılaraq I oxunuşda qəbul edilib.

# Azərbaycanda vəzifəli şəxslərin evlərində milyonlarla manatlıq soyğun...

### Son illərdə yüksək post sahiblərinin mənzillərindən ilginc oğurluqlar baş verib

***Dünən mətbuata açıqlamasında Səhiyyə Nazirliyinin sabiq baş infeksionisti, Azərbaycan Tibb Universitetinin Yoluxucu xəstəliklər kafedrasının müdiri Cəlal İsayev bildirib ki, onun Bakıda məzilindən 60 min manata yaxın oğurluq edilib: "Hadisə 2019-cu ildə olub".***

Qeyd edək ki, C.İsayevin evindən oğurluğu paytaxt sakinləri - Cavid Süleymanov və Əhməd Əhmədov edib. Mayın 20-də Daxili İşlər Nazirliyinin yaydığı məlumata görə, hər iki şəxs saxlanılıb.

Dəstə üzvlərinin törətdiyi oğurluq hadisələri zamanı zərərçəkənlərə təxminən 2 milyon manata yaxın maddi ziyan vurduqları müəyyən edilib.

Qeyd edək ki, son illər Azərbaycanda vəzifəli şəxslərin evindən oğurluq hallarının kəskin artdığı müşahidə olunur. "Unikal" qəzetinin bu mövzuda apardığı araşdırma da belə müşahidələri təsdiqləyir. Aydın olur ki, son bir neçə ildə yüksək post sahiblərinin mənzillərində həyata keçirilən soyğunçuluq nəticəsində üst-üstə milyonlarla manat oğurlanıb.

Məsələn: 2017-ci ildə AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun elmi işlər üzrə direktor müavini Aybəniz Əliyeva-Kəngərlinin mənzilindən oğurluq olub. Belə ki, A.Əliyevanın Nəsimi rayonundakı mənzilində qulluqçu işləyən Xanım Zeynalova 2015-ci ilin yanvar ayından 2017-ci ilin may ayına qədər külli miqdarda pul və qızıl-zinət əşyaları oğurlayıb. Polis əməkdaşlarının keçirdiyi əməliyyat nəticəsində mənzildən 29 ay müddətində oğurluq etmiş X.Zeynalova tutulub. Cinayət işində onun evdən 536 min dollar pul və 143 min 400 manat dəyərində qızıl-zinət əşyaları (brilyant qaşlı sırğa-üzüklər, boyunbağılar, qolbaqlar, 5 min manatlıq "Rolex", 3 min manatlıq "Geneva" kişi qol saatları, qızıl onluqlar, beşliklər və s.) oğurladığı qeyd olunub. Maraqlıdır ki, ev sahibi məhkəmə zamanı qadından şikayətçi olmayıb, nəticədə X.Zeynalova şərti cəza alıb.



Həmin vaxt cinayət işinin materiallarında bir məqam da diqqəti çəkirdi. İfadələrdən məlum olurdu ki, A.Əliyevanın evində müxtəlif adamların adlarına çoxsaylı maaş kartlar vardı və ev sahibinin göstərişilə xidmətçi hər ay o kartlardan pulları çıxarıb gətirib ona verirdi. Əlyazmalar İnstitutunun direktor müavini qızlarına bahalı mənzillər, Mircəlal adlı nəvəsinə şəhərin mərkəzində ofis, "Lamborghini", "Cadillac" kimi bahalı maşınlar alıb...

2018-ci ildə isə Bakı Ağır Cinayətlər Məhkəməsində oğurluqda təqsirləndirilən Vurğun İbrahimov, Emin Şirinov, Vurğun Həsənov və Yunus İsmayılovun cinayət işi üzrə məhkəmə prosesi başa çatıb. İttiham aktına əsasən, onlar Nəsimi rayonu ərazisində yerləşən evlərdən oğurluq etməkdə təqsirli bilinirlər. Həmin evlərdən biri Aydın Mövlayevə məxsusdur. Onun mənzilindən qızıl-zinət əşyaları da daxil olmaqla, ümumilikdə 51 min manat oğurlanıb. Həmin vaxt bildirilib ki, A.Mövlayev Kənd Təsərrüfatı Nazirliyi (KTN) yanında "Aqrolizinq" ASC-nin rəhbəri Seymur Mövlayevin atasıdır.

Elə həmin il Xətai rayonu ərazisində baş verən mənzil oğurluğunun üstü açılıb. Rayon Polis İdarəsi əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində rayon ərazisindəki evlərin birindən 30 min ABŞ dolları və 100 min manat dəyərində qızıl əşyalar oğurlamaqda şübhəli bilinən qrupun üzvü, Bakı şəhər sakini Familə Vəliyeva saxlanılıb. Saxlanılan şəxs qəsəbə sakini Abil Qədirovun evindən içində 100 min manat dəyərində qızıl-zinət əşyaları, 30 min dollar da pul olan seyf oğurlamaqda şübhəli bilinirdi. Yerli KİV-in yazdığına görə, A.Qədirov Nazirlər Kabineti Aparatının qaçqınların, məcburi köçkünlərin problemləri və miqrasiya şöbəsinin məsləhətçisi vəzifəsində çalışıb. Sonra isə həmin şöbənin öncə Abşeron, ardınca isə Sabunçu rayon üzrə baş məsləhətçisi vəzifəsinə təyin edilib.

Bir neçə il əvvəl Nərimanov rayonu, A.Heydərov küçəsində yaşayan Oqtay Məmmədovun mənzilindən 200 min dollar oğurlandığı barədə məlumat yayılmışdı. Həmin vaxt bildirilirdi ki, O.Məmmədov yüksək vəzifəli məmurdur. Onun Sosial Müdafiə Nazirliyinin Abşeron rayonu üzrə sosial müdafiə mərkəzində direktor işlədiyi deyilirdi. Bundan əvvəl isə Sumqayıtda eyni vəzifəni tutub. Oğurluq isə onun Abşerona təyinat almasından bir neçə gün sonra baş vermişdi.

Oqtay Məmmədov həmin vaxt hadisə ilə bağlı bildirmişdi ki, mənzilindən 200 min dollar oğurlanması həqiqətə uyğun deyil. Onun sözlərinə görə, mənzilindən cəmi 35 min manat pul, yoldaşına məxsus 6000 min manat dəyərində qızıl oğurlanıb: "Mənim pulum deyildi, oğlumun idi, iş görmək istəyirdi. Maşınını satmışdı. Dünən mən evdə olmayanda oğurluq edilib".

***Toğrul Əliyev***

# Heydər Əliyev Mərkəzində onkoloji xidmət müzakirə olundu

***Azərbaycanda onkoloji xidmətin yaradılmasının 80 illiyinə həsr edilmiş "Bədxassəli şişlərin diaqnostikası və müalicəsinə müasir yanaşma" adlı elmi konfrans keçirilib.***

"Unikal" xəbər verir ki, tədbir Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyi, Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Milli Onkologiya Mərkəzi, Amerika Kliniki Onkologiya Cəmiyyəti və Azərbaycan Onkoloqlar Cəmiyyətinin birgə təşkilatçılığı ilə Heydər Əliyev Mərkəzində karantin rejiminin tələbləri nəzərə alınaraq təşkil edilib.

Konfransı giriş sözü ilə açan Milli Onkologiya Mərkəzinin Baş direktoru, akademik Cəmil Əliyev Azərbaycanda onkoloji xidmətin yaradılması və 80 il ərzində keçdiyi tarixi yol haqqında konfrans iştirakçılarına məlumat verib.

C.Əliyev bildirib ki, onkoloji xidmətin flaqmanı olan Milli Onkologiya Mərkəzinin nanotexnologiyalarla təchiz olunmuş müayinə və müalicə strukturlarının, poliklinika və cərrahiyyə korpuslarının, Uşaq Onkoloji Klinikasının tikilib istifadəyə verilməsində ölkə Prezidenti İlham Əliyevin, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın çox böyük səyləri və əməyi var.



Azərbaycan Respublikası Prezidenti Aparatının Humanitar siyasət, diaspora, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva Prezident İlham Əliyevin konfrans iştirakçılarına ünvanladığı təbrik məktubunu səsləndirərək, konfransın işinə uğurlar arzulayıb.

Tədbirin davamında çıxış edən Milli Məclisin Səhiyyə komitəsinin sədri, akademik Əhliman Əmiraslanov Azərbaycanda onkologiyanın inkişaf tarixindən, müasir onkologiyanın əldə etdiyi nailiyyətlərdən söz açaraq qeyd edib ki, ölkəmizdə onkoloji xidmətin hazırki səviyyəyə çatması və bu xidmətin dinamik şəkildə yüksələrək müasir standartlara cavab verməsi, bütün sahələrdə olduğu kimi bu sahəyə də, dövlətimizin diqqət və qayğısı nəticəsində mümkün olub.

Konfrans öz işini Azərbaycanda onkologiyanın inkişafı, bədxassəli şişlərin müasir diaqnostikası və müalicəsi üzrə müxtəlif mövzularda məruzələrlə davam etdirib.

# Etibar Pirverdiyevdən şok addım...

## Sabiq "işıq şefi" niyə əmlaklarını satışa çıxarmağa başladı?

***Bu ilin əvvəllərindən başlayaraq "Azərenerji"nin sabiq rəhbəri Etibar Pirverdiyev əmlaklarını satışa çıxarmağa başlayıb. Bu əmlaklar arasında torpaq sahələrinin və mülklərin olduğu deyilir.***

Hələ fevral ayında sabiq "işıq şefi"nin Quba və Qusar rayonlarındakı alma bağlarını satışa çıxardığı barədə xəbər yayılmışdı. Pirverdiyev tərəfindən nə təsdiqlənən, nə də təkzib olunan həmin xəbərdə bildirilirdi ki, sözügedən alma bağlarının ümumi sahəsi 300 hektar təşkil edir. Bir xeyli əvvəl Fransadan gətirdiyi tinglər hesabına əkdiyi bağlardan yığılan məhsulların yalnız Rusiyaya eksport olunduğunu bildirən mənbələr vurğulamışdı ki, Pirverdiyevin həmin bağları satışa çıxarmasının səbəbi naməlumdur.

Ola bilərmi ki, Etibar Pirverdiyevin əmlaklarını satması yaşadığı maliyyə çətinlikləri ilə bağlıdır? Bu suala birmənalı olaraq cavab verməк çətindir. Lakin sabiq "işıq şefi"nin ciddi maliyyə çətinliyinin olmadığı deyilir. Belədə isə onun addımı maraq doğurur.

İstisna deyil ki, Pirverdiyev son vaxtlar keçmiş məmurlara qarşı anti-korrupsiya əməliyyatlarının aparılmasından narahatdır və növbənin ona da çata biləcəyindən qorxur. Bu səbəbdən əmlaklarının bir qismindən canını qurtarmağa çalışır. Yəni, obrazlı desək, "bir güllə ilə iki dovşan vurmağı hədəfləyir": bir yandan həbs ediləcəyi təqdirdə bu əmlakların tamamilə əlindən çıxacağından təlaş keçirir, o biri yandan isə heç də böyük varidatı qalmadığına dair təəssürat yaratmağa çalışır.

Məlumatlı qaynaqların fikrincə, bu ehtimal və həmin ehtimalı qüvvətləndirən hər iki versiya kifayət qədər ağlabatandır. Çünki bir zamanlar Azərbaycanın ən qüdrətli məmur-oliqarxlarından olmuş Etibar Pirverdiyev korrupsiya pulları hesabına qısa vaxtda özünə nəhəng biznes şəbəkəsi yaratmışdı. Sabiq "işıq şefi" məsul olduğu sahəyə ayrılan dövlət vəsaitlərinin, necə deyərlər, "altından girib üstündən çıxırdı". Nəticədə onun adı ölkənin əsas oliqarxları sırasında çəkilirdi.

Lakin 2018-ci ildə 54 yaşlı Pirverdiyevin karyerası biabırçı şəkildə başa çatdı. O, "Azərenerji" ASC-nin prezidenti vəzifəsindən azad edildi. Pirverdiyevin işdən çıxarılması həmin il iyulun 3-də Mingəçevir şəhərində fəaliyyət göstərən ölkənin ən böyük elektrik stansiyası olan "Azərbaycan" İES-in 1-ci və 6-cı enerji blokunda partlayışla birbaşa əlaqəli idi. Bütün ölkəni işıqsız qoyan, dövlətə və əhaliyə böyük ziyan vuran bu hadisədən dərhal sonra ölkə başçısı baş vermiş qəza ilə əlaqədar Dövlət Komissiyasının yaradılması haqqında sərəncam imzaladı. Dövlət Komissiyasının bir müddət sonra hazırladığı yekun rəydən baş verən hadisədə Pirverdiyevin məsuliyyəti aydın ifadə edilmişdi.

Hələ bir müddət əvvəl "Unikal" olaraq etibarlı mənbələrə istinadən yazmışdıq ki, sabiq "işıq şefi" əslində bu hadisədən üç il öncə - 2015-ci ildə vəzifədən azad edilə bilərmiş. Buna səbəb isə onun rəhbəri olduğu ASC-də misli görünməmiş korrupsiya faktlarının aşkar edilməsi imiş. Belə ki, həmin il Hesablama Palatası "Azərenerji"də audit aparmışdı. Sonradan Palatanın rəsmi saytında auditin nəticələri dərc olunmuş, "Azərenerji"yə ayrılan büdcə vəsaitlərinin xərclənməsində ciddi pozuntulara yol verildiyi üzə çıxmışdı.

Bütün bu kobud pozuntulara baxmayaraq Hesablama Palatası "Azərenerji"də aparılmış yoxlamaların nəticəsini tədbir görülmək üçün hüquq-mühafizə orqanlarına göndərmişdi. Palata "Azərenerji"də aparılmış yoxlamaların nəticələrinin müzakirə olunmasına həsr edilmiş kollegiya iclasında ASC-yə tövsiyə etmişdi ki, bu pozuntuları aradan qaldırsın və belə hallara gələcəkdə yol verməsin. Beləcə, Pirverdiyev həbs təhlükəsindən qurtulmuşdu.

Üç il sonra isə bütün ölkə işıqsız qaldı və bu bardağı daşıran son damlaya çevrildi. Pirverdiyev işdən kənarlaşdırıldı. Halbuki onun qanunlar qarşısında cavab verməli olduğu yetərincə qeyri-qanuni əməllər var idi.

Son zamanlardakı anti-korrupsiya əməliyyatlarından sonra isə sabiq "işıq şefi"nin də bəzi eks məmurlar kimi cinayət məsuliyyətinə cəlb ediləcəyi ehtimalından danışılır. Bu ehtimalın getdikcə qüvvətlənməsi belə görünür, E.Pirverdiyevi qabaqlayıcı addımlara məcbur edir. Elə onun əmlaklarının bir hissəsini satışa çıxarması da həmin addımlardan biri kimi qiymətləndirilə bilər...



***Hüseyn İsgəndərov***

# Xarici turistlər Şuşanı görmək istəyirlər

***"Arabian Travel Market 2021" beynəlxalq turizm sərgisi ötən ilin fevralından sonra Azərbaycanın rəsmi və canlı formatda iştirak etdiyi ilk sərgi idi. Bu, həmçinin işğaldan azad edilmiş Qarabağın turizm potensialı barədə sərgi iştirakçılarına məlumat verilən ilk tədbirdir.***

Bu barədə Dövlət Turizm Agentliyinin mətbuat xidmətinin rəhbəri Kənan Quluzadə deyib. O bildirib ki, Azərbaycan stendinə, ümumilikdə Şuşaya, Qarabağa böyük maraq var. "Sərgidə 2500 iştirakçı təmsil olunurdu, stendlərə baxmaq üçün 39 min insan gəlmişdi. Bundan öncəki sərgilərdə Ermənistan tərəfi öz stendində beynəlxalq sazişlərə zidd olaraq həmin dövrlərdə işğal etdikləri torpaqlarımızın turizm potensialını tanıtmağa cəhd göstərirdi, toponimləri dəyişirdilər. Uzun illər biz diaspora təşkilatları, diplomatik nümayəndəliklər, onların rəhbərləri ilə birgə təşkilatçılarla danışıqlar aparıb, onları ermənilərin stendlərindən çıxartdırırdıq. Amma birinci ildir ki, biz Şuşamızı özümüz Azərbaycan stendində nümayiş etdirdik".

K.Quluzadə qeyd edib ki, yeni turizm destinasiyası sərgi iştirakçılarının marağına səbəb olub. "Bundan öncə onlayn formatda keçirilən görüşlərdə bizə bu marağı suallardan, istəklərdən hiss edirdik. Xarici tərəfdaşlarımız, gələcək əməkdaşlıq edəcəyimiz insanlar, sadə turistlər, avropalılar, Yaxın Şərq, postsovet məkanı ölkələrindən olan iştirakçılar tərəfindən stendimizə böyük maraq var idi. Qarabağı, Şuşanı görmək istəyənlər çoxdur. Bundan öncə Ermənistan hansısa cəhdlər edib, müəyyən dərəcədə insanları gətirə bilirdi. Gələnlərin çoxları da erməni diaporasının xaricdə yaşayan üzvləri idi. Artıq şanlı Qələbədən sonra turistlər tam leqal, qanuni olaraq bizim bölgəmizə təşrif buyurub, səfər edə biləcəklər. Sərhədlər açılandan sonra Azərbaycan turistləri qəbul edəcək. Təhlükəsizlik, infrastruktur məsələləri, əhalinin qayıdışı təmin ediləndən sonra Qarabağ regionunda turizm bərpa olunub, inkişaf etdiriləcək".

K.Quluzadə onu da bildirib ki, artıq digər dövlət qurumları ilə birlikdə Qarabağın turizm inkişaf strategiyası hazırlanılır:

"Bununla bağlı müzakirələr davam edir. Qarabağın turizm potensialının inkişafı üçün iki yanaşma mövcuddur. Birinci yanaşma ərazilərin klastrlara bölünməsidir. Məsələn, Şuşanın, Kəlbəcərin, Ağdamın öz-özlüyündə turizm potensialının inkişafı nəzərdə tutulur. İkinci yanaşma tematik yanaşmadır ki, burada marşurutların qurulması, turizm məhsullarının yaradılması nəzərdə tutulur. Marşurutlar müxtəlif ola bilər. Qarabağ mədəniyyəti, muğamı, mətbəxi, Qarabağ xanları irsi, xalçalçılıq, alban irsi, ipək yolu, sağlamlıq, qış turizm marşurutları açıla bilər. Bunların hamısının üzərində iş gedir. Strategiya təsdiqlənəndən sonra bu barədə həm ölkəmizdə, həm də xaricdə daha geniş təqdimatlar edəcəyik".

# Emin Əmrullayev Britaniyanın ixracat naziri ilə görüşdü

***Təhsil naziri Emin Əmrullayev Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının ixracat naziri Qraham Stüartın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.***

Nazirlikdən "Unikal"a verilən məlumata görə, görüş zamanı Azərbaycan ilə Böyük Britaniya arasında təhsil sahəsində əməkdaşlığın hazırkı vəziyyəti və gələcək inkişaf perspektivləri müzakirə edilib.

Tərəflər, həmçinin Britaniya Şurasının dəstəyi ilə ölkəmizdə həyata keçirilən layihələr ətrafında fikir mübadiləsi aparıb.

Görüşün sonunda Təhsil Nazirliyi ilə Britaniya Şurasının ölkəmizdəki Nümayəndəliyi arasında illik fəaliyyət planı imzalanıb.

# Daha bir dövlət müəssisəsinə cinayət işi açıldı

***Masallı Rayon Mənzil Kommunal Təsərrüfat İstehsalat Birliyində (MKTİB) baş verən qanunsuzluqlarla bağlı rayon Prokurorluğuna vətəndaş müraciəti daxil olub.***

Bu barədə Unikal.org-a Masallı Rayon Prokurorluğundan məlumat verilib. Bununla əlaqədar aparılan araşdırma zamanı müəyyən edilib ki, 2019-2020-ci illərdə işə götürülərək MKTİB-də ictimai işlərə cəlb edilən işçilərin bəziləri qismən işə gəlib, digər qismi isə ümumiyyətlə işə gəlməyib, nəticədə həmin əməkdaşlara cəmi 32 min manat məbləğində əməkhaqqı ödənilib.

Bundan başqa, Birliyin aktından məlum olub ki, həmin qurumun balansında olan avtomobillərin 3 min 700 manat dəyərində ehtiyat hissələri əsassız silinib.

Faktla bağlı Masallı Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 179.2.3 (şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə mənimsəmə) və 308.1-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) maddələri ilə cinayət işi başlanıb.

Hazırda iş üzrə istintaq hərəkətləri aparılmaqla cinayət əməllərinə yol vermiş şəxslərin müəyyən edilərək istintaqa cəlb edilmələri təmin ediləcək.

# Gömrük Akademiyası müsabiqənin qalibi olub



***Dövlət Gömrük Komitəsinin Akademiyası Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası tərəfindən "Sağlam və təhlükəsiz əmək şəraitinin yaradılması üzrə ilin ən yaxşı müəssisəsi" devizi altında keçirilən Respublika baxış-müsabiqəsinin qalibi olub.***

"Unikal" xəbər verir ki, bu münasibətlə keçirilən tədbirdə Dövlət Gömrük Komitəsinin Akademiyasının rəisi, gömrük xidməti general-mayoru Qulu Novruzov, Azərbaycan Gömrük İşçiləri Həmkarlar İttifaqı Birliyinin sədri Səfər İbrahimov və digər rəsmi şəxslər, həmçinin Akademiya əməkdaşları iştirak ediblər.

Qulu Novruzov Akademiyanın qalib seçilməsinin qürurverici olduğunu bildirərək, bunu növbəti uğur kimi dəyərləndirib. O, bildirib ki, bu qalibiyyət həm də bir məsuliyyətdir. Qulu Novruzov Akademiyada daim, o cümlədən pandemiya dövründə əməkdaşlar üçün sağlam və təhlükəsiz əmək şəraitinin yaradılması üzrə müvafiq tədbirlərin həyata keçirildiyini qeyd edib. 2018-ci ildən Dövlət Gömrük Komitəsi tərəfindən aparılan intensiv islahatlardan söz açan Akademiya rəisi son illər Akademiyada görülən işlərə nəzər salaraq, əldə olunan uğurların islahatların tərkib hissəsi kimi aparılan işin nəticəsi olduğunu vurğulayıb.

Qulu Novruzov pandemiya dövrü ilə əlaqədar Akademiyada onlayn tədrisin yüksək səviyyədə təşkilindən danışıb. O, ixtisaslar haqqında söz açaraq, həmçinin gömrük xidməti əməkdaşları üçün təlimlərin təşkilinə də toxunub. Akademiya tələbələrinin gələcəkdə əmək bazarında rəqabətə davam gətirəcək səriştəli, təcrübəli mütəxəssislər kimi yetişdirildiyini deyib.

Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə şanlı Azərbaycan Ordusunun apardığı İkinci Qarabağ əldə olunmuş qələbə və bu Vətən müharibəsində xüsusilə gənclərin rəşadətindən danışaraq Akademiya rəisi tələbələrin savad və biliklə yanaşı, həm də vətənpərvər ruhda tərbiyəsinin zəruriliyini qeyd edib, Akademiyada bu istiqamətə hər zaman xüsusi diqqət yetirildiyini deyib.

Qulu Novruzov Akademiyanın keyfiyyətin idarə edilməsi üzrə beynəlxalq İSO standartlarının tətbiq olunması üçün beynəlxalq keyfiyyət standartını əldə etdiyini bildirib. O, bu sahədə Türk Standartları İnstitutu ilə Akademiyanın əməkdaşlığına nəzər salaraq, görülən işləri diqqətə çatdırıb.

Gömrük İşçiləri Həmkarlar İttifaqı Birliyinin sədri Səfər İbrahimov dövlətin siyasətində vətəndaşların rifahı ilə yanaşı, sağlamlığına diqqətin mühüm yer tutduğunu bildirərək, bu işdə təmsil etdiyi Birliyin fəal iştirak etdiyini deyib. O, Akademiyada əməyin mühafizəsi, təminatı, əmək şəraitinə, təhlükəsizlik qaydalarının tədrisinə, tətbiqinə və təlimatlandırmaya qayğının yüksək səviyyədə olduğunu bildirib. Səfər İbrahimov Akademiyanın respublika üzrə 1700 müəssisə içərisindən seçilərək, 37 qalib müəssisədən biri, həmçinin gömrük orqanları arasında ilk olduğunu deyib.

Səfər İbrahimov sağlam və təhlükəsiz əmək şəraitinin yaradılmasına görə Akademiya rəhbərliyinə təşəkkür edib. Birliyin sədri Akademiyanın kollektivinin liderliyi əldən verməmək üçün əmək şəraitinin yeni tələblərə uyğun olaraq mütəmadi yaxşılaşdırılmasına səy göstərəcəyinə inamını ifadə edib.

Tədbirin sonunda Fəxri diplom və xatirə hədiyyəsi təqdim olunub.

# Şənbə günü hava necə olacaq?

***Şənbə günü Azərbaycanda gözlənilən hava şəraiti açıqlanıb.***

Milli Hidrometeorologiya Xidmətindən "Unikal"a verilən məlumata görə, mayın 22-də Bakıda və Abşeron yarımadasında hava şəraitinin yağmursuz keçəcəyi gözlənilir.

Cənub küləyi əsəcək. Havanın temperaturu gecə 15-19, gündüz 28-33, Bakıda gecə 17-19, gündüz 29-31 dərəcə isti olacaq.

Atmosfer təzyiqi 758 mm civə sütunundan 754 mm civə sütununa enəcək, nisbi rütubət gecə 60-70, gündüz 40-45 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında hava şəraitinin əsasən yağmursuz keçəcəyi,lakin gündüz bəzi dağlıq ərazilərdə şimşək çaxacağı, arabir yağış yağacağı, səhər bəzi yerlərdə duman olacağı gözlənilir. Şərq küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək.

Havanın temperaturu gecə 15-20, gündüz 31-36, dağlarda gecə 10-15, gündüz 21-26 dərəcə isti olacaq.

Tibbi-meteoroloji proqnoza gəlincə, Abşeron yarımadasında sabit hava şəraiti gözlənilir ki, bu da meteohəssas insanlar üçün əsasən əlverişlidir.

# Azərbaycandakı "leş mafiyası"nın arxasında məmur izləri...

## Milyonlarla insanın sağlamlığını və ölkənin genefondunu təhlükə altına aldıqları üçün həbsə atılanlar çox keçmədən necə azadlığa çıxırlar?

***Sosial şəbəkədə istifadə etdiyimiz ətə qırmızı rəng qatılması barədə foto paylaşılıb. Görüntüdə göstərilir ki, marketdən alınan ətin bir hissəsi qaba qoyulur. Müəyyən müddət keçəndən sonra həmin qabda ətdən çıxan suyun rəngi marağa səbəb olub. Qabda suyun rənginin qan rəngində deyil, bənövşə rəngində olduğu görünür. Bu isə o deməkdir ki, ətə rəng qatılıb.***

Dəfələrlə sosial şəbəkədə xarici mütəxəssislərin süni ət hazırlaması haqqında müxtəlif formada videolar yayılıb. Bir neçə gün öncə ölkəmizdə yayılan video əhali arasında narahatlığa səbəb olub.

Bu mövzu ilə bağlı yerli mətbuata danışan Azad İstehlakçılar İctimai Birliyinin (AİİB) sədri Eyyub Hüseynov isə sensasiyalı açıqlama verib. Onun sözlərinə görə, ölkəmizdə leş ətlərin satışını həyata keçirən mafiya var: "Həmin ətləri restoran və kafelərə göndərən qruplar mövcuddur. Bu sahədə ən uğurlu işi Daxili İşlər Nazirliyinin (DİN) Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsi aparır. Təəssüf ki, DİN həmin insanları həbs etsə də məhkəmələr azad edir. Ölkəmizdə hətta kiloqramı 3 manata olan ətlər var. Həmin ətlər qanuni kəsilir, lakin həddindən artıq qocalmış heyvan ətləridir. Belə ətlər bazara çıxarılmır, 2-3 manata kolbasa və sosiska sexlərinə verilir... ".

E.Hüseynovun açıqlamasında ən diqqətçəkən məqam "leş mafiyası" üzvlərinin məhkəmələr tərəfindən azad edilməsi ilə bağlı dedikləridir. Reallıq mütəxəssisin haqlı olduğunu göstərir. Məsələn, 2019-cu ilin sentyabrında DİN-in Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin əməkdaşları tərəfindən həbs olunan "Leş Tofiq" ləqəbli Alıbəy Rzaxanov cəmi on ay sonra azadlığa çıxmışdı. Həbs müddəti başa çatmamış azadlığa buraxılan ""Leş Tofiq"in rəhbərlik etdiyi mütəşəkkil dəstənin üzvləri bir müddət qidaya yararsız, ölmüş iri buynuzlu mal və at ətlərinin respublikanın müxtəlif rayonlarından toplanması, tədarükü və emalı ilə məşğul olublar. Dəstə ifşa edilərkən yayılan rəsmi məlumatda bildirilirdi ki, "Leş Tofiq" və onunla bərabər daha 7 nəfər qidaya yararsız, ölmüş iri buynuzlu mal və at ətlərinin respublikanın müxtəlif rayonlarından toplanmasını, tədarükünü və emalını həyata keçiriblər. Həmin vaxt dəstə üzvlərinə məxsus Abşeron rayonunun Güzdək qəsəbəsində, Sabirabad rayonunun Xəlfəli kəndində, Bakı şəhəri Nərimanov rayonu ərazisində yerləşən sex, anbar və gizli saxlanc yerlərinə baxış keçirilərkən 40 tona yaxın qidaya yararsız, mənşəyi məlum olmayan mal və at əti aşkar olunmuşdu.

Lakin "Leş Tofiq" həbsdə çox az qaldı və məhkəmə tərəfindən həbs müddəti bitmədən azad edildi.

Hələ bu barədə xəbər yayılanda belə fikirlər səslənirdi ki, ölkədəki "leş mafiyası"nın fəaliyyətində maraqlı olan məmurlar var; məhz həmin məmurların səyləri nəticəsində həmin mafiyaya daxil olan qrupları ifşa etmək çətinləşir, ifşa edəndə isə onlar qısa vaxtdan sonra məhkəmə yolu ilə azadlığa buraxılırlar. Odur ki E.Hüseynovun söylədikləri sensasion məqam olmaqla yanaşı, real mənzərənin açıq şəkildə dilə gətirilməsi kimi qiymətləndirilə bilər. Eyni zamanda işin içində müəyyən məmur maraqlarının varlığı da istisna edilə bilməz. Əks halda həmin mafiya üzvləri çətin ki, məhkəmə vasitəsilə azadlığa buraxılma imkanlarına sahib olsunlar.

Məsələn, "Leş Əli" kimi tanınan və iki il öncə həbs edilən Əlifxan Şahverdiyev də vaxtilə tutulubmuş. "Onu hər dəfə tutub buraxırlar. Uzun illərdir bu işlə məşğul olur. Rayonda bunu hamı bilir. Amma onun vecinə də deyildi" - deyə 2019-cu ildə rayon sakinləri yerli mətbuata bildirmişdilər.



Bu da onu göstərir ki, "leş mafiyası"nın güclü himayədarları var. Həmin vaxt da bu mafiyanın "uzun əllərə" sahib olduğu barədə fikirlər səsləndirilirdi.

Bir sözlə, absurd vəziyyət yaranıb: hüquq-mühafizə orqanları, polis əməkdaşları üzərlərinə düşən vəzifəni layiqincə yerinə yetirərək "leş mafiyası" kimi hər birimizin sağlamlığını, eyni zamanda ölkənin genefondunu təhdid edən təhlükəli qrupları üzə çıxarır, ifşa edir, onların zərərsizləşdirilməsinə nail olur, lakin sonrakı mərhələdə sanki hansısa gizli əllər bu mafiya mənsublarını dəmir barmaqlıqlar ardından qurtarırlar.

Kifayət qədər düşündürücü, eyni zamanda araşdırmaya ciddi ehtiyac duyan məsələdir. Ona görə də mövzunu gələcəkdə də davam etdirməyə dəyər...

***Toğrul Əliyev***

# Azərbaycanın işğal altındakı 108 kv. kilometr ərazisi qaytarıla bilər



***Ermənistanın Vatikandakı keçmiş səfiri, hazırda İtaliyada yaşayan Mikael Minasyan ötən gün baş nazir əvəzi Nikol Paşinyanın Azərbaycanla yeni saziş imzalamağa hazırlaşdığını bildirdi. O, imzalanması planlaşdırılan sənədin surətini yayımlamaqla informasiya bombası partlatdı. Baş naziri satqınlıqda ittiham edən Minasyan müqavilə ilə Qazaxın işğal altındakı 7 kəndi və Naxçıvanın Kərki kəndinin Azərbaycana qaytarılacağını iddia edib.***

Təbii ki, sənədin surətinin yayımlanması erməni ictimaiyyəti tərəfindən xoş qarşılanmayıb. Nazirlər Kabinetinin binası qarşısına toplaşan radikallar razılaşmanın heç bir halda imzalanmamasını tələb ediblər.

Bəs "torpaq güzəşti" deyildikdə nəzərdə tutulan kəndlər hansılardır? Qarabağdan kənarda yerləşən bu ərazilər necə oldu ki, erməni tapdağı altına düşdü?

Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddiaları və təcavüzü təkcə Qarabağla məhdudlaşmayaraq, digər bölgələri də əhatə edib. Dağlıq Qarabağdan 100 km-lərlə uzaqda yerləşən Qazax rayonunun kəndləri də 1990-cı illərin əvvəlindən, artıq erməni işğalçılarının silahlı hücumlarına məruz qalıb. Həmin dövrdə Sovet hökumətinin qərarına əsasən, Qazax rayonunda olan bütün silahlar əhalinin əlindən alınıb. Ermənistanla sərhəddə yerləşən Qazax rayonunda silahların kütləvi şəkildə yığılması nəticəsində yerli əhali silahlı düşmən qarşısında əliyalın vəziyyətdə qalır. Bununla SSRİ rəhbərliyi yerli azərbaycanlılara qarşı Ermənistan silahlı qüvvələrinin törədəcəyi soyqırımına ideal şərait yaradır.

Həmin kəndlər bunlardır: Bağanis Ayrım - Coğaz çayının sahilində yerləşir. Keçmiş adı Seyid Ayrımdır. Yaşayış məntəqəsi ayrımların Seyidli qoluna mənsub ailələrin keçmişdə mövcud olan Bağanis kəndi yaxınlığında salındığı üçün belə adlandırılıb. Seyidlilər 19-cu əsrin əvvəlində 108 ailədən ibarət tayfa olublar. Toponim "Bağanis kəndi yaxınlığındakı Ayrım kəndi" mənasında işlədilir.

Xeyrimli - Gəncə-Qazax düzənliyində yerləşir. Keçmiş tam adı Dil Xeyrimlidir. Toponim Xeyrimli tayfasının adından götürülüb.

Barxudarlı - dağətəyi ərazidədir. Kəndi Barxudarlı nəslinə mənsub ailələr saldığına görə belə adlanıb. Nəslin adı fars dilindəki bərxurdar - "arzusuna yetişən, xoşbəxt" sözündən əmələ gəlib.

Sofulu - yaşayış məntəqəsinin adı əvvəllər Zəngəzur və Qazax qəzalarında yaşayan kəngərlilərin Sofulu tayfasının adı ilə bağlıdır.

Yuxarı Əskipara - dağətəyi ərazidədir. Keçmiş adı Əskipara adlanır. Ondan yaranan yeni məntəqə Aşağı Əskipara, əvvəlki kənd isə Yuxarı Əskipara adlandırılır. Azərbaycan dilindəki "əski" (köhnə, qədim) və "para" (yer, kənd, hissə) sözlərindən ibarət olub, "köhnə, qədim kənd" mənasındadır.

Qızıl Hacılı - yaşayış məntəqəsinin adı Qızılhacılı tayfasının adından götürülüb.

Aşağı Əskipara - yaşayış məntəqəsi Coğaz çayının sahilində, Qazançı dağının ətəyindədir. Azərbaycan dilindəki "əski" (köhnə, qədim) və "para" (yer, kənd, hissə) sözlərindən ibarət olub, "köhnə, qədim kənd" mənasını daşıyır.

Naxçıvanın isə bir kəndi 31 ildir ki, işğaldadır.

Kərki - Azərbaycan Respublikası Naxçıvan Muxtar Respublikasının Sədərək rayonunun inzibati ərazi vahidində kənddir. Azərbaycanın Ermənistan ərazisindəki 3 eksklav ərazisindən biri sayılır. 1990-cu ilin Yanvarında ermənilər tərəfindən işğal edilib.

Qazaxın 7 kəndinin sahəsi 89,8 kvadrat kilometr, Naxçıvanın Kərki kəndinin sahəsi isə 19 kvadrat kilometr təşkil edir.

Beləliklə, sərhədlərin demarkasiyası və delimitasiyası barədə müqavilə imzalanarsa, Azərbaycan toplam 108,8 kvadrat kilometr ərazisinə nəzarəti yenidən qaytarmış olacaq.

Politoloq Tofiq Abbasov da Modern.az-a danışaraq işğal altındakı kəndlərin qaytarılması perspektivinə toxunub. Onun sözlərinə görə, müharibədə qalib tərəf həmişə şərtləri təyin edir: "Bizə lazımdır ki, Ermənistan səhv siyasətindən əl çəksin. Bunu etsə, özü udacaq, etməsə biz onların cavabını verəcəyik. Üç tərəf artıq danışıb, razılığa gəlib. Paşinyan da bununla demək olar, öz qələbəsini əldə edə bilər. Eyni zamanda Azərbaycan qarşısında öz öhdəliklərini yerinə yetirə biləcək".

"Bəyanatda əsas məsələ isə Azərbaycanın maraqlarının təmini olacaq. Hazırda Azərbaycanın istədikləri Zəngəzur dəhlizinin açılması, Qazaxın 7, Naxçıvanın 1 kəndinin geri qaytarılması, Qarabağdakı ermənilərin tam tərk-silah olunması, Ermənistandan Azərbaycan torpaqlarına "hərbi xidmətə" kimsə göndərilməməsidir. Paşinyan özü də çıxışında bu məsələlərin həllinin olacağını bildirir. Sadəcə, Azərbaycan bu prosesi tələsdirmir. İndi biz başa düşürük ki, Paşinyanın vəziyyəti ölkəsində ağırdır və humanitar məsələlərin həllində ləngiyir. Amma onlar da bilirlər ki, həmin kəndlərin erməni sakinləri ölkələrinə qaçqın kimi qayıdacaq. Paşinyanın da indi elə bir gücü yoxdur ki, əhalinin maraqlarını təmin etsin. Ancaq artıq biz deyə bilərik ki, bu məsələ öz həllini tapıb, onun reallaşmasına isə bir az zaman qalıb",- deyə T.Abbasov bildirib.



# Səbaildə içməli su şəbəkəsi yenidən qurulur

***"Azərsu" Açıq Səhmdar Cəmiyyəti (ASC) Bakı şəhəri və ətraf qəsəbələrdə əhalinin içməli su təchizatının yaxşılaşdırılması məqsədilə layihələrin icrasını davam etdirir.***

ASC-dən "Unikal"a bildirilib ki, Səhmdar Cəmiyyətinin daxili imkanları hesabına Səbail rayonu 20-ci sahə yaşayış massivi Dəmirçilər adlanan ərazidə içməli su şəbəkəsinin yenidən qurulması işləri həyata keçirilir.

Dəmirçilər adlanan ərazidə mərkəzləşdirilmiş içməli su şəbəkəsi mövcud olmayıb. Su təchizatı əhali tərəfindən fərdi qaydada yaradılmış və tikinti normalarına uyğun gəlməyən şəbəkələr hesabına aparılıb. İstismar olunaraq yararsız vəziyyətə düşmüş su xətlərində tez-tez qəzalar baş verir və əhalinin içməli su təchizatında çətinliklər yaranırdı. İndiyədək sakinlər günaşırı olmaqla cəmi 2 saat içməli su ilə təmin olunurdu. Bəzi hallarda sakinlər suyu maşınlarla almaq məcburiyyətində qalırdı.

Bütün bunlar nəzərə alınaraq ərazidə yeni şəbəkənin yaradılmasına qərar verilib. Layihə çərçivəsində ərazidə 1 km-dən artıq içməli su şəbəkəsi yaradılıb və 150 fərdi yaşayış evi və obyektin şəbəkəyə qoşulması təmin edilib. Hazırda abonentlərin sayğaclarla təmin edilməsi işləri aparılır. Layihənin icrasının yaxın günlərdə tam başa çatdırılması nəzərdə tutulur.

Yeni layihənin icrasından sonra sakinlər artıq hər gün qrafikli rejimlə içməli su ilə təmin olunacaq. Yeri gəlmişkən, indiyədək əraziyə içməli su "Şimal" nasos stansiyasından verilirdi. Yeni şəbəkə "+220 Badamdar" su anbarından ayrılan xəttə qoşularaq su təminatı özüaxımlı rejimdə aparılacaq. Bu layihənin davamı olaraq 20-ci sahə yaşayış massivinin digər küçələrində də yenidənqurma, təmir-bərpa və tənzimləmə işləri davam etdiriləcək.

Qeyd edək ki, Hazırda "Azərsu" ASC-nin daxili imkanları hesabına Səbail rayonu ilə yanaşı, Binəqədi, Sabunçu, Suraxanı, Xəzər rayonlarında, həmçinin regionlarda Hacıqabul, Saatlı, Tovuz, Biləsuvar rayonlarının kənd və qəsəbələrində içməli su təchizatının yaxşılaşdırılması məqsədilə layihələrin icrası davam etdirilir.

# İnzibati Xətalar Məcəlləsinə yeni maddə əlavə edilir

***Milli Məclisin plenar iclasında İnzibati Xətalar Məcəlləsinə dəyişiklik layihəsi I oxunuşda müzakirəyə çıxarılıb.***

Dəyişikliklə Məcəlləyə yeni 445-1.7-ci maddəsi əlavə edilir.

Yeni maddəyə əsasən, satınalan təşkilat tərəfindən "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununda satınalma müqaviləsi üzrə ödəmələrlə bağlı tələblərin pozulmasına, yəni satınalma müqaviləsi üzrə ödəmələrin tenderin əsas şərtlər toplusunda və satınalma müqaviləsinin xüsusi şərtlərində müəyyənləşdirilmiş qaydada, məbləğdə və müddətdə həyata keçirilməməsinə, o cümlədən satınalma müqaviləsinin icrası tam başa çatdıqdan (texniki təminat müddəti daxil olmaqla) və bunu təsdiq edən sənədlər tərtib olunduqdan sonra ödənilməli məbləğin satınalma müqaviləsində müəyyən olunmuş müddətdə ödənilməməsinə, habelə ödənişin gecikdirilməsinə görə satınalma müqaviləsində müəyyən olunmuş məbləğdə hesablanmış faizlərin əsassız olaraq malgöndərənə (podratçıya) ödənilməməsinə görə - vəzifəli şəxslər 3 000 manatdan 6 000 manatadək məbləğdə cərimə ediləcək.

Dəyişiklik layihəsi müzakirələrdən sonra səsverməyə çıxarılaraq I oxunuşda qəbul edilib.



## Nazirlik Tahir Salahovun vəfatı ilə bağlı nekroloq yaydı

***Mədəniyyət Nazirliyi Azərbaycanın dünya şöhrətli rəssamı Tahir Salahovun vəfatı ilə əlaqədar nekroloq yayıb.***

Unikal.org xəbər verir ki, nekroloqda deyilir: "Azərbaycan incəsənətinə ağır itki üz verib. Azərbaycanın və SSRİ-nin Xalq rəssamı, SSRİ Dövlət mükafatı laureatı, Sosialist Əməyi Qəhrəmanı, dünya şöhrətli fırça ustası Tahir Teymur oğlu Salahov 21 may 2021-ci ildə, ömrünün 92-ci ilində vəfat edib.

Tahir Salahov müasir rəssamlıq məktəbinin görkəmli nümayəndəsi olaraq uzunmüddətli səmərəli və bənzərsiz yaradıcılığı ilə zəngin mədəniyyət salnaməmizə yeni səhifələr yazıb. Onun milli sənət xəzinəmizin qızıl fondunda özünə həmişəlik layiqli yer tutan əsərləri Azərbaycan təsviri sənətinə geniş şöhrət qazandırıb. Fırça ustasının Azərbaycan incəsənətinin çoxəsrlik ənənələrini Avropa boyakarlıq məktəbinin nailiyyətləri ilə birləşdirən, mövzu, forma, janr əlvanlığı və estetik kamilliyi ilə seçilən ecazkar rəsmləri ülvi bəşəri dəyərlər və ali məqsədlər naminə humanist fikirlər təlqin edir.

Azərbaycanın (1963) və SSRİ-nin (1973) "Xalq rəssamı" fəxri adlarına layiq görülən sənətkar müstəqil respublikamızın da ən ali təltiflərinə - 1998-ci ildə "İstiqlal", 2008-ci ildə "Heydər Əliyev" ordenlərinə, 2015-ci ildə Heydər Əliyev mükafatına, 2018-ci ildə isə 90 illik yubileyi ərəfəsində 1-ci dərəcəli "Əmək" ordeninə layiq görülüb.

Rəssamın müxtəlif ölkələrdə mötəbər məkanlarda sərgiləri keçirilib. Onun əl işləri hazırda da yüksək titullara layiq görülərək yalnız Azərbaycanda deyil, onun hüdudlarından kənarda da dünya muzeyləri və qalereyalarında nümayiş etdirilir.

Uzun illər SSRİ Rəssamlar İttifaqı İdarə heyətinin birinci katibi olan Tahir Salahov 20 ildən çox idi Rusiya Rəssamlıq Akademiyasının vitse-prezidenti kimi fəaliyyət göstərirdi.

Tahir Salahovun işıqlı xatirəsi onu tanıyanların qəlbində əbədi yaşayacaq. Allah rəhmət eləsin".

# Xan Şuşinskinin qızı: "Cıdır düzündəki qartal bəlkə də atamın ruhu idi"

***"Şuşaya ayaq basan kimi diz çökdüm, torpağı öpdüm və ətrini ciyərlərimə çəkdim".Bunu Azvision.az -a ustad xanəndəmiz, mərhum Xalq artisti Xan Şuşinskinin qızı, Xan Şuşinski Fondunun rəhbəri Bəyimxanım Verdiyeva Şuşa şəhərinə səfərindən danışarkən deyib. Görkəmli xanəndənin qızı Cıdır düzündə təşkil olunan "Xarıbülbül" festivalından unudulmaz təəssüratlarla qayıtdığını söyləyib.***

***- İşğaldan əvvəl sonuncu dəfə Şuşada nə vaxt olmuşdunuz?***

- Mən son dəfə Şuşada 1979-cu ildə olmuşdum. Çünki ailə qurmuşdum, Gəncədə yaşayırdım. Uşaqlarım körpə olduğuna görə sonralar Şuşaya gedə bilmədim. Ancaq hər an ürəyim orada idi. Uşaqlığım, xoşbəxt günlərimin o şəhərlə bağlıdır. Atam Şuşada sonuncu dəfə 1977-ci ildə olmuşdu. Sonra xəstələndi deyə doğma yurdumuza gedə bilmədi. Şuşadan Xarıbülbül gətirməyimizi xahiş etdi. Hətta xəstə olarkən Xarıbülbüllə çəkilmiş şəkli də var. Sanki Şuşanın ətrini xarıbülbüldən alırdı. Xalq Komissarlığına çağırıblar. Sorğu-sual ediblər ki, Sovet Şuşasının başı dumanlı olarmı? Atam Şuşanı canı qədər çox sevirdi. 1929-cu ildə Xankəndində milli musiqi alətlərindən ibarət böyük ansambl yaratmışdı. Atam həm də gözəl tar ifaçısı idi.

***- "Xarıbülbül" festivalında Xan Şuşinskinin illər öncəki ifası səsləndi. Çox təsirli səhnə idi. Şuşanın əsl sahiblərinin səsi Cıdır düzündən ətrafa yayılırdı.***

- Xanın Cıdır düzündə ifasının səslənməsi nə demək idi?! Biz illərdir ki, bunun həsrətini çəkmişik. Atamın ifası səslənərkən göydə qartal uçmağa başladı. Bəlkə də bu qartal atamın ruhu idi. Mənə elə gəlir ki, o, haqq dünyasında şad olub. Əziz Prezindetimiz, Müzəffər Ali Baş Komandanımız İlham Əliyevə təşəkkür edim. Şuşaya Qafqazın, Şərqin konservatoriyası, Kiçik Paris deyilirdi. Ölkə başçımız Şuşanı mədəniyyət paytaxtı elan etdi. Onun ideyası ilə "Xarıbülbül" festivalı çox yüksək səviyyədə keçirildi.

***- Şuşaya qədəm qoyanda ilk olaraq gözləriniz kimi və ya nəyi axtarırdı?***

Uzeyir bəyin evinin pilləkənlərinə ayaq basanda həyəcandan ayaqlarım tutuldu. Mənim qoluma girdilər, su verdilər, xeyli müddətdən sonra özümə gəldim. Evimizi belə vəziyyətdə görəndə narahat oldum, özümü çox pis hiss etdim. Bağçamızda qalan güllərin ləçəklərindən öpdüm. Bulağımız var idi. İndi yoxdur. Darvazamızı da söküb aparıblar. Həyətin yarısı yoxdur, ağacları qırıblar. Bircə tut ağacımız qalır. Evimizi dağıdıblar, bünövrəsinə möhkəm olduğuna görə toxuna bilməyiblər. Öz həyətimizdən atamın və anamın məzarı üstünə tökmək üçün torpaq götürdüm.

***- Şuşada olarkən daha çox hansı xatirələriniz gözünüzün önündə canlandı?***

- Şuşada o qədər xoşbəxt günlərimiz olub ki... "Xan Şuşaya gəldi" deyəndə bütün Şuşa ayağa qalxırdı Hamı həvəs və həsrətlə Xanın gəlişini gözləyirdi. Şəhərin mərkəzində "Güllü bağ" deyilən bir yer var idi. Orada elə güllər əkilmişdi ki, başqa ölkələrdə mən elələrini görmədim. Orada atamın skamyası var idi. Əgər bağa 100 adam gəlsəydi və 10-u ayaq üstə qalsaydı, yenə də heç kim oturmurdu. Ora Xanın yeri idi. Ona çox hörmət edirdilər. Bu hörməti, sevgini atam öz şəxsiyyəti, sənəti ilə qazanmışdı. Şuşa müasir və beynəlmiləl şəhər idi.

O dövrdə Şuşaya gələn turistlər atam haqqında eşidəndə onlar atamla görüşmək, avtoqraf almaq istəyirdilər. Atam buxara papağını başına qoyardı, orden və medallarını sinəsinə taxardı. Bizim həyətdə şəkil çəkdirib, avtoqraf alardılar. Soyuducudan istifadə etmirdik. Həyətimizdəki bulağın altına nəyi qoyurduqsa, iki dəqiqədən sonra buz kimi olurdu. Biz Şuşaya çatan kimi bütün qohumlar yığışıb gələrdilər. Şəhər qaynayırdı, Şuşa əsl mədəniyyət mərkəzi idi.

Şuşanın çox maraqlı, gözəl təbiəti var. Bir dəqiqənin içində hava dəyişir, gün batır, yağış yağır. Sonra yenidən günəş çıxır. Oradakı gül- çiçəkdən elə ətir gəlir ki, insan cənnətdə olduğunu düşünür. Şuşa səfəri ilə mənim ömrüm uzandı. Allaha şükür edirəm ki, mən bu günü gördüm. Hamı bir-birini qucaqlayıb, gözaydınlığı verirdi.

***- 43 ildən sonra Şuşaya getmək, Vətənə dönmək necə hissdir?***

- Bunu sözlə ifadə edə bilmirəm. Keçirdiyim hisslərin qarşısında sözlər acizdir. 44 günlük Vətən Müharibəsi zamanı sanki özüm də vuruşurdum. Elə bilirdim ki, qəhrəman igidlərimizin yanında səngərdəyəm. Yuxunun nə olduğunu bilmirdim. Gecə-gündüz Allaha yalvarırdım. Deyirdim, ay Allah, əsgərlərimiz Şuşanı necə fəth edəcəklər?! Axı Şuşa zirvədədir. Əvvəlcədən hamıya tapşırmışdım ki, mənə Şuşanın azad olunması xəbərini birbaşa deməsinlər. Ürəyim bu xəbərə tab gətirməyib partlaya bilərdi. Şuşanın işğaldan azad olunmasından əvvəl mənə təbriklər gəlməyə başladı. Özümü yavaş-yavaş hazırlamağa başladım. Cənab Prezident "Şuşa bizə bir nəfəs qədər yaxındır" deyəndə 100 faiz əmin oldum ki, Şuşa bizimdir.

Onu da qeyd edim ki, ötən ilin may ayının 7-də bir yuxu gördüm: Şuşanın daşlı, kəsəkli yollarında idim. Yağış yeri parıldadırdı. Başımı yuxarı qaldıranda Şuşanın Gəncə qapısının yanında olduğumu gördüm. Müğənnimiz Zöhrə Abdullayeva da mənimlə birgə idi. O, tərəddüd edirdi, mən isə can atırdım ki, içəri girim. Sevinclə yuxudan ayıldım. Yuxum gerçək oldu. İndi danışanda qəhərlənirəm. Şuşa işğaldan azad olunanda 700-ə yaxın insan məni təbrik etmək üçün zəng vurmuşdu. Mən isə zənglərə cavab verə bilmədim, bir saat oturub hönkür-hönkür ağladım.

1993-cü ildə həyat yoldaşım məni İsveçrənin Sürix şəhərinə apardı. Dedi, sən oradan Şuşanın qoxusunu alacaqsan. Ancaq bu şəhər də Şuşaya çata bilmədi. Ulu babam Qarabağ xanı Pənahəli xan Cavanşirin nəslindəndir. Biz Şuşaya qanı, canı ilə bağlı adamlarıq.

***- Bildiyimə görə, Şuşa haqqında ilk mahnı atanıza məxsusdur.***

- Bəli, "Şuşanın dağları" adlı ilk mahnını atam 1930-cu ildə bəstələyib. Sözləri də özünə aiddir. O, bu mahnını yazanda Azərbaycanın müqəddəs bayrağını gələcək nəsillərə ərmağan etmək istəyib. Bu sözlərə görə, onu dəfələrlə Daxili İşlər



- Yol boyu elə həyəcan keçirmişdim ki, bütün bədənim əsirdi. Nitqim tutulmuşdu. Dünyanın 30-a yaxın ölkəsində olmuşam. Heç bir ölkəyə gedəndə belə həyəcan keçirməmişəm.

Xalqımızın ziyalıları bir-bir avtobusdan düşdükcə, gözüm mərhum bəstəkarlarımız Vasif Adıgözəlovla Süleyman Ələsgərovu axtarırdı. Onların hər ikisi Şuşa, Qarabağ həsrəti ilə dünyalarını dəyişdilər. Şuşaya ayaq basan kimi diz çökdüm, torpağı qucaqladım, öpdüm və ətrini ciyərlərimə çəkdim. Heydər Əliyev Fondu mənə atamın evinə getməyə şərait yaratdı. Həyat yoldaşım, Xalq artisti Fikrət Verdiyev və kürəkənim, Xalq artisti Murad Hüseynovla birgə ora baş çəkdik. Biz Üzeyir Hacıbəyovla qonşu olmuşuq.

Ötən əsrin əvvəlində babamın Şuşanın ətrafında -Xoca, Kor ocaq və Ballıca adlı 3 kəndi olub. Eyni zamanda, Şuşanın mərkəzində 3 böyük mülkə sahib imiş. Sovet dönəmində onlar yandırılıb, talan olunduqdan sonra atam 1960-cı ildə Üzeyir bəyin qardaşı, Zülfüqar bəyin evini satın almışdı. Hər il yay tətilini biz orada keçirirdik.

***Şahanə Rəhimli***

# Şuşanın özəlliyi, Xarıbülbülün gözəlliyi




***Bəlkədə fərq etməz bir əcnəbi üçün Şuşa dünya xəritəsində olan şəhərlərdən adi birisi, Azərbaycana, Qarabağ bölgəsinə aid olan yaşayış məntəqələrindən biri kimi qəbul edilsədə, bizim üçün Şuşa müstəsna əhəmiyyətli və müqəddəs olmaqla yanaşı və sözün əsl mənasında özəldir.***

## Özəl Şuşa

6 il bundan əvvəl rəhbərlik etdiyim QHT-nın xətti ilə 30-dan artıq xarici ölkədən olan tərəfdaş həmkarlarımızla "Şuşaya Azadlıq" beynəlxalq ictimai dəstək kampaniyasına başladığımız zaman da həm yerli, həmdə əcnəbi arenada bu sualı çox ünvanladılar: "nədir bu şəhərin əhəmiyyəti, özəlliyi ki, siz onun adı ilə ayrıca böyük bir beynəlxalq kampaniya aparırsız, olmaz ki, bu işi Qarabağ tədbirləri çərçivəsində həyata keçirəsiz?".

Təbii ki, bu suala hazır idik, tutarlı və əsaslandırılmış şəkildə və böyük marağa səbəb olan formada bunu cavablandırdıq və xüsusilədə, əcnəbilər həqiqətən Şuşaya, onun mədəniyyətinə, mədəni irsinə, sülh, tolerant və multikultural genetikasına bağlandılar. Bunun real nəticəsi olaraq həmin ildə artıq tarixin arxivinə qovuşan 8 may işğal günü ərəfəsində 30 Avropa ölkəsinin QHT sədri rəhbərlik etdikləri təşkilatlar adından rəsmi bəyanat verərək, Şuşanın Ermənistan silahlı qüvvələri tərəfindən işğalını pisləməklə yanaşı, bu şəhərin zəngin mədəniyyətinin, mədəni irsinin və sülhpərvər təbiətinin ermənilərin vandalcasına dağıtdıqlarını öz ölkələrinin sosial medialarında açıqlayaraq, Bakıda mühüm beynəlxalq toplantıya qatıldılar.

Çoxları və bizlər üçün də hesab olunurdu ki, xaricilərin bu Şuşa sevgisi bəlkədə Bakıya gəlmək, buraları görmək, gəzmək üçün atılan ötəri bir addım olacaq və bir müddətdən sonra maraq itəcək.

Amma səmimi deyim, Şuşa adı, Şuşa fəaliyyəti, Şuşa özəlliyi özünü doğrultdu və davamlı etdi.

Tam ciddiliyi ilə deyirəm heç bir maddi qarşılıq güdmədən beynəlxalq tədbirə qatılan əcnəbi tərəfdaşlarımız 11 Avropa ölkəsində "Şuşaya Azadlıq" kampaniyası təşkil etdilər və özəl Şuşa, onun mədəni dəyərləri və irsinin qorunması üçün çağırışlar etdilər.

Bir maraqlı məqam da o oldu ki, "Şuşaya Azadlıq" beynəlxalq kampaniyası çərçivəsində təşkil etdiyimiz loqo müsabiqəsinin qalibi də Gürcüstan QHT rəhbəri oldu və bu fədakar şəxs həqiqətən sanki azərbaycanlı, qarabağlı kimi bu qədim şəhərin mədəniyyətini, mədəni irsini və gözəl Xarıbülbülü və ümumilikdə özəl Şuşanı gözəl təsvir etdi.

Bax budur Şuşanın özəlliyi ki, o bizə məxsus olan əbədi özəllik artıq bəşəri miqyasa keçmişdi.

## Sülhpərvər, birgəyaşayışlı və tolerant Şuşa

270 il bundan əvvəl qədim Azərbaycan Qarabağ xanlığının banisi Pənahəli Xan tərəfindən yüksək bir coğrafi ərazidə şəhərqala kimi qurulan Şuşanın gözəl və nadir təbiəti ilə yanaşı mədəni və sülh genetikası da Qafqaza və bütün regiona dərin izlərlə hopmuşdur.

Hələ XIX əsrin əvvəllərində baş verən Qacarlar İranı - Çar Rusiyası müharibəsində Şuşa sülh çağırışı ilə hərbi əməliyyatların tez dayandırılmasına və bölgədə əminamanlıqla birgəyaşayışın təmin olunmasına dəstək oldu.

Şuşa XIX əsrin 20-30-cu illərində Qacarlar İranı və Osmanlı imperiyasından köçürülən 10 minlərlə erməni ailəsinə böyük mehribanlıqla qucaq açmaqla, onlarla (gəlmə erməni əhalisi ilə) aborigen Qarabağ əhalisinin (Azərbaycan türklərinin) tolerant və sülh şəraitində yaşamasına da mərkəzlik etdi.

Şuşa sülh və birgəyaşayış təminatından da irəli gedərək, erməni əhalisinin Qarabağda yerləşdiyi kiçik kənd və qəsəbə icmalarına muxtar idarəçilik (məliklik) hüququnu da tanıdı, özüdə XIX əsrdə!

XX əsrin əvvəlində, 1919-cu ildə Şərqdə ilk demokratik və dünyəvi respublika olan Azərbaycan Xalq Cümhuriyyəti dövründə Qarabağda olan erməni əhalisinin daşnak təhriki ilə üsyan və separatçı çıxışlarının sülh, barış və dinc yolla həllinə yenə Şuşa ev sahibliyi etdi.

Azərbaycanda bolşevik işğalı ilə qurulan sovet respublikasının ilk illərində də Şuşa sülhpərvər, dinc, birgəyaşayış və konsensus siyasətinə sadiqliyini nümayiş etdirdi və Qarabağda erməni və azərbaycanlı əhali üçün yüksək özünüidarəetmə muxtariyyət statusu qazandırdı və güzəşt olaraq öz inzibati mərkəz rolunu da erməni əhalisinin daha çox məskunlaşdığı Xankəndinə ötürdü.

## Mədəni və mədəni irsli Şuşa

Şuşanın mədəniyyət, musiqi və mədəni irs mərkəzi olması təkcə Azərbaycana bağlı lokal məsələ deyil, o bütün Qafqaza aiddir regional mədəni sistemdir.

Şuşa ona görə Qafqazın musiqi beşiyi adlanır ki, burada yaranan və formalaşan Azərbaycan Qarabağ muğam və xanəndəlik məktəbi bütün Qafqaz bölgəsində mədəni hakim idi. Bu məktəbin nümayəndələri Qafqazın bütün yaşayış məntəqələrində mədəni irs və dəyərləri gözəl təbliğ edirdilər.

Cənubi Qafqaz Rusiya imperiyasının tərkib hissəsi olduqdan sonra inzibati mərkəz olan Tiflisdə baş verən istənilən mədəni yenilik özünü ilk növbədə Şuşada göstərirdi.

Tiflisdən sonra ilk klassik teatrın Şuşada qurulması da məhz onu Qafqazın mədəni mərkəzinə çevirən amillərdəndi.

Azərbaycan ərazisində müasir tipli ilk ümumtəhsil məktəbinin Şuşada açılması da Qafqaz mədəni və mədəni irs mərkəzi statusunun bu şəhərin etalonu kimi qiymətləndirilir.

XIX əsrdə Avropada ilk hüquq və siyasi elmlər üzrə ali təhsil alan, Qərb dəyərlərini yaşadan və 5 əcnəbi dildə sərbəst danışan Əhməd bəy Ağaoğlunun da Şuşa mədəni məktəbinin nümayəndəsi olmasıdan və Qarabada ilk kitabxananı yaratması da Şuşa mədəni irsiminin zənginliyindəndir.

XIX və XX əsr mütərəqqi Avropa və Qərb dəyərlərinin Şuşa və onun ziyalılarının timsal və fəaliyyətində büruzəsi şəhərin Qafqazın mədəni mərkəzi kimi müqayisə olunmazlığını göstərirdi.

Əsrlərlə məscidlər, İslam abidələri ilə yanaşı, pravoslav və qriqorian kilsə və abidələrinin də bərabər, yanaşı fəaliyyət göstərməsi Şuşanın Qafqazın mədəni irs mərkəzi olması ilə yanaşı bu çoxkonfesiyalı mədəni irsləri qoruyub yaşadan multikultural Azərbaycan şəhəri olduğunu təsdiq edir.

Milli və bəşəri mədəni dəyərləri özündə canlı yaşadan Şuşa kommunist ideoloji basqılarına rəğmən sovetlər dövründə də Azərbaycana rəhbərlik etmiş, Milli lider Heydər Əliyevin böyük xidmətləri ilə Qafqazın mədəni və mədəni irs mərkəzi statusunu qorudu və onu hətta bütün post-sovet məkanına yaydı.

1990-1991-ci illərdə Şuşada keçirilən musiqi festivalı beynəlxalq status alaraq, Sovetlər Birliyi məkanını da adlayaraq dünyanın bir mədəni tədbir hadisəsinə çevrildi.

## Mədəniyyətlər paytaxtı Şuşa

Hər zaman mədəniyyətə, mədəni irsə və mədəni dəyərlərin yaşadılmasına böyük önəm verən Azərbaycan xalqı, dövləti və onun rəhbərliyi bu ənənəsini azad Şuşanın timsalında bir daha təsdiq etdilər.

Qafqazın mədəniyyət və musiqi beşiyi olan Şuşanın işğaldan azad olunmasından dərhal sonra Azərbaycan Prezidenti cənab İlham Əliyev bu qədim şəhərin milli və bəşəri mədəni dəyərlərinin qorunması və yaşadılması üçün bütün dünyaya bir çağırış etdi.

Şuşanın, onun mədəni irsinin təkcə Azərbaycan xalqına aid olmadığa səs verən beynəlxalq təşkilatlar dərhal öz qərarlarını açıqladılar:

Şuşa İslam Mədəniyyətinin Paytaxtı elan edildi.

Şuşa Türk Dünyasının Mədəni Paytaxtı elan edildi.

Şuşa Azərbaycanın Mədəniyyət Paytaxtı elan edildi.

Bəlkə də bu siyahıya yeniləri də əlavə olunacaq. Amma ən azından bu məsuliyytli və şərəfli mədəniyyətlər paytaxtı statusunu daşıyacaq Şuşa artıq Azərbaycanın və Qafqazın mədəni mərkəzi sərhədlərini aşaraq böyük mədəni coğrafiya yaratmaqdadır.

Mədəniyyət hər zaman sülhə xidmət edir, illərdir sülhə komponentlik edən mədəni Şuşa təkcə bu statusundan deyil, sülh mərkəzi rolundan da məhrum edilmişdi.

Azərbaycan dövləti və onun prezidenti təkcə xalqımıza deyil, bütün sülhsevər bəşəriyyətə mədəniyyətlər paytaxtı Şuşanı azad qaytardı ki, bu mədəniyyət bundan sonra da yüz illərlə sülhə, təhlükəsizliyə, dinc və mehriban birgəyaşayışa xidmətetsin.

## Azadlıq, sülh və mədəniyyət rəmzli "Xarıbülbül"

Məhz Qafqaza məxsus olan endemik "Xarıbülbül" bitkisinin (gülünün) Şuşa ilə bağlılığı təkcə bir təbiət sevgisi deyil, onun böyük mənəvi, mədəni və sülhpərvər əhəmiyyəti və dəyəri 100 illərlə Azərbaycan xalqı tərəfindən yaşadılmaqdadır.

Rəvayətə görə, Şuşa nisgili ilə uzaq bir diyara gəlin köçən Qarabağ xanı qızının arzusuna uyğun "Xarıbülbül" bitkisi gətirilib əkilsədə o başqa torpaqda bitmir və sanki hər ikisi də (xan qızı və gül) qəfəsdə olanlar kimi qısa müddətdə uzaq diyarda tələf olurlar.

Ona görə Azərbaycan xalqı hər zaman "Xarıbülbül"ü azad, Şuşanın rəmzi və bu torpağın əbədi sahibi kimi qorumuş və gələcək nəsillərə də bu ənənəni layiqincə ötürmüşdür.

Azərbaycan xalqı əsrlərlə "Xarıbülbül" deyəndə Şuşanı, Şuşa deyəndə "Xarıbülbül"ü zəncirvari bağlı mədəni bir vahid kimi qəbul etmiş və bu yazılmamış qaydanın pozulması ilə barışmamışdır.

Buna görədir ki, 1992-ci ilin mayın 8-də Şuşa Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunanda və 28 il şəhər işğalda qalanda Azərbaycan xalqı deyirdi: "Xarıbülbül"ümüz qəfəsdədir, o, öz əzəli sahibini gözləyir, onu azad etsin, azad yaşatsın, ona mədəni həyatı qaytarsın.

Belə də oldu, 28 ildən sonra Azərbaycan xalqı və ordusu, öz məğrur, müzəffər lideri İlham Əliyevin rəhbərliyi altında ölkəmizə qarşı başlanan Ermənistan işğalına qarşı apardığı sülhəməcburetmə əməliyyatı ilə Şuşanı - "Xarıbülbül"ü azad etdi.

Artıq "Xarıbülbül" - Şuşa azaddı, "Xarıbülbül" azad böyüyür, azad açır, azad nəfəs alır və azad da yatır.

Budur "Xarıbülbül"ün əhəmiyyəti, budur "Xarıbülbül"ün mədəni dəyəri.

## "Xarıbülbül" Şuşasının sülh çağırışı

İşğal dövründə bütün mədəni və mədəni irs dəyərləri məhv edilən və qanunsuz dəyişdirilən Şuşa yenidən "Xarıbülbül"lə öz əvvəlki və əzəli mədəni statusunu bərpa etməyə başladı.

Azərbaycan Prezidenti cənab İlham Əliyevin qısa vaxtda 3 dəfə Şuşa səfərinə getməsi, çətin iqlim və coğrafi şəraitdə Şuşa mədəni simasının bərpasının aparılması böyük qəhrəmanlıq və mədəniyyətə və mədəni irsə verilən tarixi qiymətdir.

Qafqazın mədəniyyət mərkəzi olan Şuşanın bütün İslam və Xristian mədəni irs abidələrinin yüksək peşəkarlıqla bərpası, şəhərin sülh, birgəyaşayış və multikulturalizm tərzinə sadiqliyinin bir daha göstəricisidir.

"Xarıbülbül" musiqi festivalı ilə Şuşaya qayıdan çoxmədəniyyətli Azərbaycan bir daha bu barış şəhərindən dünyaya sülh çağırışı etdi.

"Xarıbülbül" festivalı regionda sülh, təhlükəsiz və tolerant qonşuluğun davam etdirilməsini irəli sürdü.

Sülh, birgəyaşayış və mehriban dinc yaşamı təbliğ edən "Xarıbülbül" musiqi festivalında Azərbaycanda yaşayan müxtəlif etnik və mədəni qrupların fəal iştirakı bir daha onu təsdiq etdi ki, ölkəmizin erməni əhalisi də bu imkanlardan faydalana bilər.

Azərbaycan Prezidenti cənab İlham Əliyevin də Şuşadan - "Xarıbülbül"dən dünyaya, layiqli vətəndaşlarımız ola biləcək Qarabağ ermənilərinə və mehriban qonşumuz olmaq istəyən Ermənistana da bir daha sülh çağırışı etməklə dövlətimizin bu siyasətə sadiqliyini nümayiş etdirdi.

***Asif ƏSGƏRLİ***
***Yeni Azərbaycan Partiyası İdarə Heyətinin üzvü, politoloq***



## Tehran Ermənistan ordusunu döyüşə hazırlayacaq: İran PUA-ları sərhədimizdən məlumatları İrəvana ötürür?

***İran Ermənistana ali rütbəli hərbi müşavirlər göndərib. Bu barədə İranın "Azad İran" "Telegram" kanalı Ermənistan KİV-nə istinadən məlumat yayıb.***

Hərbi müşavirlər Ermənistan ordusunun döyüş hazırlığının yüksəldilməsi üçün bu ölkəyə göndərilib.

Yazıda həmçinin bir müddət əvvəl İrana məxsus PUA-ların Azərbaycan sərhədində uçuş həyata keçirməsi də xatırladılıb. Qeyd olunub ki, İran PUA-larının kəşfiyyat uçuşları təsadüfi deyil, məqsədyönlü xarakter daşıyır. Belə ki, bununla İran Naxçıvanda keçirilən təlimlər və Azərbaycan ordusunun Qarabağdakı bölmələrinin yerdəyişmələri barədə Ermənistana məlumat ötürür.

Erməni mətbuatı yazır ki, İran erməni qüvvələrini Azərbaycana qarşı gücləndirmək üçün Ermənistana yüksək səviyyəli hərbi məsləhətçilər göndərib. İranın hədəfi Azərbaycanın işğal olunmuş ərazilərinin qalan hissəsinin azad edilməsinin qarşısını almaqdır.

Bu arada, Azərbaycanla bağlı Ermənistana casusluq hədəfi ilə Tehrandan qalxan İranın kəşfiyyat pilotsuz təyyarələri Azərbaycan-Ermənistan sərhəd bölgələrində (Zəngəzur bölgəsi) kəşfiyyat uçuşları həyata keçirib.

Bu uçuşların Qaragöl bölgəsində Azərbaycanla Ermənistan arasında sərhəd mübahisələrinin artması ilə üst-üstə düşməsi, Zəngəzur dəhlizi ilə bağlı müzakirələrin intensivləşməsi və Azərbaycanın Naxçıvanda genişmiqyaslı hərbi təlimlərə başlaması təsadüfi ola bilməz.

Ekspertlər hesab edir ki, 44 günlük Qarabağ müharibəsi zamanı da gördüyümüz kimi, İran Azərbaycanın hərbi hərəkətlərini izləyərək bu məlumatları işğalçı və təcavüzkar Ermənistana ötürür.

Digər tərəfdən, İran Azərbaycanın işğal olunmuş ərazilərinin azad edilməsinə mane olmaq üçün praktik olaraq Azərbaycana qarşı və işğalçı Ermənistana dəstək üçün hərəkətə keçib.

Xatırladaq ki, İran Parlamentinin Milli Təhlükəsizlik və Xarici Siyasət Komissiyasının sədri Muctaba Zunnuri Ermənistan-Azərbaycan sərhədindəki vəziyyətə toxunaraq deyib: "İranın mövqeyi çox açıq və qətiyyətlidir. Biz bölgə hər hansı bir dəyişikliyi qəbul etmirik. Bölgə ölkələrinin ərazi bütövlüyü qorunub saxlanmalıdır. Sərhədlərimizin yaxınlığında bölgədən kənar hər hansı qüvvənin olması qəbuedilməzdir. Əgər onlar Ermənistan ərazilərinin bir hissəsini ələ keçirmək istəyirlərsə bizim sərhədlərimiz dəyişiləcək, yəni yeni bir problem yaranacaq və bu da bizim üçün məqbul deyil. Keçmiş sərhədlər tam qorunmalı, İran İslam Respublikasının Ermənistanla birgə sərhədi olduğu kimi saxlanmalıdır".

Qeyd edək ki, İran, Ermənistanın həyata keçirməyə öhdəlik götürdüyü Zəngəzur dəhlizi məsələsində açıq şəkildə Ermənistanın yanında və Azərbaycanın qarşısında yer alıb.

Azərbaycanla Ermənistan arasındakı sərhəd probleminin İrana nə dəxlisi olduğu məlum deyil! Bəs niyə Azərbaycan əraziləri Ermənistan tərəfindən işğal edilərkən İran bundan narahat olmaq əvəzinə işğalçıya kömək edirdi?!

# Avropa Parlamenti ölkəmizə qarşı qərəzli və qeyri-obyektiv mövqedən çox uzaqlaşa bilmədi

***20 may 2021-ci ildə Avropa Parlamentində "Ermənistan və Azərbaycan arasında sonuncu münaqişədən sonra hərbi əsirlər" adlı qətnamə qəbul edilib. Qətnamə layihəsi hələ müzakirələrdən bir həftə öncə AP-nin veb-saytında yerləşdirilmişdi və son zamanlar Ermənistan və Avropa mətbuatında Azərbaycana qarşı irəli sürülən bütün uydurma iddialar olduğu kimi Qətnamə layihəsinin ilkin mətnində də öz əksini tapmışdı.***

Bu da Qətnamə layihəsinin ilkin mətninin Avropa deputatları tərəfindən deyil, erməni diasporu və onun AP-dəki lobbiçiləri tərəfindən birgə hazırlandığını göstərir. Bu, heç də təəccüblü deyil. Ermənilər hər zaman saxta informasiyalar qətnaməsi ilə yox, məhkəmə qərarları ilə hüquqi qiymət verilir. Avropa deputatları isə məhkəmə hakimliyi funksiyasını yerinə yetirmək imtiyazına malik deyillər. Adətən bütün ölkələrdə qanunun aliliyinin təmin olunmasına çağıran Avropa Parlamenti bu dəfə qanunu bir kənara qoyub kimliyindən və hansı cinayət əməllərini törətdiyindən asılı olmayaraq bütün erməni əsirlərini azad etməyə çağırır. Azərbaycan isə milli qanunvericiliyə və beynəlxalq hüquq normalarına müvafiq olaraq erməni hərbçilərini cinayət məsuliyyətinə cəlb edib və onların taleyini yalnız Azərbaycan məhkəməsi həll edə bilər. Uzun illər ərzində həm Ermənistan, həm də işğal olunmuş Azərbaycan ərazilərində xalqımıza məxsus bütün tarixi-mədəni abidələrin Ermənistan tərəfindən vəhşicəsinə dağıdılması... Azərbaycandan reallıqda mövcud olmayan "erməni mədəni irsini" qorumağa çağırması sadəcə istehza doğura bilər. AP üzvlərinin yalan məlumatlar əsasında Azərbaycana qarşı irəli sürülən erməni iddialarını belə asanlıqla dəstəkləməsi çoxsaylı suallar yaradır. Avropalı deputatlar erməni saxtakarlığına və riyakarlığına o qədər aludə olublar ki, hətta onların verdiyi məlumatların doğru olub-olmadığını yoxlamağa belə lüzum görmürlər. Bir tərəfdən xristian həmrəyliyi və digər tərəfdən Avropa erməni diasporunun Avropalı deputatlara göstərdiyi maliyyə yardımları Avropa Parlamentini əslində erməni diasporunun ruporuna çevirib. Nəticədə sözdə beynəlxalq hüquq normaları, insan haqları və demokratiya şüarları ilə yaymaqla ölkəmizə qarşı sonrakı qarayaxma kampaniyası üçün zəmin hazırlayır və daha sonra beynəlxalq təşkilatlarda erməni diasporunun muzdlu sözçülərini ölkəmizə qarşı qarayaxma kampaniyasına cəlb edirlər. Bu klassik erməni təbliğatının fəaliyyət mexanizmidir və bizə yaxşı məlumdur. Bütün bunlara baxmayaraq müzakirələr ərəfəsində Azərbaycan həm diplomatik kanallar vasitəsilə, həm də parlamentlərarası əlaqələr çərçivəsində öz etirazını bildirdi, irəli sürülən iddiaların əsassız olduğunu və yalan məlumatlara əsaslandığını və ən başlıcası, belə qərəzli müzakirələrin Ermənistanla Azərbaycan arasında qarşılıqlı etimadın yaradılmasına yox, düşmənçiliyin qızışdırılmasına xidmət etdiyini açıq şəkildə ifadə etdi.



Müzakirələrə qədər Avropa Parlamenti ilə aparılan məsləhətləşmələr və diplomatik səylər nəticəsində Azərbaycana qarşı haqsız iddiaların və ədalətsiz tələblərin böyük bir hissəsi layihədən çıxarılsa da, Qətnamə layihəsinin qəbul edilən son mətni də ölkəmizə qarşı qərəzli və qeyri-obyektiv mövqedən çox uzaqlaşa bilmədi. Nəticədə qəbul olunduğu andan əhəmiyyətsiz bir kağız parçasına çevrilməyə məhkum olan Azərbaycan əleyhinə növbəti sənəd qəbul olundu. Qətnamədə nə zaman və hansı şəraitdə həbs olunmağından asılı olmayaraq bütün erməni hərbçilərinin azad olunması, guya Ermənistanın suveren torpaqlarına daxil olmuş Azərbaycan hərbçilərinin geri çəkilməsi, əsirlikdə olan ermənilərlə beynəlxalq qanunlara uyğun davranılması, Qarabağ ərazisində erməni əsilli insanların təhlükəsizliyinin təmin olunması və "erməni mədəni irsinin" qorunması kimi absurd çağırışlar və tələblər yer alır. Ermənistanın bu qətnamə ilə heç nə əldə etməyəcəyi məlumdur.

Çünki təxribat törətməklə hərbi və mülki insanları qətlə yetirmiş terrorçuların əməllərinə parlament tan tərəfindən vəhşicəsinə dağıdılması və yer üzündən silinməsi, Xocalı, Başlıbel və Ağdaban soyqırımları, eləcə də valideynlərinin məzarını ziyarət etmək məqsədilə öz dədə-baba torpağına getmiş Şahbaz Quliyevin və Dilqəm Əsgərovun qanunsuz olaraq erməni girovluğunda saxlanılması AP üzvlərini heç narahat etməmişdi. Bütün bu problemlərlə bağlı 30 il ərzində Azərbaycan tərəfindən dövlət və parlament səviyyələrində, eləcə də vətəndaş cəmiyyətləri tərəfindən qaldırılan məsələlər Avropa Parlamentində dəstək qazana bilməmişdi. Hər il işğal olunmuş ərazilərdə 2-3 dəfə monitorinq missiyasını həyata keçirən ATƏT Sədrinin xüsusi nümayəndəsi Anjey Kasprşik isə bir dəfə də olsun, ermənilərin Qarabağ ərazisində törətdiyi vandalizm əməlləri haqqında məlumat verməmişdi.

Qarabağ ərazisində 70 məsciddən 67-nin tamamilə məhv edilməsi, yüzlərlə mədəniyyət tikililərinin, məktəblərin, muzeylərin yer üzündən silinməsi AP üzvlərini Azərbaycan tarixi-mədəni irsinin qorunması üçün hər hansı bir addım atmağa sövq edə bilməmişdi. Bütün bunlardan sonra AP-nin pərdələnən AP əslində öz məqsəd və məramlarından uzaqlaşaraq korrupsiyalaşmış bir siyasi quruma çevrilib. Azərbaycana münasibətdə AP-nin qəbul etdiyi qərar və qətnamələrin Aİ-nın özünün izlədiyi beynəlxalq və regional siyasətlə daban-dabana ziddiyyət təşkil etdiyi də göz qabağındadır.

AP Azərbaycana qarşı absurd iddialar və tələblər səsləndirdiyi halda Aİ Azərbaycanla əlaqələrini daha da möhkəmləndirməkdə və strateji münasibətlər səviyyəsinə yüksəltməkdə maraqlı və israrlı olduğunu bəyan edir. Bu paradoksun özü AP-nin ən azı Aİ-nın məqsəd və məramlarından xəbərsiz olduğunu göstərir. Belə bir qurumun guya münaqişə tərəfləri arasında "barış və etimad yaratmaq" iddiası isə heç bir tənqidə dözmür. Beləliklə, əgər AP Cənubi Qafqaz bölgəsində sülhün və sabitliyin bərqərar olunmasında maraqlıdırsa, bölgə dövlətlərinə münasibətdə ikili standartlardan imtina etməli və Azərbaycanın bölgə dövlətləri arasında yeni əməkdaşlıq təşəbbüslərinə dəstək verməlidir.

***Cavanşir Feyziyev***

**Ermənistan-Azərbaycan, ərazilərin işğaldan azad olunması haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi.**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Laçında ermənilər tariximizin izlərini silib

## Elçin Bəbirov: "Bizim həmin kənddə iki evimiz vardı. Həmin evlərin ancaq daşları qalıb"

***44 günlük Vətən müharibəsində qazandığımız qələbə Azərbaycan ordusunun gücünü göstərməklə yanaşı, düşmənin iç üzünü ifşa etməyə də imkan yaratdı. Xarabalığa çevrilmiş kənd və şəhərlərimiz, təhqir edilmiş ibadət yerlərimiz, məhv edilmiş mədəni və tarixi abidələrimiz işğalçı dövlətin nə qədər vandal olduğunu bir daha dünyaya nümayiş etdirdi.***

İndiyədək Dağlıq Qarabağ həqiqətlərinin əsl mahiyyətini dünyaya car çəkmək üçün böyük çaba göstərən Azərbaycan dövləti işğaldan azad edilmiş torpaqlarımızın simasını göstərməklə həqiqətin kimin tərəfində olduğunu da sübut etmiş oldu. Vəziyyət o həddədir ki, işğaldan azad edilmiş torpaqlarda doğulub boya-başa çatan insanlar belə öz evlərinin yerini tapmaqda çətinlik çəkirlər. İllərdir öz doğma yurd-yuvalarına həsrət qalan insanlar işğaldan azad edilmiş kənd və şəhərlərdə qoyub gəldikləri xatirələrinə boylanmaq üçün nə evlərini tapırlar nə də ki, kiçik bir izi...

Ekspertlər də bildirir ki, Dağlıq Qarabağ həqiqətlərinin dünyaya çatdırılması üçün işğaldan azad edilmiş torpaqlarda doğulan insanların geri qayıdışını dünyaya çəkib göstərmək kifayətdir.

İllərdir ki, qəlbi öz doğulduğu torpaqla döyünən, öz ata-baba ocağına həsrət qalanlardan biri də Elçin Bəbirovdur. Elçin Bəbirov 1975-ci ildə Laçının Hacılar kəndində dünyaya göz açıb. 2-ci qrup Qarabağ əlili olan Elçin öz ata-baba yurduna, uşaqlığını, yeniyetməliyini, gəncliyini qoyub gəldiyi Hacılar kəndinə gedəcəyi günü səbirsizliklə gözləyir. Deyir ki, yaxın qohumu olan hərbiçilərdən biri Laçında olarkən Hacılar kəndinə də gedib, kəndin görüntülərini onlara çəkərək göndərib: "Əlbəttə hamımız bilirik ki, düşmən 28 il işğalda saxladığı torpaqlarda daşı-daş üstündə qoymayıb. Ağdamın, Cəbrayılın, Füzulinin, Qubadlının timsalında biz bunu gördük. Ermənilər Hacılar kəndini də xarabalığa çevirib. Bizim həmin kənddə iki evimiz vardı. Həmin evlərin ancaq daşları qalıb. Evimizin içində isə ağaclar bitib".

E. Bəbirov deyir ki, evlərini olduğu kimi görmək onun üçün artıq heç arzu da deyil. Çünki ermənilər onun bu arzusunu öz vandal əməlləri ilə mümkünsüz ediblər: "Bizim kəndimizdə tarixi abidələr vardı. Hansı ki, yaşı 3 min il əvvələ aid idi. Kəndimizdə bir qaya var. Qayanın bir tərəfində qədimdə tikilmiş müdafiə



qalasının izi vardı. Biz o qayaya Qala qayası deyərdik. Evimiz indi ermənilərin üstündə dava saldıqları Qaragölə yaxın idi. Qaragölün aşağı hissəsində məscid olub. Ermənilər bütün hər şeyi,eləcə də məscidi yerlə-yeksan ediblər. Hacılar kəndində heç nə qalmayıb. Kəndimizin ətrafında Qobustan qayalarına bənzər qaya daşları var. Dəvəboynu dağı deyilən tarixi abidəni ermənilər mənimsəyərək dünyaya öz adidələri kimi təqdim edirlər.



Həmsöhbətimiz deyir ki, doğulduğu kəndin ərazisi Qaragölə ən yaxın yaşayış məntəqəsidir. Əhalisinin əksəriyyətinin heyvandarlıqla məşğul olduğunu söyləyən kənd sakini isti aylarda Qaragölün ətrafında dağda alaçıqlarda qalıblar. Uşaqlığının Qaragöldə keçdiyini söyləyən Elçin bu gölün çox yüksəklik ərazidə yerləşdiyini söyləyir: "Biz yay tətilində valideynlərimizlə birgə Qaragölün sahilində qurduğumuz alaçıqda qalardıq. Qaragölün havası o qədər gözəl idi ki, onu sözlə ifadə etmək mümkün deyil. Günəş üç ay bizi orada necə yandırırdısa geri qayıdanda məktəbdə uşaqları tanımaq olmurdu. Orada dərimizin yanmaması üçün anamız bizim kürəyimizə yağ vururdu.Qaragölün özünəməxsusluğu vardı. Laçından, digər rayonlardan gələnlər Qaragölün sahilində çadır qurub qalırdı. Yadımdadır ki, biz o qonaqlara süd-qatıqdan, qaymaqdan pay aparardıq".

Danışdıqca kövrələn, Qaragöllü günlərini gözünün önündə canlandıran Elçin günəşli havada Qaragöldə qəribə mənzərə yarandığını söyləyir: " Günəşli gündə Qaragölə baxanda göldə dağların əksi görünürdü. Adamı valeh edən bir mənzərə yaranırdı".

E. Bəbirov deyir ki, Qaragöl zəngin, gözəl təbiəti, müalicəvi bitkiləri ilə zəngindir: "Qaragölün suyu göz yaşı kimi duru idi. Biz o suda çimirdik. Suyu təmiz olduğundan ağzımıza dolsa da onu içirdik. Gölün suyu o qədər təmiz idi ki, dibində üzən balıqları belə görmək mümkün idi".

Qaragölün ermənilərin əlinə necə keçdiyinə gəlincə E. Bəbirov bu tarixin sovet dövrünə dayandığını söyləyir: " Ermənilər dəfələrlə bizim kəndimizi yandırıblar. Onlar Qaragölü ələ keçirmək üçün min hiyləyə əl atıblar. Qaragöldə tərəkəmə əhalisinin köçünün izləri vardı. Orda ermənilər yol çəkmək adı ilə bir müsəlman qəbristanlığını tamamilə dağıtdılar. Ermənilər bu vandallığı Qaranlıq dərədən Ayı dərə istiqamətinə yol çəkərkən həyata keçridilər. O yolun üzərindəki qədim qəbristanlığı traktorla düzlədilər". Həmsöhbətimiz onu da deyir ki, Qaragöldən ermənilər balıq saxlamaq adı ilə istifadə ediblər. 1987-ci ildə Qaragöl qoruq elan edilib. Bununla bağlı Azərbaycan SSR qərar verib. Beləcə göldən müştərək istifadəyə başlanılıb: "Ermənilər Qaragöldə balıqçılıq təsərrüfatı yaratdılar. Bundan sonra onlar bizi gölün kənarına buraxmırdılar. Gölə balıq tutmağa gedən kimi gəlib-gəlmədiyimizi soruşurdular. O vaxt hamı Sovetlər Birliyində yaşadığı üçün buna əhəmiyyət vermirdi. Ermənistan beləcə Qaragöldə balıqçılıq təsərrüfatı yaratmaqla o gölü bizim əlimizdən çıxartmağa başladı. Qaragölün yanında bir göl də var. Biz o gölə Cilli göl deyirdik. Orada böyük otlaq sahəsi vardı. O otlağın ortasında bataqlıq kimi bir yer vardı. 1987-ci ilə kimi ikinci göl yox idi. Ermənilər Qaragölün qarşısına bənd çəkərək bizim də otlaq sahəmizi gölə çevirdilər. İkinci göl süni yaradılan göldür. Bizim ərazimizə düşən otlaq sahəsi beləcə suyun altında qaldı. Daha sonra ermənilər o gölün ətrafına dəmir tor çəkdilər. Bu yolla o ərazini özününküləşdirməyə nail oldular. Halbuki Qaragölün Ermənistana düşən hissəsi də Azərbaycanın tarixi torpaqları olub".

E. Bəbirov deyir ki, Ermənistan Qaragöl ətrafında əraziləri zəbt etmək hiyləsini müxtəlif yollarla həyata keçirib. Onun sözlərinə görə, onlar Azərbaycanın kəndlərinə məxsus əkin sahələrini 1980-cı illərdə müxtəlif saxta sənədlərlə ələ keçirməyi bacarıblar. Bu zaman onlar yerli əhalinin dəfələrlə müqaviməti ilə üzləşiblər.

Həmsöhbətimizin deyir ki, 20-ci əsrin əvvəlində ermənilər Qaragölün cənub bölgəsinə düşən Xəzinəvar, Xanəzək, Bayandur kəndlərini işğal etməklə gölün cənub hissəsini Azərbaycanın əlindən çıxartmağa nail olublar. O üç kənddən olan insanlar isə həmin dövrdə Laçınla sərhəd kəndlərə yerləşiblər: "Qaragöl bizim yaşayış məskənimiz olub".

Qaragöl haqqında danışanda gözünün önündə uşaqlığının canlandığını söyləyən Elçin həmin göldə əsgərlərimizi görəndə qürur hissi keçirdiyini söyləyir. Deyir ki, uşaq vaxtı Qaragöldə təpəyə çıxıb Qarabağdakı kəndləri sayırmışlar. Onun sözlərinə görə, Qaragöldə olmaq, ulduzların yanında olmağa bərabərdir.

İndi ən böyük arzusunun Laçına qayıdaraq Hacılara, Qaragölə getmək olduğunu söyləyən Elçin, işğalla əlindən alınan uşaqlıq xatirələrinə ancaq doğma yurdu Hacılarda, Qaragöldə qovuşa biləcəyini söyləyir...

Həmsöhbətimiz deyir ki, Laçın minalardan təmizləndikdən sonra bu diyara turistlər dəvət olunmalı, Azərbaycan tarixinin qədim izləri üzə çıxardılaraq dünyaya nümayiş etdirilməlidir. E. Bəbirovun sözlərinə görə, Laçında ermənilərin Azərbaycana və azərbaycanlılara məxsus tarixi silməsi dünya dövlətlərinin, beynəlxalq təşkilatların diqqətinə çatdırılmalı, Qarabağ həqiqətləri olaraq beynəlxalq ictimaiyyətdən bu vandallığı törədənlərdən hesab tələb edilməsi təmin olunmalıdır.

***Mələk Eyvazlı***

**Səhifə Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**

# "Məni yataq otağına saldı, qollarımı şərflə çarpayıya bağladı..." – Şok təfərrüat



***Yevlax şəhərində 1983-cü il təvəllüdlü Natiq qısqanclıq zəminində həyat yoldaşı Jaləyə işgəncə verib.***

Teleqraf.com-un xəbərinə görə, o, yaşadığı Yevlaxın Kür küçəsindəki evində arvadı Jalənin mobil telefonla başqa şəxslə ünsiyyət qurmasını bilib və qısqanclıq zəminində onunla mübahisə edib. Sonra cəzalandırmaq məqsədilə Jaləni yataq otağındakı çarpayıya şərflə bağlayıb. Onun bədəninin müxtəlif nahiyələrinə çoxsaylı şillə-təpik zərbələri vurub, əlindəki alışqanla bədəninin müxtəlif nahiyələrini yandırıb. Qadının saçlarını zorakı hərəkətlərlə səliqəsiz formada kəsib, güclü fiziki ağrı və ya psixi iztirablarla ona əzab verib.

### "Jalənin bir neçə nömrəsi vardı"

İstintaq orqanı Natiqin barəsində Cinayət Məcəlləsinin 133.2.6-cı (işgəncə ilə əzab vermə) maddəsi ilə ittiham elan edib. Cinayət işi üzrə təqsirləndirilən şəxs qismində ifadə verən Natiq elan olunmuş ittiham üzrə özünü təqsirli bilib. O, ifadəsində göstərib ki, 2007-ci ildə Ağdaş şəhərində yaşamış Jalə ilə rəsmi nikahla ailə qurub: "Birgə nikahdan üç uşağımız var. Əvvəllər münasibətimiz yaxşı idi, aramızda dava-dalaş olmurdu. Bəzi vaxtlarda Jalə ilə sözlü mübahisəmiz düşürdü. Ailə qurduğumuz zamandan Jalə mobil telefondan istifadə edirdi, bir neçə telefon nömrəsi vardı".

Təqsirləndirilən şəxsin ifadəsinə görə, 2020-ci ilin martında Jalənin mobil telefonda başqa şəxslərlə danışdığını müəyyən edib: "Ona iradımı bildirdim və mobil telefonunu əlindən aldım, nömrəsini isə sındırdım. 2020-ci ilin aprelində Jaləyə "Smartfon" tipli mobil telefon və nömrə aldım. Sentyabr, oktyabr və noyabr aylarında Jalə həmin mobil telefondan və mobil telefon nömrəsindən istifadə etdi".

### "Dedim, gəl birlikdə döşəyin altına baxaq, görək nə var..."

Natiqin ifadəsinə görə, arvadından şübhələrinə əsas tapıb: "İşdən çıxaraq evə gəldim. Oğlanlarım Nihad və İsmayıl da evdə idilər. Saat 18 radələrində yataq otağına daxil oldum. Jalənin çantasından hansısa əşya çıxararaq döşəyin altında gizlətdiyini gördüm. Saat 22 radələrində Jaləyə "sən məndən nə isə gizlədirsən" dedim. Jalə mənə "heç nə gizlətmirəm" deyə cavab verdi. Ondan döşəyin altında gizlətdiyi əşya barədə soruşdum. Heç bir əşya gizlətmədiyini dedi.

Dedim, gəl birlikdə döşəyin altına baxaq, görək nə var. Jalə "lazım deyil" dedi. Döşəyi qaldırdım, kiçik ölçüdə bəzəkli sellofan torba gördüm. Torbaya baxanda, içərisində bir mobil telefon nömrəsi və yeddi mobil telefon nömrəsi yazılmış kağız parçası tapdım.

Jalədən gördüklərim barədə soruşdum. O bu nömrədən istifadə etmədiyini, kağız parçasına yazılmış nömrələrin isə kimə məxsus olduğunu bilmədiyini dedi".

### "Nömrələrə zəng vurdum"

Natiqin sözlərinə görə, Jalə mobil telefon nömrəsini təxminən bir il əvvəl aldığını etiraf edib: "Kağız parçasına qeyd edilmiş mobil telefon nömrələrinə bir-bir zəng etdim. İki nəfər zəngimə cavab verdi. Onlardan biri hərbçi olduğunu, telefonundan hər bir hərbiçinin istifadə etdiyini, arvadımla heç vaxt danışmadığını, başqalarının danışıb-danışmadığını isə bilmədiyini dedi.

Digər şəxs də Bakı şəhərində yaşadığını, ailəli olduğunu, arvadımla danışmadığını söylədi. Jalədən yenidən həmin şəxslər barədə soruşdum. O da həmin şəxsləri tanımadığını və heç kimlə danışmadığını bildirdi. Əlimlə Jalənin üz və baş nahiyələrindən bir neçə dəfə vurdum, düzgün danışmasını tələb etdim. Jalə mənə onu vurmamağı istədi, baş verənləri düzgün danışacağına söz verdi".

### "Qollarını çarpayıya bağladım"

Natiq qeyd edib ki, Jalə əvvəl dediklərini təkrar edib və baş verənlərin hamısını danışmayıb: "Onun qollarını boyun şərfi ilə, ayaqlarını isə tozsoranın naqili ilə çarpayıya bağladım. Əlimlə bədəninin müxtəlif nahiyələrinə vurdum və həqiqəti söyləməsini tələb etdim.

Alışqanla qarın, qol, ayaq və digər nahiyələrini bir neçə yerdən yandırdım. Oğlanlarım digər otaqda olublar, Jaləni döydüyümü, yandırdığımı görməyiblər".

### "Kiminlə danışdığını mənə demədi"

Təqsirləndirilən şəxs bildirib ki, ertəsi gün, səhər saatlarında Jaləyə işə getməyə icazə verməyib: "Özüm işə getdim, saat 16 radələrində evə qayıtdım. Jalədən mənimlə birlikdə əyləşməsini, telefon söhbəti barədə həqiqəti bildirməsini istədim. Həmin vaxt qonşumuz Raisə evə gəldi. Buna görə söhbətimiz kəsildi.

Raisə Jalə ilə birlikdə tort bişirdi. Bir neçə saat sonra Raisə yaşadığı evə getdi. Saat 21 radələrində Jaləni yataq otağına apardım.

Həmin vaxt Raisə bizə gəldi, mənimlə söhbət etmək istədiyini, Jalə ilə aramızda baş verənlərdən xəbərdar olduğunu dedi. O, Jaləni döyməməyimi, onun əvvəllər hansısa bir şəxslə danışdığını, sonralar isə heç kimlə əlaqə saxlamadığını söylədi, Jaləni bağışlamağımı istədi. Raisədən ailə işimə qarışmamağı tələb etdim.

Raisə bizdən getdikdən sonra Jaləni yataq otağına çağırdım, həqiqəti söyləməli olduğunu bildirdim. O, yenə kiminlə danışdığını mənə demədi".

### "Saçını kəsməyi qərara aldım"

Natiq bildirib ki, əli ilə Jalənin üzünə bir neçə şillə vurub: "Jalə yenə həqiqəti demədi. Jalənin saçından tutdum və möhkəm dartdım. Sonra saçını kəsməyi qərara aldım. Qayçı ilə əvvəl saçın qabaq tərəfini kəsdim, sonra dibindən kəsməyə çalışdım. Jalə əlləri ilə başını qorudu, saçını qayçı ilə kəsməyimə imkan vermədi. Onun başının qanadığını gördüm.

Bundan sonra qayçını kənara qoydum və Jaləyə ilkin tibbi yardım göstərdim. Başına yod vurdum, dəsmalı soyuq su ilə isladaraq yarasına qoydum. Həmin vaxt Raisə evə gəldi və Jalənin xəsarət aldığını gördü. Raisyə getməyi məsləhət gördüm, təcili tibbi yardıma zəng edəcəyimi dedim. Onu evdən çıxardım. Raisə qonşulara məlumat verdiyi üçün bir neçə dəqiqə sonra Raisənin əri Elnur, digər qonşumuz Rövşən və Rövşənin arvadı Həqiqət yaşadığım evə gəldilər. Amma onları evə buraxmadım. Həmin şəxslər arvadımla dalaşmamağı xahiş etdilər. Onlara daha Jalə ilə dalaşmayacağımı dedim. Jalə evdə qaldı".

Natiq deyib ki, ertəsi gün saat 11 radələrində işdə olarkən Jalənin xalası Könül zəng edərək onu evə çağırıb: "Evə gedərək Könülün, Sevincin, Leylanın və Rövşənin gəldiyini gördüm. Onlar məndən nə səbəbə Jaləni döydüyümü soruşdular.

Jalənin mobil telefonla başqa şəxslərlə danışdığını müəyyən etdiyimi dedim. Həmin gün Jalə barəmdə Yevlax rayon polis şöbəsinə şikayət etdi".

### "Gözümü yandıracağını dedi"

Cinayət işi üzrə zərərçəkmiş şəxs qismində ifadə verən Jalə bildirib ki, 2020-ci ildə saat 17 radələrində işdən çıxaraq evə gəlib: "Natiq döşəyin altında hansı əşyanı gizlətdiyimi soruşdu və döşəyi yuxarı qaldırdı. Telefon nömrəsini və kağız parçasını tapdı, bu barədə məndən soruşdu.

Natiqə nömrə və kağız parçasının mənə məxsus olmadığını, həmin əşyaları taparaq əldə etdiyimi dedim. Natiq kağız parçasında yazılmış mobil telefon nömrələrinə bir-bir zəng etdi.

Saat 20 radələrində mənimlə mübahisə elədi, kağız parçasına yazılmış nömrələr barədə, eləcə də kiminlə danışmağım haqda soruşdu. Ona heç kimlə danışmadığımı bildirdim. Mənə inanmadı, təkrar-təkrar soruşdu.

Hamam xalatının ipi ilə qollarımın bilək nahiyəsini bir-birinə bağladı.Sifətimə 6-7 şillə vurdu. Aşağı əyildim, Natiq ayağı ilə üzümdən iki təpik zərbəsi vurdu. Əli ilə başımı tutaraq dizi ilə təxminən 5-6 zərbə endirdi. İplə əllərimi, tozsoranın naqili və xalatının ipi ilə isə ayaqlarımı çarpayıya bağladı. Alışqanla gözlərimi yandıracağını, heç kimi görə bilməyəcəyimi dedi".

### "Uşaqlar qonşu otaqda ağlaşdılar"

Jalənin ifadəsinə görə, Natiq şərflə onun gözlərini və ağzını bağlayıb: "Əlindəki alışqanla qollarımı, ayaqlarımı, qarnımı, böyrümü və üzümü bir neçə dəfə, bir neçə yerdən yandırdı. Gözümü yandıran zaman qollarımı ipdən çıxartdım və Natiqə mane oldum. Buna görə gözlərimi yandıra bilmədi. Lakin sağ qaşım yandı. Ağrıdan qışqırdım. Qonşu otaqda uşaqlar Natiqin məni döydüyünü bildilər, ağlaşdılar.

Uşaqlarının yataq otağına daxil olmasının qarşısını almaq üçün Natiq otağın giriş qapısını bağladı. Həmin vaxt qonşumuz Raisə adlı qadın yaşadığım evə gəldi. Uşaqlarım ağladığı üçün Natiq ayaqlarımı açdı.

Bədənimin müxtəlif nahiyələrindən yanıq, başımdan, üzümdən, qollarımdan, ayaqlarımdan qızarmış, şişmiş xəsarətlər almışdım".

### "Başımın qanadığını görəndə qorxdu"

Jalənin ifadəsinə görə, ertəsi gün səhər saatlarında xəsarət aldığı üçün işə getməyib: "Natiq isə işə getdi, saat 18 radələrində evə qayıtdı. Mənə danışdığım şəxsin adını kağıza yazaraq ona verməyimi istədi. Yenə də heç kimlə danışmadığımı dedim.

Saat 20 radələrində Raisə yaşadığım evə bəzəmək üçün tort gətirdi. Tortu bəzədim, Natiq də bizə kömək etdi. Bundan sonra Natiq Raisəyə dedi ki, evdən getsin.

Mən Raisəyə Natiqin məni döyəcəyini bildirdim. Buna görə o, evdən getmək istəmədi, Natiq Raisəni məcburi evdən çıxardı.

Saat 22 radələrində Natiq məni yataq otağına saldı, zaldakı televizorun səsini yüksəltdi və uşaqlara zalda oturmağı tapşırdı. Sonra yataq otağının giriş qapısını bağladı. Məni çarpayının üstünə uzadaraq əlləri ilə üzümdən, qollarımdan və ayaqlarımdan dəfələrlə şillə, yumruq zərbələri vurdu. Ona yalvardım, amma mənə məhəl qoymadı, döyməyə davam etdi.

Bundan sonra Natiq kəlbətin, bıçaq və qayçı gətirdi. Qorxdum, Natiqin bıçaq və qayçı ilə mənə xəsarət yetirəcəyini bildim. Ağlayaraq yalvardım, döyməməyini xahiş etdim. Sözlərimə məhəl qoymadı, qayçı ilə saçımı kəsəcəyini dedi.

Natiq saçımın ön və orta hissəsini iki yerdən kəsdi. Qayçı başımın ortasına dəydi və başım kəsildi. Qışqıraraq kömək istədim.

Həmin vaxt qonşumuz Raisə yaşadığım evə gəldi, başımdan qan axdığını, saçımın kəsildiyini gördüm. Natiq Raisəni evdən çıxardı, başımdan qan axdığından qorxdu, yarama yod və "zelyonka" vurdu".

Jalənin sözlərinə görə, dayısının arvadı Sevincə zəng edib və Natiqin onu döyməsi barədə məlumat verib: "Anam, xalam, bacım və bacımın əri evə gəldilər. Qohumlarım xəsarət aldığımı və saçımın kəsildiyini gördülər. Mobil telefonla 102-yə zəng edərək Natiqin məni döyməsi barədə məlumat verdilər".

Bu cinayət işinə Yevlax rayon Məhkəməsində hakim Ruslan Əlizadənin sədrliyi ilə baxılıb. Natiqin barəsində Cinayət Məcəlləsinin 70-ci (şərti məhkum etmə) maddəsi tətbiq edilib. Ona 2 il sınaq müddəti olmaqla 3 il şərti cəza təyin olunub.

# Azərbaycanda ən çox məhkəməyə verilən sığorta şirkətləri hansılardır? - SİYAHI

***Bu ilin əvvəlindən indiyə qədər Azərbaycanda ən çox məhkəməyə verilən sığorta şirkəti Dövlət Sığorta Kommersiya Şirkəti ("Azərsığorta") olub.***



2021-ci ildə bu şirkətə qarşı 167 məhkəmə iddiası qaldırılıb. Bu, digər sığorta şirkətlərinə qarşı qaldırılan bütün məhkəmə iddialarının sayından təxminən 70% çoxdur. "Azərsığorta"nın fəaliyyətinin demək olar ki, bütün şəhər və rayonları əhatə etdiyini nəzərə alsaq, onun siyahıya liderlik etməsi təbii sayıla bilər.
Məhkəmə iddialarının sayına görə, 2-ci yerdə "Azsığorta" ASC, 3-cü yerdə isə "Atəşgah Sığorta" ASC qərarlaşıb.
Ən az məhkəməyə verilən sığorta şirkətləri isə "Bakı Sığorta", "İpək Yolu Sığorta" və "Xalq Sığorta" ASC-lər olub. Onların hərəsi cəmi 1 məhkəmə iddiası ilə üzləşib.
6 sığorta şirkəti isə ümumiyyətlə məhkəməyə verilməyib. Bunlar bazara yeni daxil olmuş "Meqa Həyat Sığorta" ASC, "Aqrar Sığorta Müştərək Sığorta Şirkəti", eləcə də "Azərbaycan Sənaye Sığorta", "Meqa Sığorta", "Naxçıvan Sığorta" və "PAŞA Həyat Sığorta" ASC-lərdir.
Azərbaycanda sığorta şirkətləri əsasən ödənişi gecikdirmələri və yaxud ümumiyyətlə verməmələri iddiaları ilə məhkəməyə verilir.

# Xarici universitetləri seçərkən hansı məqamlara diqqət yetirmək vacibdir?- Cavab

***Xarici ali təhsil müəssisələrində təhsil alanlar ixtisaslarının Azərbaycan Respublikası ərazisində tanınması və ekvivalentliyinin müəyyən edilməsi (nostrifikasiyası) üçün Təhsil Nazirliyinin Akkreditasiya və Nostrifikasiya İdarəsinə müraciət edilməlidir.***

Bəs xaricdə təhsil almaq üçün ali təhsil müəssisəsini və təhsil proqramını(ixtisası) seçərkən hansı əsas məqamlara diqqət yetirmək vacibdir?
Xaricdə təhsil almaq üçün ali təhsil müəssisəsini və təhsil proqramını (ixtisası) seçərkən aşağıdakı əsas məqamlara diqqət yetirilməsi tövsiyə olunur:
Ali təhsil müəssisəsinin (eləcə də, onun digər ölkələrdə fəaliyyət göstərən fililallarının) tədris proqramının (ixtisasın) akkreditasiyanın olması;
Bu məqsədlə ENİC-NARIC (Avropa İnformasiya Mərkəzləri-Milli Akademik Tanınma üzrə İnformasiya Mərkəzləri) Şəbəkəsinin rəsmi internet səhifəsinin müvafiq ölkə üzrə nəzərdə tutulmuş bölməsinə daxil olmaqla(yaxud yerli akkreditasiya orqanlarına müraciət etməklə), həmin ölkə tərəfindən tanınan və akreditə olunan ali təhsil müəssisələrinin siyahını əldə etmək mümkündür.
Təhsilalma formasının Azərbaycan Respublikasının qanunverciliyinin tələblərinə uyğun olması;
Müvafiq qanunvericiliyə əsasən, distant,eksternat, fərdi qrafik, sərbəst, əyani-qiyabi və ya qiyabi-əyani təhsilalma formaları üzrə xaricdə ali təhsil almış şəxslərin aldıqları ixtisasların ölkə ərazisində tanınması və ekvivalentliyinin müəyyən edilməsi (nostrifikasiyası) mümkün deyil.
Təhsilin keyfiyyəti;
Təhsil almaq istədiyiniz ali məktəbi seçərkən, onun beynəlxalq reytinq cədvəllərindəki ümumi və konkret ixtisaslar üzrə yerinin araşdırılması tövsiyə olunur.



Qeyd edək ki, Azərbaycan Respublikası Təhsil Nazirliyi xaricdə təhsil sahəsində, o cümlədən nostrifikasiya prosedurları ilə bağlı heç bir şirkətlə əməkdaşlıq etmir və bu şirkətlərin fəaliyyətlərinə görə heç bir məsuliyyət daşımır. İddiaçılara hər hansı şirkət və ya şəxslər tərəfindən verilən vəd nostrifikasiya müddətində heç bir rol oynamır və belə hallarla rastlaşdığınız təqdirdə Təhsil Nazirliyinin "Qaynar xətt" xidmətinə (146) məlumat verə bilərsiniz.

# Sahibkarların və vətəndaşların banklardakı problemləri müzakirə olundu

***"Sahibkarların və vətəndaşların bank xidmətləri ilə əlaqədar mövcud problemləri" mövzusunda ictimai müzakirə keçirilib.***



İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondunun nümayəndələri "Sahibkarların və vətəndaşların bank xidmətləri ilə əlaqədar mövcud problemləri" mövzusunda onlayn ictimai görüşdə iştirak ediblər. Azərbaycan Milli QHT Forumu İctimai Nəzarət Mərkəzi tərəfindən təşkil edilmiş, sahibkar, dövlət qurumu, vətəndaş cəmiyyəti institutları, bank və kredit təşkilatlarının 100-dən çox nümayəndəsinin iştirak etdiyi görüşdə Fondun İdarə Heyəti sədrinin müavini Arif Vəliməmmədov çıxış edib.
İctimai müzakirə zamanı pandemiya dövründə və Vətən müharibəsi nəticəsində yaranmış şəraitdə vətəndaşlara və sahibkarlara göstərilən dövlət dəstəyi, həmçinin banklar tərəfindən həyata keçirilən adekvat tədbirlər barədə geniş məlumat verilib. Görüşdə sahibkarların maliyyə resurslarına çıxışında qarşılaşdığı məsələlər və onların həlli yolları ilə bağlı təkliflər səsləndirilib, banklar tərəfindən göstərilən xidmətlərin təkmilləşdirilməsində vətəndaşlar və sahibkarlarla qarşılıqlı dialoqun önəmi qeyd olunub, bu cür tədbirlərin mütəmadi olaraq təşkil olunacağı bildirilib.

# Bu dövlət qurumu enerji içkiləri ilə bağlı ARAŞDIRMALARA BAŞLADI

***İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti enerji içkiləri bazarında araşdırmalara başlayıb. Məqsəd istehlakçıları çaşdırmaqla haqsız rəqabətə yol verilməsi hallarının qarşısının alınmasıdır.***



Fins.az xəbər verir ki, araşdırmalar Qida Təhlükəsizliyi Agentliyinin müraciəti, laborator müayinələrin nəticələri əsasında aparılır.
Qeyd edək ki, "Enerji içkilərinə dair müvəqqəti sanitariya normaları və qaydaları"na əsasən, alkoqolsuz içkilərin tərkibində insan orqanizminin mərkəzi sinir sistemini stimullaşdırmaq xüsusiyyətinə və antisedativ təsirə malik olan kofein, taurin, qlükoronolakton, amin turşuları, B qrupu vitaminlər və s. kimi maddələrdən və ya bitki ekstraktlarından ən azı ikisi mövcud olduğu təqdirdə yaxud həmin maddələrdən yalnız kofein olduqda və miqdarı 15 mq/100 ml-dan artıq olarsa, həmin alkoqolsuz içkilər enerji içkisi hesab edilir.

# Bu gün Gəmiçiliyin yaradılmasından 163 il ötür

***Bu gün Azərbaycan Gəmiçiliyinin yaradılmasından 163 il ötür.***

"Unikal" xəbər verir ki, Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi uzun illər əvvəl yaradılmış və böyük sınaqlardan keçərək fəaliyyət göstərən dünyanın ən qədim şirkətlərindən biridir. Bu, "businessfinancing.co.uk" saytında yer alan xəritədə də əksini tapıb. Xəritəyə əsasən, üç əsrə şahidlik edən Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi öz tarixinə görə Cənubi Qafqazın ən qədim şirkətidir.
Qeyd edək ki, Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin əsası 1858-ci il mayın 21-də "Qafqaz və Merkuri" Səhmdar Cəmiyyətinin yaradılması ilə qoyulub. XIX və XX əsrlərdə Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi Xəzəryanı ölkələrə müxtəlif təyinatlı yüklər daşıyan ən böyük gəmiçilik şirkəti kimi fəaliyyət göstərib. Bununla belə, Gəmiçiliyin fəaliyyəti təkcə Xəzərlə məhdudlaşmayıb. Hazırda da Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinə məxsus gəmilər Xəzərdə və Xəzərdənkənar hövzələrdə fəaliyyət göstərir.
Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 22 oktyabr tarixli Sərəncamı ilə Azərbaycanda mövcud olan iki böyük donanmanın - Azərbaycan Dövlət Xəzər Dəniz Gəmiçiliyi və Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Xəzər Dəniz Neft Donanmasının birləşdirilərək yenidən təşkil olunması yolu ilə "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC yaradılıb. Bu gün "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC dəniz nəqliyyatı sahəsində fəaliyyət göstərən donanmaları vahid bir orqanizmdə birləşdirərək qarşıya qoyulan vəzifələri yüksək səviyyədə və operativ yerinə yetirmək əzmindədir.

# "Moody's" Azərbaycanın maliyyə dayanıqlığı reytinqini yüksəldib

***"Moody's Investors Service" ("Moody's") şirkəti Azərbaycanın maliyyə dayanıqlığı reytinqini "a2" səviyyəsindən "a1" səviyyəsinə yüksəldib.***

Fins.az xəbər verir ki, agentliyin yaydığı məlumata görə, ölkənin maliyyə dayanıqlığı reytinqinin hazırkı səviyyədə olması, Azərbaycanın güclü xalis kreditor mövqeyi və xarici valyutada olan borcun yüksək payına baxmayaraq, ölkənin suveren fondlarının həcminin bütün birbaşa dövlət borclarını və zəmanətlərini əhatə etməsi faktı ilə dəstəklənir.
Xatırladaq ki, aprelin 6-da "Moody's" Azərbaycanın emitentin və üstün hüquqa malik təmin edilməmiş borc üzrə uzunmüddətli reytinqlərini "Ba2" səviyyəsində təsdiqləyib, reytinq üzrə proqnoz isə "stabil"dən "müsbət"ə yüksəldilib.
Qeyd edək ki, "Moody's" son 10 ildə ilk dəfədir Azərbaycanın reytinqi üzrə proqnozunu "müsbət" səviyyədə təsdiqləyib.

# İqtisadi fəal əhalinin sayı açıqlanıb

***Mayın 1-nə olan ilkin məlumatlara əsasən, iqtisadi fəal əhalinin sayı 5 milyon 264,2 min nəfər olub.***

Dövlət Statistika Komitəsindən "Unikal"a bildirilib ki, onlardan 4 milyon 898,7 min nəfərini məşğul əhali təşkil edib.




# Astaranın gənc döyüşçüləri...

***44 günlük Vətən Müharibəsi nəticəsində neçə-neçə qəhrəman oğullarımızı tanıdıq. Onlardan ikisini, Vətən Müharibəsi iştirakçılarını Qədəmullazadə Fərid Habil oğlu və Qədəmullazadə Fərid Habil oğlunu təqdim edirik.***

Qədəmullazadə Fərid Habil oğlu 30.08.1995-ci ildə anadan olub.O , 2001-2012 -ci illərdə Astara rayon Artupa kənd tam orta məktəbində təhsil alıb. 2012-2016-cı illərdə təhsilini Azərbaycan texniki Universitetində davam etdirib.Daha sonra həqiqi hərbi xidmətini yerinə yetirmişdir. 2020-ci ildən Astara Rayon İcra Hakimiyyəti aparatının baş mütəxəssisi vəzifəsində çalışmışdır. Fərid sentyabrda qismən səfərbərlik elan edildikdən sonra könüllü olaraq cəbhəyə yollanır.Füzuli istiqamətindən döyüşlərə qatılır.Əvvəlcə sürücü kimi fəaliyyət göstərir.Sonradan top atıcısı təyin edilir. Komanda müşahidə postuna aparılır.Orada təminata yardım edir.

Teminat meqsedli destek ucun Cebrayila dogru gonderilir. Fuzuli ugrunda geden doyuslerde yaralanaraq Füzuliyə - Əhmədbəylidə hospitala çatdırılıb.Ayağından ağır qəlpə yaraları ve basindan agir travma alıb. Qəlpələrin bir qismini çıxarıblar.Beş dəfə əməlliyyat edilib.Sinirlə sümük arasında olan kiçik qəlpələri çıxarmaq mümkün olmayıb.Elə qəlpələri çıxarmaq təhlükəli olduğu üçün bu qəlpələri ömür boyu Fərid bədənində daçıyacaq.Üç ay xəstəxanada -nevrologiya və reablitasiya şöbəsində müalicə alan Fəridin ayağının funksiyası nisbətən bərpa olub. Cəbrayılın və Qubadlının azad olunmasına görə Azərbaycan Respublikası medalı ilə təltif olunmuşdur. Hal-hazirda mualicesini davam etdirir.

Digər Qəhrəman döyüşçümüz isə Qafarov Ilkin Polad oğlu 02.09.1993 tarixində Astara rayonunda anadan olub. 2010 cu ildə Artupa kənd tam orta məktəbini bitirib elə həmin ildədə Sumqayıt Dövlət Universitetinə qəbul olmuşdur 2014 cü ildə Sumqayıt Dövlət Universitetinin məzunu olmuşdur. 2014-2015 ci illərdə hərbi xirmətdə olmuşdur. Vətən müharibəsində könüllü iştirak etmişdim,8 oktyabr Xocavənd uğrunda gedən döyüşlərdə yaralanmışdır. Agcabədi hosbitalına aparılmış daha sonra Şəmkir xəstəxanasından evə buraxılmışdır. Cəsur döyüşçü medalı ilə təltif olunmuşdur.

***H.İsgəndərov***

# "O yaşda insan dədəsini tanımır, Tacir deyir "Bayatı-Şiraz"ı mən yaratmışam" - Murad Rzayev

***"Tacir Şahmalıoğlu deyir ki, "Bayatı-Şiraz"ı mən yaratmışam. O yaşda insan dədəsini, nənəsini tanımır, "Bayatı-Şiraz"ı necə yarada bilərsən? Oxumusan, çox sağ ol! Sənin kimi oxuyan olmaz, bunu mən sənə deyirəm! Bunu belə açıqlama səbəbi də var! O zaman insult keçirdim, xəstəxanada yatdım. Elə bilirdilər ki, öləcəyəm. Bu da düşündü ki, Murad müəllim daha həyatda olmayacaq, gedir... Ona görə televiziyaya elə müsahibə verdi".***

Bunu "Bayatı-Şiraz" muğamının improvizə müəllifi Murad Rzayev bildirib. "Qarabağ bülbülləri" ansamblının bədii rəhbəri olan M. Rzayev "Bayatı-Şiraz" muğamının improvizəsindən danışıb, ilk ifaçısı Tacir Şahmalıoğluna təqdimat tarixçəsindən söhbət açıb:

"O zamanlar Ağdamdan Bakıya konsertlər vermək üçün gəlirdik. "Bayatı-Şiraz"ı oxumalı idik. Fikirləşdim ki, hər zaman eyni şey alınmasın, əlavələr etmək lazımdır. Muğam üzərində qurulan həmin improvizə hind musiqisinə bir az yaxındır. Çox insan deyə bilər ki, Azərbaycanın bir çox muğamı var, niyə hind musiqisi? Burada hind mahnısı dedikdə, yalnız improvizədən söhbət gedir. Yəni texnikasından! Əvvəl onu başqa birinə təqdim etdim ki, oxusun. "Qarabağ Bülbülləri" ansamblının üzvü idi. Oxuyandır, indi adını çəkmək istəmirəm. Sonra zümzümə etdi, gördüm ki, alınmır. Bir neçə dəfə təkrar etdik. Fikirləşdim ki, ifa etməyə çətinlik çəkir. Həm də, məni başa düşmədi, qəlbimə dəydi. Tacir isə kənarda oturmuşdu. O mənə dedi ki, icazənizlə oxumaq istəyirəm. İfa etdi, gördüm ki, mənim fikirlərimə uyğun gəlir. Bundan sonra ona təklif elədim ki, bəlkə sən oxuyasan? Tacir bir neçə məşqdən sonra Heydər Əliyev Sarayındakı konsertdə oxudu. İli dəqiq deyə bilmərəm, təxminən 1976-77-ci illərdən danışıram. Uzun müddət keçib. Konsertdən sonra yenə məşq etdik. Gördüm ki, əməlli başlı alınır. Bununla da həmin mahnını ifa etməyə başladı. Həmin vaxt Tacir balaca uşaq idi, hardasa 7-8 yaşı var idi. O vaxtlar məktəbləri gəzib istedadlı uşaqlar axtarırdım. Əvvəl arzum olub ki, uşaqlardan ibarət ansambl yaradım. İmkan olmadı... Daha sonra Pioner və Məktəblər Evinə müdir təyin edildim. Adını da dəyişib Yaradıcılar Mərkəzi qoyduq. Yavaş-yavaş istedadlı uşaqları seçdim. 8 nömrəli məktəbdə də Taciri gördüm. Hələ bundan qabaq "Qarabağ Bülbülləri" ansamblıma gəlmişdi. Xəlil Rza Ulutürk hər zaman Ağdama gəlirdi. Mənə dedi ki, sən elə kiçik bir muğam improvizasiyandan böyük iş ortaya çıxarmısan! Ən yaddaqalandır. Respublikada nə tədbir keçirilsə, Tacirin ifasında "Bayatı- Şiraz" orada səslənir. İndi Əməkdar artist Elnur Zeynalov mükəmməl oxuyub. Ürəyimdən keçən inciləri səsləndirib. Tacir də gözəl oxuyub, amma Elnur dəqiqliyi ilə ifa edib. Bu, Qarabağın dərdi ilə bağlı bir əsər idi".

Murad Rzayev 50 illik fəaliyyətinin Mədəniyyət Nazirliyi tərəfindən qiymətləndirilmədiyini düşünür. O, tələbələrinin müxtəlif fəxri adlara layiq görüldüyünü, özünün isə bu prosesdən kənarda qaldığını bildirib:

"Rəhmətlik Heydər Əliyev cənabları mənim hörmətimi saxlayırdı. Dövlət konsertlərindən sonra deyirdi ki, o qarabağlını bura çağırın. Müslüm Maqomayev, Rəşid Behbudov, Zeynəb Xanlarovaya deyirdi kənara çəkilin, məni yanında otuzdururdu. Allah rəhmət eləsin, sənətə böyük qiymət verən insan idi. Heyf ki, bu improvizəni Heydər Əliyev eşitmədi. Eşitsəydi, Mədəniyyət Nazirliyi indi maraqlanardı ki, "Qarabağ bülbülləri" göydən gəlməyib ki? Niyə Xəlil Rza Ulutürk kimi bir insan mənə deyir ki, Azərbaycan xalqının mənəvi sərvətiyəm?! Bu mənəvi sərvəti saxlayan bir adam hələ də kirayə yaşayır. Amma tələbələrim evlərini, bağlarını reklam edir. Allah ondan da artıq etsin. Mən onlardan varlı, dövlətliyəm. Yetişdirdiyim tələbələr general, pedoqoq, müəllimdir. Kirayə yaşayıram, eybi yoxdur! Ömrümün sonunadək Azərbaycan xalqına xidmət edəcəyəm.



Mədəniyyət Nazirliyindən çox incimişəm. Ona görə ki, dəfələrlə ora getmişəm. Hər şeyi gözəl bilirlər, amma nazirlə məni görüşdürmədilər. Müavinlərinə, işçilərinə dərdimi demişəm. Nə zülmlərlə "Kreml"ə konsertlərə getmişik. Uşaqlar ac qalmasın deyə quru çörək alırdıq. Çünki pulumuz yox idi. Yemək almağa gücümüz çatmırdı. Təsəvvürünüzə gətirin, elə bil ki, müharibə həyatıdır. Belə günlərimiz olub. Xaricdən gələn kimi uşaqlar Ağdamdakı evimdə yatırdı. Səhəri Bakıda konsertə çağırırdılar. İnanın, istirahətimiz olmurdu. Maraqlıdır, Mədəniyyət Nazirliyi bu günədək əməyimi qiymətləndirməyib. Düşünmürlər ki, hazırda Xalq, Əməkdar artist olan şəxslər necə ortaya çıxıb? Öz-özünə gəlməyib ki... Elə adamlar fəxri adlar alıb ki, mən utanıram. Bir topa məktubum var. Bilirəm ki, Prezident və Mehriban Əliyevaya çatmayıb. Mədəniyyət Nazirliyi deyir ki, növbəti adlar siyahısında sizin adınızı yadımızdan çıxarmayacağıq. Tələbələrimə Xalq artisti, müəllimə heç bir ad! Bunu mənim yubileyimdə də söylədilər. Ehtiyac da yoxdur! Mənim o kadrları yetişdirməyim, Azərbaycan xalqına xidmət etməyim fəxri adımdır. Nazirlik bir dəfə maraqlanmayıb ki, Murad Rzayev kimdir. Hamı sosial şəbəkələrdə yazır ki, Murad müəllim Şuşada görünmədi. Düzdür, səhhətimdə narahatlıq var. 50 ildir mədəniyyət sahəsindəyəm. Bu 50 ildə nazirlik deməsdi ki, bu ansamblı yaradan insanın fəxri adı niyə yoxdur? Tələbələrim hamısı idarə müdirləri, texnikom, ali məktəblərdə müəllimdir. Uşaq evindən götürüb saxladığım Teymur Əmrah Gəncə Filarmoniyasındadır. Onu saxlamışam, böyütmüşəm. Gəlib Bakıda ali məktəbə qəbul olub. İndi də məni yad edir.

İnsanın zəhmətini qiymətləndirmək, ruhlandırmaq lazımdır. Konservatoriyanın 90 faiz müəllimləri mənim tələbələrim olub. İndi arada onlarla zəngləşirik".

M . Rzayev bir neçə gün əvvəl Şuşada keçirilən "Xarıbülbül" festivalının açılışında "Bayatı-Şiraz"ı ifa edən Kənan Bayramlının çıxışından da bəhs edib. O, həmin festivala dəvət almadığını açıqlayıb:

"Kənan Bayramlı oxuyub, sağ olsun. Nə varsa, onu "kopirovka" edib. Bir arada hazırlasaydıq, daha yaxşı olardı. Bu da tarixə düşdü. Şuşa kimi şəhərin geri qaytarılması mühüm hadisədir. Ora Qarabağın papağıdır. Möhtərəm Prezident geri aldı. Burada çox şey deyə bilərəm. Azərbaycan xalqının bütün qeyrəti, namusu geri qayıtdı. İstərdim ki, ölməmişdən əvvəl bir dəfə də olsa ora gedim. Uşaqlığım orada keçib. "Xarıbülbül" festivalına dəvəti Mədəniyyət Nazirliyi etməli idi. Orada olmalı idim. Bəlkə də yaddan çıxmışıq, eybi olmaz. Özümüz olmasaq da, çəkdiyim əziyyət orada idi. Elə bil özüm Şuşada idim. Hökumətin məlumatı yoxdur, bununla Mədəniyyət Nazirliyi maraqlanmalı idi. Döyüş gedə-gedə əsgərlərə konsert verirdim. Güllələr altında çıxış edirdik. İndi torpaqlar alındı, nə oldu ki, biz orada olmadıq?

Bir neçə il İsmayıllıda yaşadım. Orada bir tədbir keçirildi. O tədbirdən sonra icra başçısı Vaqif Rəhimov mənə ev hədiyyə etdi. Dedi ki, qaçqın kimi yaşamayım, orada yaşayım. Pis, yaxşı! Evdir də. Məmməd Araz, Zəlimxan Yaqub, Xəlilrza Ulutürk məni bildi, nazirlik bilmədi. Qazandığım maaşlarım ancaq yazdığım teleqramalara gedirdi. Adlar hamıya verildi. Mənim tələbələrimin tələbəsinə də ad verildi, amma mənə yox..."

# Yoldaşlarını xilas edən, qanaxmadan şəhid olan döyüşçü - Emin İsmayılov evin tək övladı idi




***Bu gün 44 günlük Vətən müharibəsinin qəhrəman şəhidi Emin Tahir oğlu İsmayılovun doğum tarixidir. Emin Tahir oğlu İsmayılov 21 may 2001-ci ildə Bakı şəhəri, Nəsimi rayonunda anadan olub. Əslən Cəbrayıl rayonundan olan Emin İsmayılov Nəsimi rayonundakı 54 saylı tam orta məktəbin məzunu olub.***

Emin İsmayılov evin tək övladı idi - nə bacısı, nə də qardaşı vardı. Anası onu yoxsulluqla böyütmüşdü...

Doğma el-obasının düşmən tapdağında qalmasını heç zaman həzm edə bilməyən Emin talassemiya daşıyıcısı olduğundan və ayaq altının düzlüyünə görə hər zaman qorxurmuş ki, onu hərbi xidmətə aparmazlar.

Amma 2019-cu ilin iyun ayında arzusuna çatır və həqiqi hərbi xidmətə yollanır. Emin Goranboy rayonunda hərbi xidmətdə olduğu vaxtda Vətən müharibəsi başlandı. Və Emin də torpaqlarımızın işğaldan azad olunması və ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarında yüksək peşəkarlıqla iştirak etdi.

Kiçik çavuş E.İsmayılov Suqovuşan, Kəlbəcər isitiqamətində gedən ağır döyüşlərdə fəal iştirak edib. Müharibə vaxtı çoxlu sayda yaralı və şəhidlərimizi döyüş meydanından xilas edib.

Yaxınlarının dediyinə görə, oktyabrın 1-də döyüş vaxtı ayağından güllə yarası alıb. Yaralı olmasına baxmayaraq döyüş yoldaşlarını tək buraxmayıb. Belə ki, özü də yaralanmasına baxmayaraq, 9 yaralı əsgəri döyüş bölgəsindən çıxara bilir.

Əsgər yoldaşları danışır ki, komandiri onun ayağından yaralandığını, həm də evin tək oğlu olduğunu nəzərə alaraq, əmr edib ki, çox irəli getməsin. Lakin Emində olan mərdlik, vətənə bağlılıq hissinin qarşısını heç kəs ala bilməyib. Onun hərbi xidməti başa vurmasına iki ay qalmışdı. Sonuncu dəfə anası Məlahət xanımla 2020-ci il sentyabrın 30-da danışıb.

Emin anasına həmişə deyirmiş ki, mən sənin başını uca edəcəm. Elə də oldu, anasına verdiyi sözü tutdu.

Emin İsmayılov 6 oktyabr 2020-ci il tarixdə Kəlbəcər rayonu istiqamətində gedən ağır döyüşlərdə qəhrəmancasına şəhid olub.

Döyüş yoldaşlarının dediyinə görə, Emin qanaxmadan ölüb. Həmin gün üç yerindən güllə yarası alıbmış.

Oktyabrın 6-da şəhid olan Eminin meyiti düz 40 gündən çox neytral ərazidə qalıb. Həmin müddətdə övladından heç bir xəbər-ətər ala bilməyən Məlahət ana oğlunun əsir düşdüyünü heç vaxt ağlına gətirməyib. “Mənim oğlum əsir düşməz” deyib.

Ana övladının tabutu gələnədək ümidini kəsməyib. Noyabrın 20-də Eminin nəşi evinə gətirilib.

Qəhrəman şəhid 2-ci Fəxri xiyabanda dəfn edilib. Subay idi.

Azərbaycan Respublikası Prezidentinin sərəncamları ilə İsmayılov Emin Tahir oğlu torpaqlarımızın işğaldan azad olunması və ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarında yüksək peşəkarlıqla hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümunəsi göstərdiyinə görə ölümündən sonra “Vətən uğrunda”, “Suqovuşanın azad olunması” və ”Cəsur döyüşçü” medalları ilə təltif olunub.

# DİM-dən imtahanda iştirak edəcək şagirdlərə müraciət

***Dövlət İmtahan Mərkəzi (DİM) iyunun 2-si və ya 3-də keçiriləcək buraxılış imtahanında iştirak edəcək şagirdlərə müraciət edib.***

DİM-dən Unikal.org-a verilən məlumatda bildirilir ki, şagirdlər özlərinin imtahana buraxılış vərəqəsini çap edə bilərlər. Təhsil müəssisələri isə bütün şagirdlərin imtahana buraxılış vərəqələrini çap edə bilərlər:

”Məlum olduğu kimi, iyunun 2-də Şəki və Lənkəran şəhərlərində, Gəncə şəhərinin Kəpəz rayonunda, Abşeron, Ağsu, Ağdaş, Bərdə, Qazax, Qusar, Saatlı, Siyəzən və Xızı rayonlarında, iyunun 3-də isə Naxçıvan MR-də, Şirvan və Sumqayıt şəhərlərində, Gəncə şəhərinin Nizami rayonunda, Ağstafa, Astara, Daşkəsən, Hacıqabul, Lerik, Qəbələ, Qobustan, Şabran, Ucar, Yardımlı, Yevlax və Zərdab rayonlarında Dövlət İmtahan Mərkəzi tərəfindən ümumi (9 illik) orta təhsil səviyyəsi üzrə buraxılış imtahanları keçiriləcək”.




Qeyd edilir ki, buraxılış imtahanında iştirak edəcək şagirdlər https://www.e-gov.az/az/services/read/2516/0?tqdk_xdm=46 linkindən istifadə etməklə özlərinin imtahana buraxılış vərəqəsini, təhsil müəssisələri isə bütün şagirdlərin imtahana buraxılış vərəqələrini çap edə bilərlər. Şagirdlər iş nömrəsini təhsil aldıqları məktəbdən öyrənə bilərlər:

”Şagirdlər buraxılış vərəqəsi ilə bir yerdə “İmtahan iştirakçısının sağlamlığı haqqında bəyannamə”ni də çap edirlər. Bəyannamə ayrıca vərəqdə çap edilməlidir və imtahan günü şagird tərəfindən imzalanmaqla imtahan nəzarətçisinə təqdim edilməlidir.

Buraxılış vərəqəsini çap etmək üçün kompüterə Adobe Reader proqramı quraşdırılmalıdır və brauzerin “Pop-up blocked” sahəsindən qeyd işarəsi götürülməlidir.

Şəxsiyyəti təsdiq edən sənədində şəkli olmayan şagirdlər buraxılış imtahanı üçün təhsil müəssisəsi tərəfindən verilməli olan arayışı DİM-in saytından yükləyə bilərlər.

Qeydlər:

- Şagirdlər bitirdikləri məktəbin yerləşdiyi yerə uyğun rayonda (şəhərdə) imtahan verirlər.
- Məcburi köçkün rayonlarının məktəblərində təhsil alan şagirdlər bitirdikləri təhsil müəssisəsinin yerləşdiyi şəhər və rayonların imtahan gününə uyğun tarixdə imtahan verirlər”.

# ATMU və Ankara Universiteti birgə beynəlxalq tədbir keçirdi



***Azərbaycan Turizm və Menecment Universiteti (ATMU) və Türkiyə Respublikasının Ankara Universitetinin dəstəyi ilə “Ermənistanın müharibə cinayətləri və Qarabağ Zəfərinin təsirləri” adlı beynəlxalq tədbir keçirilib.***

Unikal.org xəbər verir ki,Beynəlxalq tədbirin təşkilində başlıca məqsəd 44 günlük Vətən müharibəsində qazanılan qələbənin təsirlərinin və təcavüzkar ölkənin cinayət əməllərinin akademik səviyyədə gündəm- müzakirəsindən ibarət idi.

Adıkeçən beynəlxalq tədbir Ankara Universitetinin rektoru, Necdet Ünüvarın və ATMU rektoru İlham Mədətovun çıxışları ilə başlayıb. Hər iki ali təhsil müəssisəsinin rəhbəri “1 millət 2 dövlət” şüarının 44 günlük Qarabağ müharibəsində bir daha təsdiqindən söz açdılar. Ermənistanın müharibə cinayətləri və bütünlükdə Vətən müharibəsinin region üçün təhlükəli təsirlərinə dair fikir mübadiləsi aparıblar.

Ölkəmizin Türkiyə Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri cənab Xəzər İbrahim tədbirə qatılaraq Azərbaycan - Türkiyə münasibətlərindən və xüsusən Vətən müharibəsi və onun nəticələrindən danışıb. Beynəlxalq tədbirdə ATMU -nun professoru Məhərrəm Zülfüqarlı və eləcə hər iki qardaş ölkədən bir çox mütəxəssislər uyğun mövzu haqqında məruzələr ilə çıxış ediblər. Müzakirə predmeti olan önəmli mövzulardan biri də Türkiyə Respublikasının prezidenti Rəcəb Tayyip Erdoğanın mədəniyyət paytaxtımız Şuşa şəhərinə gözlənilən səfəri və bu səfərin əhəmiyyəti haqqında idi.

Beynəlxalq tədbirin yekunu olaraq böyük tarixi ənənələrə söykənən Azərbaycan - Türkiyə qardaşlığının bundan sonrada daima inkişaf edəcəyinə əminlik ifadə olunub.

Qeyd etmək lazımdır ki, 2019 - cu ildən Azərbaycan Turizm və Menecment Universiteti (ATMU) və Türkiyə Respublikasının Ankara Universiteti arasında Mövlanə Mübadilə proqramı çərçivəsində əməkdaşlıq uğurla davam edir.

# Millət vəkili kəndlərdə qəbul keçirdi

***Deputat Novruz Aslanov mayın 20-də İsmayıllı rayonuna növbəti səfərini edib, rayonun İvanovka, Quşencə və Balik kəndlərində seçicilərini qəbul edib, problemləri ilə maraqlanıb. Epidemioloji qaydalara uyğun olaraq keçirilən qəbula gələn sakinlər əsasən şəxsi məişət problemləri və sosial yönümlü məsələlərlə bağlı millət vəkilinə müraciətlər ediblər. Bir neçə məsələ yerindəcə həll edilib.***

Unikal.org xəbər verir ki, Quşencə kəndində keçirilən qəbulda kəndə təbii qaz və suyun verilməsi ilə bağlı məsələ deputatın diqqətinə çatdırılıb. Su məsələsi ilə bağlı millətvəkili “Azərsu” ASC ilə əlaqə saxlayıb və məsələ öz həllini tapıb.

Təbii qazla bağlı əlaqədar quruma müraciətin ediləcəyi bildirilib. Həmçinin, deputat Quşencə kəndində fəaliyyət göstərən uşaq baxçasına baş çəkib, uşaqlara göstərilən xidmətlə tanış olub. Baxçaya müvafiq uşaq geyimlərinin, gigiyenik dəstlərin və digər zəruri yardımların edilməsini öz köməkçilərinə tapşırıb.

Həmin yardımlar bu gün baxçaya təqdim olunub. Balik kəndində də seçicilər içməli su və təbii qaz problemi barədə deputata məlumat veriblər. Həmçinin kənd orta məktəbinin təmirinə ehtiyac olduğu bildirilib. İvanovka kəndində kolxozdakı vəziyyət müzakirə olunub, xüsusilə çətinliklər və nailiyyətlər barədə fikir mübadiləsi aparılıb.

Millət vəkili həlli vaxt tələb edən məsələlərlə bağlı əlaqədar qurumlara müraciətin ediləcəyini bildirib.


In solidarity with the "Yashat" Marathon organized by Fund for Support to Azerbaijani Diaspora

By Rachel Avraham

The American psychologist Judith Lewis Herman once stated, "The ordinary response to atrocities is to banish them from consciousness. Certain violations of the social contract are too terrible to utter aloud. This is the meaning of the word unspeakable. Atrocities, however, refuse to be buried. Equally as powerful as the desire to deny atrocities is the conviction that denial does not work. Folk wisdom is filled with ghosts who refuse to rest in their graves until their stories are told. Remembering and telling the truth about terrible events are prerequisites both for the restoration of the social order and for the healing of individual victims."

As the famous Holocaust scholar Elie Wiesel once stated, "We must take sides. Neutrality helps the oppressor, never the victim. Silence encourages the tormenter, never the tormented." For this reason, as a Jewish Israeli, I believe that it is of critical importance to speak out against the wanton targeting of civilian infrastructure and the malice killing of civilians in Azerbaijan's Nagorno-Karabakh region.

After all, imagine that one day you woke up and a rocket was fired upon your city, which killed either one of your parents, siblings, or children. Imagine that you are a farmer who just wanted to herd your cattle and then suddenly, your leg is blown off by a landmine. Imagine what it must be like to watch someone you care about get blown up next to you. Unfortunately, both during the Second Karabakh War and afterwards, the Azerbaijani people have been living such a reality. Their reality is not too different from the people of Sderot. For this reason, the Azerbaijani people need our support as Israelis at this critical time.

# "YAŞAT" xeyriyyə marafonunu İsrail mətbuatında

***İsrailin https://www.peacecom.org xəbər saytında "Azərbaycan Diasporuna Dəstək Fondunun təşkil etdiyi YAŞAT marafonu ilə həmrəylik nişanəsi kimi" sərlövhəli məqalə yayımlanıb.***

Siyasi şərhçi Reyçel Avraamın qələmə aldığı məqalədə "YAŞAT" Fondunun Vətən müharibəsində həlak olmuş şəhidlərin ailələrinə, eləcə də yaralanmış əsgərlərə dəstək istiqamətindəki fəaliyyətindən, dünya azərbaycanlılarının bu fondun, eləcə də Azərbaycan Diasporuna Dəstək Fondunun fəaliyyətinə dəstək verməsindən danışılıb. "Azərbaycan diasporunun görkəmli nümayəndələri - Türkiyədə yaşayan Azərbaycan Respublikasının Xalq artisti, Adana Çukurova Universiteti Dövlət Konservatoriyasının professoru Cahangir Novruzov və Danimarkada yaşayan Avropanın tanınmış nevroloqu Məsud Aşina "YAŞAT" Fondunun Himayəçilik Şurasında təmsil olunurlar".

Yaxın günlərdə Azərbaycan Diasporuna Dəstək Fondu və "YAŞAT" fondunun birgə təşəbbüsü ilə Azərbaycan Diasporuna Dəstək Fondu tərəfindən Xeyriyyə Marafonunun təşkil edələcəyinə diqqət cəlb olunub. Müəllif vurğulayıb ki, II Qarabağ müharibəsi ərzində və sonrakı dövrdə müxtəlif məhrumiyyətlər və itkilərlə üzləşən Azərbaycan xalqının İsrail dövlətinin və xalqının dəstəyinə ehtiyacı var.

Məqalədə Holokost tarixi üzrə tanınmış tədqiqatçı Elie Uezelin və İsrail Parlamentinin sabiq üzvü, ölkənin kommunikasiya, peyk və kiber naziri olmuş Ayub Karanın fikirlərinə yer verilib.

Məqaləni daha ətraflı şəkildə aşağıdakı linkdən oxumaq mümkündür: https://www.peacecom.org/en/article/1871/

# İki şəhid ailəsinə istehsal müəssisələri yaradıldı



***Vətən müharibəsi şəhidlərindən olan İsrafil İbrahimovun və Qüdrət Adişovun ailə üzvləri üçün özünüməşğulluq proqramı çərçivəsində kiçik istehsal müəssisələri yaradılıb.***

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən verilən məlumata görə, lazımi avadanlıqlar verilməklə şəhid İsrafil İbrahimovun anası Səbinə İbrahimova (Nərimanov rayonu) üçün un məmulatlarının istehsalı, şəhid Qüdrət Adişovun anası Yaqut Adişova (Sabunçu rayonu) üçün isə tekstil məhsullarının istehsalı müəssisəsi qurulub.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyinin sədri Mustafa Abbasbəyli və digər əməkdaşlar hər iki ailə ilə görüşüblər. Həmçinin ailələr üçün yaradılmış kiçik müəssisələrə də baxış olub.

Şəhid ailələrinin sosial vəziyyətlərinin daim diqqətdə olduğu, onların sosial dəstəklə təminatı işlərinin bundan sonra da davam edəcəyi bildirilib.

# Şuşadakı uşaqlıq fotosu ilə gündəm olan dirijor öz hekayəsini danışdı

***Şuşada 12-13 may tarixlərində keçirilən "Xarıbülbül" musiqi festivalına bir çox sənət adamları da qatılmışdı. Onlardan biri də Fuad İbrahimov idi. Sənətçinin 29 il əvvəl şəhəri tərk etdiyi yerdə çəkdirdiyi şəkil sosial şəbəkələrdə gündəm olub.***

1982-ci ildə Şuşa şəhərində doğulan musiqiçi 10 yaşında doğma yurdunu Cıdır düzündən havaya qalxan helikopterlə tərk etməyə məcbur olub.

Əməkdar artist, Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin və Münhen Yeni Filarmoniya Orkestrinin baş dirijoru Fuad İbrahimov Modern.az-a müsahibə verib.

***- Şuşadan paylaşdığınız foto gündəm oldu, bu şəklin tarixçəsi barədə nə deyə bilərsiniz?***

- Şəkil 1991-ci ilin iyun ayında çox gərgin bir mühitdə təsadüfən çəkilib. Şuşada hər axşam həyəcan siqnalı verilirdi və həmin vaxtlar sakinlər məcburən zirzəmilərdə gecələyirdi. Ona görə də biz səhər yuxudan duran kimi Cıdır düzünə qaçırdıq ki, görək nələr salamat qalıb. Şəkil də həmin günlərin birində çəkilib. Sonra isə bizi 1992-ci ilin yanvar ayında vertalyot ilə evakuasiya etdilər. Bəziləri elə bilir ki, elə həmin gün çəkilən şəkildir, amma bu şəkil biz Şuşadan çıxmazdan bir il qabaq çəkilib.

***- 29 il sonra evə qayıtmaq necə hiss idi?***

- Bu hisləri həqiqətən ifadə etmək bir az mənim üçün çətindir. Onu gərək yaşayasan. 29 il həsrətlə gözləyirsən və bir gün gəlir ki, yenidən həmin evə qayıdırsan. Hər bir şuşalı kimi mən də bu günü səbirsizliklə gözləyirdim. Bu hisləri bizə rəşadətli ordumuz yaşatdı. İlk olaraq demək istəyirəm ki, bizə bu günləri yaşadan şəhidlərin ruhu şad olsun, onların



qanı bahasına bu torpaqlar alınıb. Sağ qalan əsgərlərə, zabitlərə çox sağ ol deyirəm. Başda Ali Baş Komandan olmaqla, sağ olan əsgərlərin, zabitlərin hər birinin qarşısında baş əyirəm. Yenə vurğulayıram ki, onlarsız biz bu hisləri yaşaya bilməzdik. Bütün sevincimizi onlara borcluyuq.

***- Evinizin vəziyyəti necə idi?***

- Təəssüf ki, evimiz həminki kimi deyildi. Fərhad Bədəlbəyli və Murad Adıgözəlzadə ilə birlikdə bizim evə getdik. Görəndə həqiqətən təəccübləndim. Evin sadəcə iki tərəfdən divarı qalmışdı. O da tam deyildi. Çox bərbad bir vəziyyət idi. Amma yenə də oranı görmək, o daşlara toxunmaq mənim gözlərimin qarşısına bütün uşaqlığımı gətirdi. Mən Şuşadan çıxanda o qədər də balaca deyildim. 9 yaşım var idi, artıq hər şeyi anlayırdım və yaddaşımda da hər şey çox yaxşı qalıb. Ona görə də mənim üçün ikiqat sevinc idi gedib oranı görmək.

***- Uşaqkən tərk etdiyiniz Şuşaya musiqiçi olaraq qayıtdınız. Sizin musiqi hekayəniz Şuşada başlamışdı?***

- Mənim musiqi həyatım demək olar ki, beşikdən başlayıb. Ailəm musiqiçilərdən ibarətdir. Babam Şuşada tanınmış xanəndə olub, anam isə Bakı Musiqi Akademiyasını bitirib. Yəni ailədə çox adam musiqiçi idi. Amma mənim ilk musiqi alətimi bizim dahi bəstəkarımız Süleyman Ələsgərov bağışlamışdı. Mən uşaq olarkən o mənə demişdi ki, sən öz üzərində çalış, dahi musiqiçi olacaqsan. Amma təəssüflər ki, çox keçmədən müharibə başladı. Ona görə də dərslər ləğv olundu, musiqinin ləzzətini ala bilmədim. Bizi ordan köçürəndə hər şeyimiz şəhərdə qaldı, o cümlədən mənə bağışlanan həmin skripka da...

Sonra isə mənim musiqi həyatımda çox adamın əməyi oldu. Vurğulamaq istəyirəm ki, köçkün, evsizeşiksiz bir uşağın xaricdə təhsil alması ağla sığılası bir şey deyildi. Amma bu təşəbbüsü Heydər Əliyev Fondu irəli sürdü və mən Almaniyada iki təhsil aldım. 42 ölkədə olmuşam, bir dirijor kimi öz vətənimə, doğma yurduma qayıdıb səhnəyə çıxmışam. Bunlar hamısı bir-biri ilə əlaqəli olan şeylərdi, heç biri təsadüf deyil. Çəkilən o şəkil də düşünmürəm ki təsadüfdür.

***- İndiyə qədər çıxış etdiyiniz səhnələrlə Şuşadakı səhnəniz arasında fərq vardı?***

- Yerlə göy arasında fərq qədər idi. Səhnə həyatım başlayandan arzu edirdim ki, öz doğma torpağımda çıxış edim.

***- Festivalda iştirak etməklə bağlı təklif gözləyirdiniz?***

- Festival cənab prezident İlham Əliyevin təşəbbüsü ilə bərpa olundu. İşğaldan əvvəl də bu festival keçirilib, uzun fasilədən sonra yenidən bərpa olundu. Mən bir şuşalı kimi əslində bu təklifi gözləyirdim. Hiss edirdim ki, mənim payıma da Şuşadakı konsertdə çıxış etmək düşəcək.

***Aysel Məhərrəm***

# Vətən sevgisinin qəhrəmanlıq salnaməsi

***Naib Akif oğlu Qasımov İkinci Qarabağ müharibəsində canını Vətəninə qurban verməklə zaman-zaman gələn nəsillərə nümunə ola biləcək bir ömür yaşadı.***

İndi böyük bir xalqın iftixar, qürur yerinə dönən bu, Vətən sevdalısı Masallı rayonunun Mahmudavar kəndində dünyaya göz açmışdı. Həyat yolu qısa oldu, amma yaşına uyuşmayan qəhrəmanlığı əbədi yaşamaq üçün adını şanlı tariximizin qızıl səhifəsinə yazdı. Bir də Naibin ölməzliyi ondadır ki, Vətən üçün yaşadı, torpaq uğrunda canından keçdi. Sədaqətli olduğu dövlət də qəhrəman oğlunun hünərini "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" medalları ilə uca tutdu.

Naib müstəqil həyata qədəm qoyan gündən nəcib amalı xalqına fayda vermək, xeyirxah məqsədlər uğrunda çalışmaq olur. Qəlbi saf olduğu üçün elini, yurdunu həqiqi məhəbbətlə sevməyi, qurub-yaratmağı bacarır. Vətənin xoş günlərinə sevin-



diyi kimi, erməni faşistlərin Azərbaycan torpaqlarına təcavüzü heç cür onu rahat buraxmır. Elə 2015-ci ildə ordu sıralarına düşməndən qisas almaq hissi ilə gedir. Vətəninə, dövlətinə ləyaqətlə xidmət edir. Naibin cəsurluğunu, çevikliyini görüb onu Xüsusi Təyinatlı Qüvvələrin sırasına götürürlər.

N. Qasımov ilk dəfə 26 Aprel döyüşündə düşmənlə ölüm-dirim savaşına girir. Lələtəpənin azad olmasında hünər göstərməklə Vətənə qəlbən bağlı oğul olduğunu bildirir. Tovuz döyüşlərinə baş çavuş kimi qatılır. Qalib olmaq istəyi ilə vuruşur və düşməni məhv etməklə arzusuna çatır. İkinci Qarabağ müharibəsi başlanan zaman Naib Qasımov yenə öndə gedir. Cəbrayıl uğrunda qeyri-bərabər döyüşdə sərrast atəşlə ermənilərin neçə-neçə texnikasını sıradan çıxardır, canlı qüvvəsini sarsıdır. Oktyabrın 6-da namərd gülləsi ondan yan keçmir. Qəhrəman Vətən oğlunun torpağa axıtdığı qan şanlı zəfərimizin başlanğıcı olur.

İndi Naibin adı çəkiləndə bütün Masallı camaatı onunla fəxr edir. O, öz xalqı üçün Vətənə, torpağa sədaqət simvoludur.

***Zəfər Orucoğlu, AJB üzvü***

# “Ögey ana”da Qəmər xala - İsmayılın nənəsi: Həqiqət Rzayeva kim idi?

***Milli kinomuzun və teatr sənətimizin inkişafında bir çox sənətkarların müstəsna xidmətləri olub. Onlar ən ağır zamanlarda və ən ağır şərtlərdə belə bu sənətin inkişafı üçün əllərindən gələni əsirgəməyiblər. Bu baxımdan Azərbaycan filmlərində kifayət qədər yaddaqalan obrazlar var.***

Azərbaycan səhnəsində çıxış edən ilk qadın müğənnilərdən biri, Xalq artisti Həqiqət Rzayevadır. Tamaşaçılar onu məşhur "Ögey ana" filmindəki Qəmər xala obrazından tanıyırlar.

Bu gün - 20 may onun doğum tarixidir...

"Unikal" modern.az-a istinadən mərhum sənətkarın həyat hekayəsini oxuculara təqdim edir...

Arayış: Həqiqət Rzayeva 20 may 1907-ci ildə Lənkəranın Darquba kəndində anadan olub. 1917-ci ildən o, Lənkəranda məktəbə getməyə başlayır. Azərbaycan sovetləşəndən sonra isə ailəsi Bakıya köçür. Gənc Həqiqətdə opera və səhnəyə həvəs Bakıda həvəskar teatr dərnəyinə getməsindən sonra yaranır. Bəstəkar Müslüm Maqomayev səsini yoxlayandan sonra onu Azərbaycan Opera Teatrında işə götürür. Bununla da ailəsinin narazılıqlarına baxmayaraq, Həqiqət xanım opera teatrına ömürlük bağlanmış olur. 1928-1932-ci illərdə Azərbaycan Dövlət Konservatoriyasının muğam şöbəsində oxuyur, Cabbar Qaryağdıoğlu, Seyid Şuşinski və Qurban Pirimovdan dərs alır. 1927-1952-ci illərdə Opera və Balet Teatrının solisti, muğam və xalq mahnılarımızın ifaçısı kimi tanınır. Ərəbzəngi ("Şah İsmayıl" - Müslüm Maqomayev), Leyli, Əsli, Telli ("Leyli və Məcnun", "Əsli və Kərəm", "Arşın Mal Alan" - Üzeyir Hacıbəyov), Şahsənəm ("Aşıq Qərib" - Zülfüqar Hacıbəyov) onun yaratdığı əsas səhnə obrazlarıdır.

Həqiqət Rzayevanın kino fəaliyyətinə gəldikdə isə o, çox az filmdə çəkilib. Lakin bu filmlərə baxdıqda onun nəinki bir opera müğənnisi, həmçinin, çox istedadlı bir kino aktrisası olduğunu da görürük. Onun xüsusilə "Ögey ana" filmində balaca İsmayılın nənəsi - Qəmər xala obrazını vurğulamaq lazımdır. Həqiqət xanım bu rolu o qədər təbii oynayıb ki, yəqin ki, Qəmər xalanı ondan başqa heç kəs belə canlandıra bilməzdi.

### Uşaqlığı məhrumiyyətlər içərisində keçən aktrisa...

Onun əsil adı Süsən, soyadı Əliyeva idi, Həqiqət adını isə sonradan götürmüşdü. Xalq artisti heç zaman uşaqlığından danışmazdı. Məğrur görünüşlü bu xanım yəqin, kövrələcəyindən qorxurdu... Ömrünün başlanğıcında həyat üzünə gülməmişdi. Həqiqət Rzayevanın uşaqlığı məhrumiyyətlər içərisində keçib. O, körpə ikən atası Əli kişi vəfat edib. Gur, məlahətli səsi, gözəl avazı ilə bütün Lənkəranda həvəskar xanəndə kimi tanınan Əli Əliyevdən bu dünyada 3 övlad yadigarı qaldı. Onun sağlığında kasıb yaşayan ailəsinin vəziyyəti ailə başçısının vəfatından sonra daha da ağırlaşdı. Üç uşaq - iki oğlan və bir qız anaları Zinyət xanımın ümidinə qaldı. Ana dərzilik etməklə balalarını güclə dolandırırdı. Bir müddət sonra Zinyət xanım Kərim adlı bir kişi ilə ailə qurdu. Bu evlilikdən Əntiqə adlı qızları olub. Ailələri bir az da böyüdü. Dolanışıqları gündən-günə çətinləşirdi. Ailə baş götürüb Bakıya gəldi, burada yaşadılar.



1918-ci ildə yenidən Lənkərana qayıtdılar. O zaman Həqiqət Rzayevanın 11 yaşı var idi. Məktəbə getmirdi. Lənkərana döndükləri bir il olardı, xəbər yayıldı ki, lənkəranlı Teymur bəy Bayraməlibəyovun qızı Məryəm xanım evində məktəb açır. Lənkəranı ev-ev dolaşan Məryəm xanım qızlarını məktəbə oxumağa göndərmək üçün anaları dilə tuturdu. Zinyət qonşu qadınlarla məsləhətləşdi, razılığa gəldilər ki, qızlarını Məryəm Bayraməlibəyovanın məktəbinə göndərsinlər.

1920-ci ildə Azərbaycanda qurulan Sovet hakimiyyəti Məryəm Bayraməlibəyovanın məktəbi üçün yeni bina verdi. Həmin məktəbi 1923-cü ildə başa vuran Həqiqət Rzayeva Lənkəran Maarif Şöbəsinin göndərişi ilə Bakıya, darülmüəllimatda oxumağa gəldi. Darülmüəllimatı 1926-cı ildə bitirib, müəllimlik diplomu aldı. Lakin gözəl səsi onun həyatını fərqli istiqamətə yönləndirdi. Onun ürəyəyatımlı ifasından təsirlənən lənkəranlı tamaşaçılar: "Atası Əliyə çəkib, onun da belə gözəl səsi var idi", - deyirdilər.

O, darülmüəllimatı bitirən il Azərbaycan Həmkarlar İttifaqı Mərkəzi Şurası və Mədən İşçiləri Həmkarlar İttifaqi tərəfindən "Damğa" Teatrı təşkil olundu. Əli Bayramov adına qadınlar klubunun səhnəsindəki uğurlu çıxışından xəbər tutan "Damğa"nın rəhbərləri bir-iki qızla bərabər onu da bu teatra dəvət etdilər.

Səhnəyə çıxdığından ailəsi hələ xəbərsiz idi. Elə bilirdilər gecə kursunda dərs deyir. Həqiqət anasından, atalığından, özündən yaşca böyük qardaşlarından çəkinir, hər gün evdən çadrayla çıxırdı. Teatra çatanda isə çadranı başından açaraq içəri girir, məşqlərdə, tamaşalarda iştirak edirdi.

### Bər-bəzəksiz, uzun paltarlı qadın....

Həqiqət Rzayeva 1927-ci ildə rejissor Hüseyn Rzayevlə ailə qurdu. 1928-ci ildə ilk övladları Həsən, 1930-cu ildə oğlanları Azər, ondan on il sonra isə qızları Sədaqət dünyaya gəldi.

Sədaqət Rzayeva anası haqqında xatirələrində qeyd edib ki, Həqiqət Rzayeva çox qayğıkeş, mehriban ana, gözəl həyat yoldaşı, evdarlıq qabiliyyətinə malik və ən əsası böyük insani keyfiyyətləri olan xanım idi:

"Elə bir iş yox idi ki, mənim anam onun öhdəsindən gələ bilməsin. Yadımdadır ki, bizə qohumlarımız gələrdilər. Kimin nə problemi, nə dərdi olsaydı, mütləq anamdan məsləhət alardılar. Həqiqət xanım da canla-başla onlara kömək edərdi. Bundan əlavə o, həyatda çox sadə biri idi. Aktrisa olmağına baxmayaraq bəzəkdüzək sevməzdi. Səhnəyə sadə, qara məxmər, uzun paltarda çıxardı. Bəzək əşyalarından ancaq qolunda saat olardı. Mən həmişə ondan soruşardım ki, nə üçün başqa aktrisalar kimi bəzək-düzək əşyaları, qızılbrilliant taxmır. O hər zaman "Mənim brilliantlarım mənim balalarımdı" deyərdi".

Rejissor Hüseyn Rzayev hər zaman hər yerdə həyat yoldaşı Həqiqət xanıma dəstək olub, onu müşayiət edib.

Həqiqət Rzayevanın qızı Sədaqət xanımın xatirələrindəndən:

"Atamla anam bir-birini çox gözəl başa düşürdülər, mehriban idilər. Bizim ailədə uşaqların tərbiyəsi, ailənin möhkəmliyi- bunların hamısı anamın çiyinlərində idi. Baxmayaraq ki, onun vaxtı çox az olurdu, lakin bizim tərbiyəmizlə ancaq anam məşğul olub.

Ailənin kiçiyi olduğumdan atamla anam qastrol səfərlərinə gedəndə həmişə məni də özləri ilə aparardılar. Anamın səhnə çıxışlarına əsasən səhnə arxasında qulaq asardım. Bir dəfə anam hansısa rayonda açıq səhnədə çıxış edirdi. Birdən görür ki, səhnədə bir əqrəb onun ayağına tərəf sürünür. Onu müşayiət edən musiqiçilər özlərini itirirlər. Ancaq anam onların əksinə gülümsəyərək oxuyur və ayağının bütün ağırlığını əqrəbin üzərinə qoyur, bununla da konserti başa vurur. O, çox cürətli, cəsarətli, mərd qadın idi. Bizim Buzovnada bir bağımız var idi. Orda anamın ilan öldürməyinin şahidi olmuşam".

### "Bax, budur aktrisa!"

1939-cu ildə Moskvada Azərbaycan Mədəniyyəti və İncəsənəti ongünlüyü keçirildi. "Arşın mal alan" operası da göstərildi. Tamaşada belə bir səssiz səhnə var: Telli səhnəyə çıxır, paltarının geniş ətəyini bir tərəfdən belinə keçirib. Suyu çox çətinliklə səhəngə doldurub yavaş-yavaş səhnəni tərk edir. Moskvanın tanınmış tənqidçiləri, sənət adamları "Arşın mal alan"dan yazanda bu səhnəni xüsusi qeyd ediblər.

Sonralar Üzeyir Hacıbəyli Həqiqət Rzayevaya danışıb ki, "Arşın mal alan"da Tellinin lal səhnəsinə baxan Sovet hökumətinin rəhbəri Stalin də deyib: "Bax, budur aktrisa!".

Həqiqət xanım vətənpərvər qadın idi. Böyük Vətən Müharibəsində konsert briqadası ilə ön cəbhəyə gedərək əsgərlər qarşısında çıxışlar edib. O, müharibə illərində tank alınması üçün fonda pul da verməmişdi. Qəzetdə çıxış edib digər sənət yoldaşlarını da onun kimi olmağa çağırmışdı...

### Səhnəmizin Qəmər xalası....

1953-cü ildə Həqiqət Rzayeva sənətdən getməyə qərar verdi. Opera Teatrının direktoru Məhərrəm Haşımov "Həqiqət xanım, bəlkə keçib ikinci partiyaları, Leylinin anasını, Məcnunun anasını oynayasınız" deyəndə onun cavabı belə oldu: "Yox, mən özüm səhnədən gedirəm". Və işdən getmək barədə ərizə verir.

Oğlu Azər Rzayevin xatirələrindən: "Yəqin, başa düşürdü ki, bu yaşda səhnənin nə Ərəbzəngisi ola bilər, nə Əslisi, nə də Leylisi. İstəmədi ki, məcnunu olduğu teatrda ona "get, get, sən o Leyli deyilsən" desinlər. Əslində, o, Leylinin anasını, Məcnunun anasını oynamışdı. Ancaq onda səhnəyə yeni gəlmişdi, təcrübəsi, şöhrəti yox idi".

Həqiqət Rzayeva böyük, əzəmətli rollardan sonra kiçik rollara qayıtmazdı. Səhnədən getməyə razı olardı, buna yox. Belə də etdi. Opera Teatrından gedəndən sonra konsert fəaliyyətinə başladı.

Ömrünün son bir neçə ilini Opera Teatrında müəllim-konsultant işlədi. Bura işə dəvət etmişdilər. O da bildiklərini məmnuniyyətlə gənclərə öyrədirdi. Asəf Zeynallı adına Musiqi Məktəbində də dərs dedi. Rübabə Muradova, İslam Rzayev və başqa istedadlı tələbələri oldu.

Həqiqət Rzayevanın aktrisalıq istedadı həm də Azərbaycanın kino sənətini zənginləşdirdi. 1958-ci ildə "Ögey ana" filminə çəkildi. Bu, kinoda ilk rolu deyildi. Azərbaycanda çəkilən səssiz filmlərdə Həqiqət Rzayeva da iştirak etmişdi. Sonralar davamlı olmasa da, kino sahəsində fəaliyyətini davam etdirib.

"Ögey ana" filminə onu rejissor Həbib İsmayılov dəvət etdi. Həmin filmdəki Qəmər xala Həqiqət Rzayevanın kino sənətində ən məşhur rolu oldu. Oğlu Azər Rzayev xatirələrində yazır ki, istedad öz yerində, amma Qəmər xala rolunun bu qədər uğurlu alınmasının bir səbəbi də vardı: Qəmər xala surəti xasiyyətindəki bütün sərtliyi, mülayimliyi ilə sanki Həqiqət Rzayevanın özüydü. O da son dərəcədə ötkəm, ciddi, mərd qadınıydı. Eyni zamanda övladlarını, nəvələrini çox sevən, onların yolunda hər bir fədakarlığa hazır olan yumşaq, nəcib ürəyi var idi.

1966-cı ildə vəfalı həyat yoldaşı Hüseyn Rzayev 60 yaşına çatmamış vəfat etdi. Üç il sonra ölüm Həqiqət Rzayevanı da haqladı. O, kor bağırsağından əməliyyat olunandan sonra cəmi 3 gün yaşaya bildi. Təəssüf ki, aktrisa zamanında müraciət etmədiyi üçün həkimlər ona kömək edə bilmədilər və 1969-cu il avqustun 2-də Həqiqət Rzayeva vəfat etdi....

# Avokado yağının faydaları

***Avokado yağı sarının yaşıla çaları rəngdə, yüngül və xoş dada malik mayedir. Onun ətri qoz yağının ətrinə bənzəyir. Avokado yağı avokado meyvəsinin lətli hissəsi sıxmaqla əldə edilir. Yüksək texnoloji alətlərin hesabına avokado yağı əldə edilən zaman onun tərkibində olan vitaminlər, minerallar, yağ turşuları və bioloji aktiv maddələr öz tərkibini dəyişmir. Avokado ilk dəfə yeddi min il qabaq Mərkəzi Amerika ölkələrində yetişdirilməyə başlamışdır. İndi kasıb Meksika ailələrinin hər gün süfrələrində avokado meyvəsini görmək olur. Avokado yağının ixracına görə İspaniya dünyada birinci yerdə durur. İngiltərə kosmetologiya sahəsində avokado yağından ən çox istifadə edən ölkədir.***

### Necə seçməli?

Sıxılma nəticəsində əldə olunan avokado yağının tərkibində kimyəvi zərərli maddələr olmur. Təbii yağdan daima xoş qoxu gəlir və o öz təbii rəngini dəyişmir. Avokado yağı dərinin sağlamlığı üçün çox faydalıdır və onun rafinəedilmişi rafinə ediulməmişindən daha çox müsbət təsirə malikdir.

### Necə saxlamalı?

Avokado yağını soyuducunun alt hissəsində 6-9 ay saxlamaq mümkündür. Yağ saxlanılan bölmənin tempraturu isə 5*-dən az olmamalıdır. 100 qram avokado yağının yağlılığı 100 qram, kaloriliyi isə 885,7 kKaloridir.

Avokado yağının tərkibi A, C, E, B, D vitaminləri ilə zəngindir. Onun tərkibindəki vitaminlərin qarışımı antioksidant və güclü immun möhkəmləndirici tərkibə malikdir. Avokado yağının tərkibində olan A və E vitaminlərinin miqdarı zeytun yağının tərkibindəkindən 5 dəfə artıqdır. Avokado yağının qiymətli xüsusiyyətlərindən biri onun dərideki piy və yağ mübadiləsini normallaşdıra bilmək qabiliyyətinin olmasıdır. Avokado yağının tərkibində qisidin, fitosterol, fosfor turşu duzu, doşmuş və doymamış yağ turşuları (stearin, olein, palmitin, linolen), efir yağları, makro və mikro elementlər (kalium, fosfor, maqnium, dəmir, natrium, sink, marqanes, yod, kolbat və s.) var.

### Faydalı və müalicəvi xüsusiyyətləri

Avokado yağının yarasağaldıcı, göbələk əleyhinə, virus əleyhinə, bakteriasid təsirləri var. O müxtəlif dəri xəstəliklərinin sağalmasına səbəb olur. Tərkibində kaliumun və maqniumun çox olması onun ürək və damar xəstəlikləri zamanı faydalı olmasına səbəb olur. Tərkibində olan E vitamnini arterial təzyiqin aşağı düşməsinə, trombların əriməsinə səbəb olur, C vitamini isə immuniteti artırır. Avokado yağından istifadə eləmək qanda olan pis xolesterinin azalmasına, damar divarlarının möhkəmlənməsinə səbəb olur. Mütəmadi olaraq avokado yağlından istifadə eləmək isə atereskleroz və infarkt əlamətlərinin azalmasına, əmələ gəlmə riskinin isə aradan qalxmasına səbəb olur.

Mütəxəssislər anemiyadan əziyyət çəkənlərə avokado yağından istifadə eləməyi məsləhət bilirlər.

Avokado yağı ödün axınını sürətləndirir. Bu səbəbdən də pankretit, öd kisəsi və qaraciyər xəstəlikləri zamanı avokado yağından istifadə etmək məsləhət görülür.

Avokado yağı orqanizmdən toksinlərin, ağır metal zəhərlənmələrinin və zərərli şlakların xaric olunmasını sürətləndirir, sərbəst radikallara qarşı mübarizə aparır.

Avokado yağı həzm sisteminin işini yüngülləşdirir, həzmi sürətləndirir və maddələr mübadiləsini yaxşılaşdırır. Qastrit, mədə və bağırsaq yaraları zamanı avokado yağından istifadə etməyin faydası çox böyükdür.

Avokado yağından istifadə etmək şəkərli diabet xəstələri üçün çox faydalıdır. Onun tərkibində olan yağ turşuları qanda şəkərin miqdarını nəzarət altına alır və aşağı düşməsinə yardım edir.

Avokado yağı sinir sisteminin möhkəmlənməsinə səbəb olur. Ondan baş ağrıları, nevrozlar, yuxusuzluq zamanı istifadə etməkdə fayda var. Hər günlük qida rasionuna avokado yağı əlavə etmək əhval-ruhiyyənin yüksəlməsinə, əqli fəaliyyətin artmasına səbəb olur.

İngilis pediatrləri uzun illərdir ki, uşaq qidalarına abvokado yağı əlavə etməyi məsləhət görürlər. Bir çox hazır uşaq qidalarına isə avokado yağı qatılır.

Osteoparozun, damar xəstəliklərinin və ağız boşluğu xəstəliklərinin profilaktikası məqsədilə avokado yağından istifadə etməkdə fayda var.

### Kosmetologiyada tətbiqi

Müasir kosmetologiyada avokado yağından geniş istifadə edilir. O dərinin yumşalmasına və qidalanmasına səbəb olur. Avokado yağını müxtəlif kremlərə əlavə edərək və ya tək halda krem kimi üz dərisinə sürtmək mümkündür. O dərini yumşaltmaqla yanaşı, onun vitamine olan tələbatının da ödənməsinə səbəb olur. Avokado yağı dərinin ən alt təbəqələrinə qədər qidalanmasına və xəstəliklərdən sağalmasina səbəb olur.

Tərkibində olan kallogen maddələr dərinin möhkəmliyinin və elastikliyinin artmasına səbəb olur.

Mütəxəsssislər dərinin kosmetik və sağlam gözəlliyə malik olması üçün vaxtaşırı 10 gün dərini gündə 2 dəfə avokado yağı ilə silinməsini məsləhət görürlər. Avokado yağını düzənli olaraq dəriyə sürtmək dərideki kiçik qırışların açılmasına səbəb olur. Avokado yağından müxtəlif kosmetoloji məhsulların hazırlanmasında istifadə edilir.

### Avokado yağının zərərli xüsusiyyətləri

Xroniki və ağır qaraciyər xəstəlikləri zamanı avokado yağından istifadə etmək məsləhət görülmür.

# "Bunları etməsək, vitaminlərin mənası olmaz" - İmmuniteti gücləndirməyin yolları

***Türkiyəli mütəxəssis Murat Cömer uşaqlarda immun sisteminin gecləndirilməsi ilə bağlı məsləhətlər verib.***

"Unikal" medicina.az-a istinadən bildirir ki, onun sözlərinə görə, orqanizm heç bilmədiyi, tanımadığı bir mikrobla qarşılaşdıqda, dayana bilməyib xəstələnir: "Eyni mikroba yenidən qarşılaşdıqda isə buna qarşı immun sistemi ortaya girər və orqanizmi qoruyar. Burada xüsusən düzgün qidalanma, yuxu və hərəkətli yaşam çox önəmlidir".



### İMMUNİTET ANA BƏTNİNDƏN BAŞLAYAR

Ana südünün önəmindən danışan Cömert immun sisteminin ana qarnından başladığını bildirib: "Böyük şəhərlərdə yaşayan hamilələr hava kirliliyindən qaynaqlanan bir çox zəhərli qaz və ağır metallara məruz qalırlar. Bu da körpələrə təsir edir. İmmunitetə təsir edən sonrakı addım isə doğumdur. Normal doğumda uşağın doğum kanalından keçərkən vaginal floradan aldığı mikroblar sayəsində immun sistemi doğar-doğmaz "xəbərdar" olar. Doğum sonrası kolostrum dediyimiz süd uşaqların ilk "peyvəndidir". Çünki ana südü immun sistemini gücləndirmək üçün olduqca faydalıdır".

### HAZIR YEMƏKLƏR İMMUNİTETİ DÜŞÜRÜR

"Böyük uşaqlarda qidalanma, yuxu və hərəkətli yaşam immun sisteminin güclənməsi üçün ən önəmli addımdır. Bəslənmə olaraq mövsüm tərəvəzləri və meyvələrinin seçilməlidir. Paketlənmiş qidalar və "fast food" tərz qidalanmadan qaçmaq lazımdır. Yuxu da çox önəmlidir. Xüsusən məktəblilər gecə gec saatlara qədər oyaq qalmamalıdırlar. Texnologiyanın inkişafı ilə uşaqlarda hərəkətsiz yaşam da artıq çəkiyə yol açır. Gərəksiz antibiyotik istifadəsi də immun sisteminin zəifləməsinə yol açar".

### DOĞRU BƏSLƏNMƏ OLMAZSA, VİTAMİNLƏRİN BİR MƏNASI OLMAZ

"Valideynlər arasında uşaqlarına vitamin verəcəyi zaman immun sistemi güclənəcək deyə səhv bir fikir var. Yuxarıda saydıqlarımızı etməsək, vitamin istifadəsinin heç bir mənası qalmaz".

# Prediabet haqqında bunları bilmək vacibdir

***Hamımız diabet haqqında eşitmişik - insanın insulin istehsalını azaltdığı və ya hüceyrələrin ona həssas olduqları təhlükəli bir xəstəlikdir.***

Proqnoza görə, 2025-ci ilə qədər dünyada təxminən 300 milyon insan diabet xəstəliyinə tutulacaq və bu 2000-ci ildə qeydə alınandan iki dəfə çoxdur. Beləliklə, şəkərli diabet əsl epidemiyaya çevrilir. Şəkərli diabet, diaqnoz qoyulan bütün xəstələrin təxminən 90% -nə təsir göstərir. Bu, karbohidrat mübadiləsinin pozğunluqlarından, o cümlədən prediabetdən əvvəl baş verir. Onun vaxtında diaqnozu bəzi hallarda şəkərli diabetin inkişafının qarşısını alır, qan şəkərinin normal səviyyəsini saxlamağa və damar xəstəlikləri də daxil olmaqla təhlükəli fəsadların qarşısını alır.

Prediabet nədir? Prediabet böyük bir xəbərdarlıq əlamətidir. Deməк olar ki, qan şəkərləriniz yüksəkdir, ancaq diabetlə diaqnoz qoyulmaq üçün kifayət qədər yüksək deyil.

Diaqnozun eşidilməsi qorxudan ola bilər; bu, gələcəyiniz üçün nə deməkdir? Əgər sizdə prediyabet olduğunuzu deyirsinizsə, sağlamlığınız baxımından mühüm bir nöqtədə olduğunuzu bilmək vacibdir. Ona bir çox təsir göstərə bilərsiniz.

Prediabet konsepsiyası karbohidrat metabolizmasının erkən pozğunluqlarına aiddir.

Bu pozğunluqların hər biri, eləcə də birləşməsi prediabet adlanır. Burada dünya statistikasının rəqəmləri daha təsirli görünür: beynəlxalq araşdırmalara görə, dünyada bütün yetkin əhalinin təxminən 10-15% -i bundan əziyyət çəkir. Və hamısında diabetin inkişaf riski var. Qanda qlükoza səviyyəsinin artdığı, lakin ümumi sağlamlığa ölümcül təsir etmədiyi bir vəziyyət hesab edilən prediabet səbəbsiz deyildir. Erkən aşkarlanarsa, bu pozğunluq düzəldilə bilər və onun şəkərli diabetə keçməsinə icazə verilmir.

Həyat tərzindəki dəyişiklik çox böyük əhəmiyyət kəsb edir. Xüsusilə, Finlandiya alimləri geniş miqyaslı bir araşdırma apardılar ki, prediabetli xəstələrdə II tip diabetin inkişaf riskini təqribən 60% azaltmaq olar:



- Bədən çəkisini 5% azaldın,
- Yağ qəbulunu məhdudlaşdırın (gündəlik kalori qəbulunun 30% -dən çox olmamalıdır)
- Diyetdə doymuş yağların nisbətini 10% -ə qədər məhdudlaşdırın,
- Gündə ən az 15 qram lif istehlak edin.
- Gün ərzində ən az 30 dəqiqə məşq edin.

Bir terapiya seçərkən, xəstənin metabolik vəziyyətini nəzərə alaraq fərdi bir yanaşma lazımdır. Bundan əlavə, bəzi dərmanlar böyrək, qaraciyər və ürək çatışmazlığı hallarında təhlükəlidir. Bütün bu nüanslar həkim tərəfindən müalicə təyin edilərkən nəzərə alınır.

# Hansı qan qrupunda koronavirus riski azdır? - Alimlər ARAŞDIRDI

***Koronavirusa yoluxma və virusdan ağırlaşma riski insanın daşıdığı qan qrupunu təyin edən genlərdən asılıdır.***

Kanada və Britaniya alimləri 1 il ərzində həm kovidə yüngül yoluxmuş, həm də hey yoluxmamış insanların qanı və ağciyərlərini analiz edərək təhlil apariblar. İnfeksiyanın orqanizmdə yayılması üçün hansı gen və zülalların açar rolunu oynadığını tapıb, bu genin hansı qan qrupunda az və ya çox olduğunu araşdırıblar.

Çoxsaylı tədqiqatlar göstərib ki, birinci qan qrupunda ABO geni variantında funksional zülallar az olduğu üçün koronavirusa yoluxma və ağır keçirmə riski azdır. II, III və IV qan qrupunda qan plazmasında bu zülallar çoxdur. Alimlər pandemiya başlayandan daha çox II və III qrupun koronavirusu ağır keçirməsi fenomeni ilə rastlaşmışdılar. Amma bunun səbəbini izah edə bilmirdilər.

Əslində dünyada koronavirusa yoluxma üzrə I qrup çoxdur, lakin bu ona görədir ki, dünyada ən çox insan bu qrupu daşıyır. Amma ağır keçirənlər arasında II qrup daha çoxluq təşkil edib.

# Tokio-2020: Xarici nümayəndə heyətlərinin sayı azaldıldı

***Tokio-2020 Yay Olimpiya və Paralimpiya Oyunlarında xarici nümayəndə heyətlərinin sayı 78 000 nəfər təşkil edəcək.***



”Unikal”ın məlumatına görə, bu barədə Təşkilat Komitəsinin sədri Seyko Hasimoto mətbuat konfransında bildirib.
Hasimoto bu rəqəmin əvvəlcə planlaşdırılandan iki dəfə az olduğunu söyləyib: ”Başlanğıcda ”Tokio-2020”yə 180 000 nəfərin gəlişini planlaşdırırdıq. Bu rəqəmi yarıdan daha aşağı - 78 minə endirməyi bacardıq. Yay Olimpiya Oyunlarında xarici nümayəndə heyətlərinin sayı 59 min, paralimpiadada isə 19 min nəfər təşkil edəcək. Bu saya müxtəlif idman rəsmiləri, sponsorların nümayəndələri və jurnalistlər də daxildir”.
Qeyd edək ki, Tokio Yay Olimpiya Oyunları 2020-ci il 24 iyul - 9 avqustda keçirilməli idi. Oyunlar koronavirus pandemiyası üzündən bu il 23 iyul - 8 avqusta təxirə salınıb. Tokio Yay Paralimpiya Oyunları bu il 24 avqust - 5 sentyabrda gerçəkləşməlidir.

# "Neftçi" "Qarabağ"ı geri, "Legiya"nı irəli saldı

***”Neftçi” klubunun Azərbaycan Premyer Liqasının qalibi olması Polşa ”Legiya”sını da irəli salıb.***




”Unikal” qəzetinin məlumatına görə, bu, ”Qarabağ” üzərində son turda qazanılmış 1:0 hesablı qələbədən sonra baş verib. Bakı komandası reytinqcə aşağı olduğu üçün Varşava təmsilçisi püşkatma zamanı Çempionlar Liqasının II təsnifat mərhələsində yer alacaq.
Bu isə o deməkdir ki, ”Legiya” iki görüşündən qalib ayrılsa, ən azı Konfrans Liqasının qrup mərhələsinə vəsiqəni təmin edəcək. Qeyd edək ki, ”Legiya”nın tezliklə ”Qarabağ” və Azərbaycan millisinin futbolçusu Mahir Emreli ilə müqavilə bağlayacağı bildirilir.

# UEFA pandemiyaya görə klubların ümumi gəlir itkisini açıqladı

***Avropanın futbol klublarının son iki mövsümdəki təxmini gəlir itkisi açıqlanıb.***

”Unikaı” qəzetinin məlumatına görə, bu barədə UEFA-nın hesabatında bildirilib. Avropa futbol qurumu gəlir itkisinin 8,7 milyard avro olacağını təxmin edib. Bunlardan 4 milyard avrosu bilet satışından, 2,7 milyard avrosu sponsorluq müqavilələrindən, 1,4 milyard avrosu televiziya yayımından gələn zərərlərdir. AVRO-2020 və avrokuboklar koronavirusa görə təxirə salındığı üçün klublar 2 milyard avro qənaət edib. Turnirlər ləğv edilsəydi, bu olmayacaqdı.
UEFA-nın hesabatına görə, Çempionlar Liqasının qrup mərhələsinə düşə bilməyən klublara illik həmrəylik ödənişləri 2018 - 2021-ci illərdə 558 milyon avro təşkil edib, lakin bu məbləğ 2021 - 2024-cü ildə əhəmiyyətli dərəcədə artacaq.



# Qara Qarayevdən nümunəvi addım

***“Qarabağ”ın vitse-kapitanı Qara Qarayev nümunəvi addımla yadda qalıb.***



”Unikal” qəzetinin məlumatına görə, Premyer Liqanı ikinci pillədə başa vuran Ağdam klubunun yarımmüdafiəçisi Vətən Müharibəsində şəhid olan azarkeş Məhəmmədəli İbrahimlinin məzarını ziyarət edib. Qarayev şəhidin məzar daşı üzərindən klub rəhbərliyinin qərarı ilə ölümündən sonra layiq görüldüyü Azərbaycan Premyer Liqasının gümüş medalını asıb. Həmin medal mayın 24-də şəhidin ailəsinə təqdim olunacaq.
Qara Qarayev apasport.az saytına açıqlamasında ziyarətə gümüş medalla getmədiyi üçün məyus olduğunu gizlətməyib: “Bu haqda çox danışmaq istəmirəm. Hamımızın borcudur. Çox istərdim ki, ziyarətinə qızıl medalla gedim. İnşallah, növbəti mövsüm qismət olar”.
Qeyd edək ki, “Qarabağ” Premyer Liqanın son turunda “Neftçi” ilə (0:1) keçirilən matçdan əvvəl klub azarkeşi Məhəmmədəli İbrahimlinin adını medal alacaq komanda üzvlərinin siyahısına daxil etməklə, ilkə imza atıb.

# Bakıda "Formula 2" yarışı da keçiriləcək

***”Bu yarışı keçirməyə nə qədər iddialı olsaq da, pandemiya dönəmində əminliklə danışmaq mümkün deyil”.***

”Unikal” qəzetinin məlumatına görə, bu fikirləri Bakı Şəhər Halqası Əməliyyat Şirkətinin (BŞH) İctimaiyyətlə Əlaqələr Şöbəsinin müdiri Ayan Nəcəf-Ağayeva deyib.
O bildirib ki, Azərbaycan Qran-prisini mövsümün ən yaxşı yarışı kimi təşkil etməyə iddialıdırlar: ”Təşkilatçılar bütün tədbirləri görürlər ki, azarkeşlərə televiziya vasitəsilə lazımi görüntüləri təqdim etsinlər. Yarış azarkeşsiz olsa da, medianın fəaliyyəti artıb. Çünki ”Formula 1”sevərlər yarış barədə onlardan məlumat alır. Hansısa yarışda yubanma və dayanma olsa belə, Qran-pri 3 saata bitməlidir. Əvvəllər hansısa yarış 4 saatadək çəkib”.
BŞH rəsmisi Bakıda ”Formul 1”lə yanaşı, ”Formula 2” yarışının da olacağını diqqətə çatdırıb: ”Bəzən Bakıdakı Qran-prilərdə bu olmurdu. Amma bu mövsüm gerçəkləşəcək”.
Qeyd edək ki, Azərbaycan Qran-prisi 4 - 6 iyunda keçiriləcək.

# Messi La Liqanın son turunda oynamayacaq

***İspaniyanın ”Barselona” klubunun ulduz futbolçusu Lionel Messi La Liqanın XXXVIII - sonuncu turunda oynamayacaq.***

”Unikal” qəzetinin Kataloniya təmsilçisinin rəsmi tvitter hesabına istinadən xəbər verir ki, 34 yaşlı hücumçu ”Eybar”la görüşdə meydana çıxmayacaq.
Argentinalı forvardın bu gün məşqçilər heyətinin icazəsi ilə hazırlıq prosesinə qatılmadığı da bildirilib.
Qeyd edək ki, mayın 22-də keçiriləcək ”Eybar” - ”Barselona” matçı Bakı vaxtı ilə saat 20:00-da başlayacaq. Mövsümün sonunda müqaviləsi başa çatacaq Messinin klubdan ayrılacağı gözlənilir. ”Barselona” sona bir tur qalmış La Liqada çempionluq şansını itirib.

# Cüdoçularımız dünya çempionatına Almaniyada hazırlaşır

***Almaniyanın Henef (Ziq) şəhərində cüdo üzrə beynəlxalq təlim-məşq toplanışı keçirilir.***

”Unikal” qəzeti xəbər verir ki, toplantıda Avropanın ən güclü cüdoçuları ilə yanaşı, Azərbaycan millisinin də üzvləri iştirak edirlər.
Avropa Cüdo Birliyinin təşkilatçılığı ilə baş tutan məşqlərə Azərbaycan cüdoçuları ilə yanaşı Fransa, Almaniya, İtaliya, Belçika, Avstriya, Çexiya, Serbiya və digər ölkələrin yığmaları da qatılıb.

# "Sabah" klubu 3 futbolçusu ilə vidalaşdı

***“Sabah” FK klubla müqavilə müddəti bitən Məhəmməd Mirzəbəyov, Amadu Diallo və Alvaro Vilyete ilə yollarını ayırıb.***

Qeyd edək ki, Mirzəbəyov və Diallo 2019-cu ilin iyun ayından komandamızın uğurları üçün çalışırdı. Vilyete isə ötən ilin sentyabr ayında Kolumbiyanın “Patriotas” klubundan mövsümün sonuna kimi icarəyə götürülmüşdü.
“Sabah” FK hər 3 futbolçuya xidmətlərinə görə təşəkkür edir, onlara gələcək karyeralarında uğurlar arzulayır.

# Azərbaycan komandası Bakıdakı yarışın finalına yüksəldi

***Azərbaycanın 12-14 yaş qrupundan ibarət komandası Bakıdakı aerobika gimnastikası üzrə yarışın finalına vəsiqə qazanıb.***




”Unikal” qəzetinin məlumatına görə, Sara Əlixanlı, Sənəm Kazımova və Aliyə İsmayılovadan ibarət ”3-lük” təsnifat mərhələsini 17.950 xalla 6-cı sırada bitirib.
Digər üçlük (Evelina Kozlovskaya, Məryəm Topçubaşova, Fidan İbrahimova) 17,600 xalla 9-cu yeri tutub və finala yüksələ bilməyib. Həlledici mərhələ yarışın sonuncu günündə - mayın 23-də olacaq. Qeyd edək ki, dünya yaş qrupları yarışlarında 18 ölkədən 202 gimnast iştirak edir.

Səhifəni hazırladı: Aygün İlqarqızı